www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 sentyabr 2014-cü il Cümə axşamı № 227 (5936) Qiymәti 40 qәpik

**Xəbər**

## Keçmiş direktor təhsil şöbəsinin müdirini döydü

yazısı səh.13-də

**Gündəm**

### Prezidentlərin intensivləşən görüşlərinin pərdəarxası



Qərb Qarabağ strategiyasına düzəliş edir; ABŞ təkbaşına vasitəçiliklə problemi istədiyi kimi uzadan Rusiyanı fakt qarşısında qoymağı hədəfləyib

yazısı səh.11-də

### Meriya qurultay üçün Müsavata Əmircanı verdi

yazısı səh.7-də

### Dələduz məhkəmə hakiminin işi ilə bağlı qalmaqal

yazısı səh.15-də

### Parlament 200 min manatı bölmək üçün qanuna düzəliş edəcək

yazısı səh.6-da

### Xaçmazdakı pivə zavodunun direktoruna sərt ittihamlar

yazısı səh.15-də

### Mübariz Qurbanlı özünə yeni komanda yığır

yazısı səh.13-də

*Tural Abbaslı:*

### "İsa Qəmbərin kabinetində oturacam"

yazısı səh.4-də

### Ermənilər 15 yaşlı azərbaycanlı girovu qaytarmaq istəyir

yazısı səh.11-də

### Fülenin Bakı səfəri QHT-ləri xilas edəcəkmi?

yazısı səh.9-da

### Bir uşağı məktəbə yola salmaq üçün azı 150 manat lazımdır

yazısı səh.14-də

### İsrail müdafiə nazirinin Bakıya yarıməxfi səfəri

yazısı səh.3-də

### Müxalifət niyə mitinq keçirmir?

yazısı səh.12-də

### DAK-la İran səfirliyi arasında dava qızışdı

yazısı səh.6-da

## Rəsmi Tiflis Azərbaycanla sərhədini viza ilə möhürlədi

# "GÜRCÜSTAN CƏNNƏTİ" ÜZÜMÜZƏ BAĞLANIR-TƏFSİLAT

İki ölkə iqtidarı arasında əldə olunan razılaşma ilk növbədə Tiflisə sığınan siyasi fəalların, müxalif yazarların, Qərbin donor təşkilatları ilə əməkdaşlıq edən QHT üzvlərinin işini mürəkkəbləşdirib; **Elxan Şahinoğlu:** "Avropadakı mühacirlərin də geri qaytarılması başlanacaq"




yazısı səh.8-də

## Saakaşvilini müharibəyə qızışdıran ABŞ diplomatı Moskvaya səfir göndərildi

Vaxtilə "WikiLeaks"in ifşa etdiyi Con Teffi təqaüddən geri çağırıblar; köhnə səfir isə twitter yazışmalarının güdazına gedib; Kreml də QHT sektorunu bitirməyə girişib...

yazısı səh.3-də



Şövqü Vaqifoğlu

### Putinin "işdən çıxardığı" azərbaycanlı iş adamı "Yeni Müsavat"a danışdı

yazısı səh.10-da



### Abbas Abbasovun vaxtilə dostluq etdiyi müxalifətçidən ilginc açıqlamalar

yazısı səh.5-də



*Rauf Arifoğlu:*

### "Məhkəmə sistemi Anar Məmmədovun kaprizi ilə oynayır"

yazısı səh.3-də

## Prezident Nizami rayonunda məktəblərə baş çəkib



**Sentyabrın 10-da prezident İlham Əliyev sentyabrın 10-da Bakının Nizami rayonundakı 32 və 12 nömrəli tam orta məktəblərdə yaradılan şəraitlə tanış olub. 32 nömrəli məktəbdə 1050 şagird təhsil alır. Yeni dərs ili ərəfəsində məktəbin bütün sinif otaqları, fənn kabinetləri yüksək standartlara uyğun şəkildə əsaslı surətdə təmir edilib, lazımi avadanlıq və dərs ləvazimatları ilə təchiz olunub. Məktəbin istilik və işıqlandırma sistemləri də müasir tələblər səviyyəsində yenidən qurulub. Növbəti il üçün 640 şagird yerlik əlavə korpusun inşası nəzərdə tutulur.**

12 nömrəli məktəbdə 43 sinif otağı var. Məktəbdə 1200-ə yaxın şagird təhsil alır. Növbəti dərs ili üçün 240 şagird yerlik əlavə korpusun inşası nəzərdə tutulur. Burada da bütün sinif otaqları və fənn kabinetləri yüksək standartlar səviyyəsində təmir edilib, müasir istilik və işıqlandırma sistemləri quraşdırılıb.

## Erməni "soyqırımı"nı inkar etmək Yunanıstanda cinayət oldu

**Yunanıstan parlamenti yeni qanun qəbul edib. "Media forum" saytı xəbər verir ki, qanun irqçilik, ksenofobiya zəminində zorakılığı qızışdırmağa və yunanların, ermənilərin "soyqırımı"nı, Xolokostu, nasizmi inkar etməyə görə məsuliyyət nəzərdə tutur.**

Qanuna görə, "soyqırımı"nı inkar edənlər 3 aydan 3 ilədək həbs cəzası ilə cəzalandırılacaqlar. Bu, insanlıq əleyhinə cinayətləri, hərbi cinayətləri, Xolokostu və nasizmi inkar edənlərə də aiddir.

Parlamentin deputatları və məmurlar bu cür hərəkətlərə yol versələr, onları 3 ildən 5 ilədək həbs cəzası gözləyir.

## Prezident Administrasiyasının qarşısında aksiya

**Sentyabrın 10-da saat 13.00 radələrində "Sevil" MMC-dən zərər görən bir qrup şikayətçi Prezident Administrasiyası qarşısında aksiya keçirməyə cəhd edib. Aksiya iştirakçılarının interpress.az-a verdiyi məlumata görə, toplaşanlar əsasən "Sevil" MMC-dən torpaq sahəsi alaraq ərazidə tikinti aparanlardır. Təsisçisi və rəhbəri həbs edilən və tikinti işlərinin dayandırıldığı massivdə torpaq və mənzil alanların ödədiyi məbləğ siyahıya əsasən Hökməli bələdiyyəsi tərəfindən geri qaytarılsa da, fərdi ev tikintisi aparanlara tikintinin pulu ödənilmir.**

Aksiyaçıların bildirdiyinə görə, onlara ancaq torpağın pulunun ödəniləcəyi və daha sonra tikintinin qiymətləndiriləcəyi bildirilib. Ancaq bunun müqabilində tikinti sahiblərindən əllərindəki sənədlərin təhvil verilməsi tələb olunub ki, tikinti sahibləri bununla razılaşmayıblar: "Bizə bildirilir ki, torpağın pulu ödəniləcək, ancaq tikinti daha sonra qiymətləndiriləcək. Lakin həmin qiymətləndirmənin hansı qaydaya uyğun aparılacağı bəlli deyil. Üstəlik, torpağa ödədiyimiz vəsaitin geri qaytarılması üçün əlimizdəki torpağa aid sənədlər geri alınacaq. Sənədləri verdikdən sonra həmin torpaqdakı tikintinin bizə məxsus olduğunu necə sübut edəcəyik?"

Aksiyanın icazəsiz olduğunu bildirən polis ona müdaxilə edib. Nəticədə Vüqar Qurbanov adlı aksiyaçı xəsarət alıb. Daha bir nəfər isə saxlanaraq polis bölməsinə aparılıb.

## Nemət Pənahlı kamerada tək qalır

**Qobustan həbsxanasında cəza çəkən siyasətçi Nemət Pənahlıya ailəsi ilə qısamüddətli görüş verilib. Məhbusun həyat yoldaşı Həcər Pənahlı sentyabrın 10-da "mediaforum" saytına Nemət Pənahlının saxlanma şəraitində elə bir şikayəti olmadığını bildirib: "Sentyabrın 8-də görüşdük. Neməti başqa kameraya keçirdiblər, tək qalır.**

Qobustan həbsxanasına yeni təyin olunan rəis nisbi qayda-qanun yaradıb. Əvvəllər saatlarla qapıda qalırdıq. İndiki durum daha rahatdır. Əvvəllər Nemət yataqdan şikayətlənirdi, indi şərait dəyişib, normaldır".

Həcər Pənahlı Nemət Pənahlının şəkərdən çox əziyyət çəkdiyini deyib: "Qanunla bir saat havada ola bilir. Bu da çox azdır".

Nemət Pənahlı 2011-ci il yanvarın 8-də tutulub, xuliqanlıq və qəsdən sağlamlığa az ağır zərər vurma ittihamı ilə 6 il müddətinə azadlıqdan məhrum edilib.

51 yaşlı Nemət Pənahlı 1988-ci ildə başlayan milli azadlıq hərəkatının öncül simalarından, Azərbaycan Xalq Cəbhəsinin qurucularından olub.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# Avropa Şurası payız sessiyasının gündəliyini açıqlayıb

**Avropa Şurası Parlament Assambleyasının sentyabrın 29-dan oktyabrın 3-dək keçiriləcək payız sessiyasının gündəliyi açıqlanıb. Sessiyanın ilk günündə AŞPA sədrinin yay sessiyasından ötən dövrdəki fəaliyyəti barədə hesabatı dinləniləcək, Büronun və daimi komitənin hesabatları müzakirə olunacaq, Türkiyədə keçirilən prezident seçkisinin nəticələri ilə bağlı fikir mübadiləsi aparılacaq.**




Sentyabrın 30-da neofaşizm və ksenofobiya hallarının aşkar edilməsi və onlara qarşı mübarizə, ərəb inqilablarından sonra qurulan demokratiyada qadınların vəziyyəti diqqət mərkəzində olacaq.

Sonrakı günlərdə ötən ilin oktyabrından 2014-cü ilin oktyabrına qədər olan müddətdə monitorinqin prosedur dəyəri, Gürcüstanda demokratik təsisatların fəaliyyəti, Avropa Yenidənqurma və İnkişaf Bankının 2013-2014-cü illərdə fəaliyyəti, Albaniyanın Avropa Şurasına daxil olarkən götürdüyü öhdəlikləri yerinə yetirməsi, Avropada döş xərçənginin müalicəsinin optimizm variantı məsələləri müzakirə olunacaq.

Sessiyanın gedişi ərzində avropalı deputatlar Ukrayna böhranı ətrafında müzakirələr aparacaq və insan haqları üzrə Vatslav Havel mükafatının təqdimatı keçiriləcək.

## Bu gün 11 sentyabr hadisələrinin ildönümüdür

**Bu gün 2001-ci il sentyabr ayının 11-də ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərindəki hədəflərə qarşı həyata keçirilən terror aktlarının 13 ili tamam olur.**

Həmin gün yerli vaxtla saat 08:46-da "American Airlines" şirkətinə məxsus sərnişin təyyarəsi Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin Şimal qülləsinə çırpıldı. 09:03 radələrində isə Cənub qülləsi bənzər hücuma məruz qaldı. Həmin qüllələr təyyarə hücumuna qarşı durmaq üçün kifayət qədər möhkəm tikilmişdi.

Lakin qüllələrin içərisində naməlum şəxslərin yerləşdirdiyi güclü partlayıcı qurğuların partladılması nəticəsində hər iki qüllə dağıldıdı. Sonuncu hücumdan 40 dəqiqə sonra ABŞ Müdafiə Nazirliyi - Pentaqonun binası da intiharçıların idarə etdikləri təyyarə tərəfindən vuruldu.

Bu hücumdan 25 dəqiqə keçdikdən sonra eyni məqsədlə qaçırılan bir sərnişin təyyarəsinin hava hücumundan müdafiə qüvvələri tərəfindən vurularaq zərərsizləşdirildiyi açıqlandı. Həmin təyyarənin hədəfinin Ağ Ev olduğu bildirildi. Bu hadisələr 3 minə yaxın sadə vətəndaşın ölümü, 6 mindən çox insanın yaralanması ilə nəticələndi.

## 200 Ukrayna hərbçisinin öldüyü təsdiqləndi

**"İlovayskda azı 200 hərbçimiz həlak olub". ANS-in məlumatına görə, bu barədə Ukraynanın baş prokuroru Vitali Yarema bildirib. O qeyd edib ki, hazırda Dnepropetrovskda hərbi prokurorlar araşdırma aparırlar.**

Ukraynanın Dnepropetrovsk vilayət sədrinin müavini Boris Filatov bir müddət öncə İlovayskdakı faciədə ölənlər barədə açıqlama verib.

O, batalyon komandirləri ilə söhbətdən sonra qeyd edib ki, İlovayskda 100-dən çox ukraynalı hərbçi həlak olub.

Eyni zamanda Donbasda döyüşən hərbçi Vladimir Parasyuk isə İlovayskda ən azı 500 ukraynalının öldüyünü söyləyib.

Batalyonun döyüşçüləri bu faciədə 1200-dək hərbçinin həlak olduğunu iddia edirlər.

## Seymur Həzinin apelyasiya şikayətinə baxılacaq

**Xəbər verildiyi kimi, avqustun 29-da AXCP üzvü, "Azadlıq" qəzetinin əməkdaşı Seymur Həzi həbs edilib. O, 221.3 maddəsi ilə (silah və ya silah kimi istifadə olunan əşya tətbiq etməklə xuliqanlıq) ittiham olunaraq, barəsində 2 aylıq həbs-qətimkan tədbiri seçilib. Hazırda AXCP üzvü Bakı İstintaq Təcridxanasında saxlanılır.**

Seymur Həzinin hüquqlarını müdafiə edən Elton Quliyev istintaqla bağlı heç bir yeniliyin olmadığını bildirdi: "Seymur bəylə dünən görüşdüm. Saxlanma şəraitindən razıdır. Görüşlə bağlı heç bir maneçilik yaradılmır. Qanunsuz həbsindən apelyasiya şikayətimizə yaxın günlərdə baxılacağı gözlənilir".

**AXCP üzvünün atası Məşğul Həziyev oğlu ilə telefon vasitəsilə ünsiyyət yaratdıqlarını qeyd etdi:** "3 gün əvvəl özü zəng etmişdi. Başqa əlaqə vasitəmiz yoxdur. Zəng edəndə heç nədən narahat olmamağımızı və hər şeyin qaydasında getdiyini bildirdi. Təcridxana qanunlarına görə həftədə bir dəfə yemək aparılır. Heç bir problem yaradılmır. Digər vətəndaşları necə qarşılayırlarsa, mənə o cür münasibət göstərirlər".

**Məhbus atası oğlunun həbsinin siyasi əqidəsi ilə əlaqədar olduğunu da söylədi:** "Hamımıza həbsin nə ilə bağlı olduğu məlumdur".

**Seymur Həzinin qardaşı Teymur Həziyev də qardaşının həbsinin siyasi sifariş olduğunu iddia edir:** "Seymur apardığı mübarizəyə, etdiyi haqlı tələblərə görə həbs edilib. Bu, birbaşa siyasi sifarişdir. İstintaqda adı hallanan Məhərrəm adlı şəxsin həbs edildiyini deyirlər. Biz bunun nə dərəcədə doğru olduğunu deyə bilmərik. Bəlkə də bir şayiədir".

❑ **Cavanşir ABBASLI**

## Vəhhabilərin ən güclü qanadı məhv edildi - 45 ölü

**Suriyada vəhhabilərin təkfirçi qanadının rəhbərliyi məhv edilib. Axar.az xəbər verir ki, "Əhrarur Şam" terror qruplaşmasının liderləri Suriyanın Ram-Həmdan kəndində yerləşən qərargahında partladılaraq havaya sovrulublar.**

Partlayış nəticəsində vəhhabi terrorçulardan 45 nəfər ölüb, çoxlu sayda təşkilat üzvü yaralanıb.

Hadisə nəticəsində təşkilatın aparıcı qüvvələri - Həsən Abbud, Əbu Yazan və arvadı Şamı, Əbu Talha, Əbu Talha əl-Ğabi, Əbu Abdulməlik (İslam Cəbhəsinin başçısı), Əbu Eymən Həmavi, Əbu Eymən Ram Hamdan, Əbu Sariya və başqaları öldüyü aydınlaşıb. Hücumun kimlər tərəfindən həyata keçirildiyi bilinmir.

"Əhrarur Şam" qruplaşması Suriyada "İslam Cəbhəsi"nin bir qanadıdır.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

## Mehriban Əliyeva Olimpiya Stadionundakı işlərlə tanış oldu

**Azərbaycanın birinci xanımı, "Bakı-2015" Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva Bakı Olimpiya Stadionunda həyata keçirilən işlərin gedişi ilə tanış olub.**

«AzərTAc» xəbər verir ki, birinci xanıma Bakı Olimpiya Stadionunun interyerində həyata keçirilən və görüləcək işlərlə bağlı məlumat verilib. Təşkilat Komitəsinin sədri interyerdə istifadə olunacaq tikinti materialları və mebel avadanlığı ilə bağlı tövsiyələrini verib.



## "İşgəncəyə məruz qalıram"

**Keçmiş səhiyyə naziri, hazırda 13 saylı cəzaçəkmə müəssisəsində saxlanılan Əli İnsanov Avropa Şurasının İşgəncələrə qarşı Komitəsinə müraciət edib.**

İnterpress.az xəbər verir ki, sentyabrın 10-da göndərilən müraciətdə keçmiş nazir işgəncələrə məruz qaldığını bildirib.

Müraciətdə bildirilir: "Avropa İnsan Haqları Məhkəməsi 14 mart 2013-cü il tarixli qərarı ilə Əli İnsanovun konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan ədalətsiz məhkəmə araşdırması hüququnun və 3-cü maddəsi ilə nəzərdə tutulan işgəncələrə məruz qalmamaq hüququnun pozulması nəticəsinə gəlib. Buna görə Azərbaycan hökuməti 10 min avro cərimələnib. Lakin hökumət Avropa Məhkəməsinin həmin qərarını qəsdən icra etmir. Əli İnsanovun ədalətsiz məhkəmə araşdırması hüququ təmin edilməyib. Avropa İnsan Haqları Məhkəməsinin qərarında Əli İnsanovun 13 saylı cəzaçəkmə müəssisəsində ağır və dözülməz şəraitdə saxlanılması işgəncə kimi qiymətləndirilsə də o, bu günə kimi həbsxanada ağır və dözülməz şəraitdə saxlanılmaqla işgəncəyə məruz qoyulur".

Ə.İnsanovun vəkili Toğrul Babayevin sözlərinə görə, Əli İnsanov pozulmuş hüquqlarının müdafiəsi üçün Avropa Şurası İşgəncələrə qarşı Komitəsinə müraciət edib.

YENİ MÜSAVAT
N 227 (5936) 11 sentyabr 2014



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Saakaşvilini müharibəyə qızışdıran diplomat Moskvaya səfir göndərildi

## Vaxtilə "WikiLeaks"in ifşa etdiyi Con Teffi təqaüddən geri çağırıblar; köhnə səfir isə twitter yazışmalarının güdazına gedib; Kreml də QHT sektorunu bitirməyə girişib...

**ABŞ Rusiyadakı səfirini vaxtından əvvəl dəyişib. Bu dəyişiklik Amerika və Rusiya mediasında geniş müzakirələrə səbəb olub. Bu dəyişiklikdən daha çox keçmiş səfirdən son dərəcə narazı olan Rusiya məmnun qalıb. Köhnə səfir əsasən ictimai sektorla işləyirdi. Təbii ki, Kreml düşmən hesab etdiyi bu kimi təşkilatlarla isti münasibətdə olan birisindən o qədər də razı qala bilməzdi.**

O, həm də "rəngli inqilablar" üzrə mütəxəssis sayılırdı. Əlbəttə, keçmiş səfirin rəsmi Moskva tərəfindən xoş qarşılanmamasının yeganə səbəbi onun dostları ilə bağlı deyildi. Cənab Makfol Rusiyaya qarşı kəskin neqativ mövqeyi ilə seçilirdi. Rusiyadakı demokratiya uğrunda mübarizləri açıq şəkildə dəstəkləyirdi.

"The Washington Post"un müxbiri Maykl Brinbaum yazır ki, "Amerikanın Rusiyadakı əvvəlki səfiri twitterdə atəşfəşanlıq təşkil edirdi. Moskva həyatı barədə süzgəcdən keçməyən fikirlərini sosial şəbəkədə həvəslə paylaşırdı. Diplomata yaraşmayan maneralar nümayiş etdirməkdən sanki həzz alırdı. Ancaq Rusiyaya yeni təyin olunmuş səfirimizin heç twitter səhifəsi də yoxdur...

Maykl Makfolun isə twitterdə açıq və son dərəcə sürətlə yazışmalar aparırdı. Bu kimi davranışlar Amerika səfirləri üçün qətiyyən tipik deyil. Bir qayda olaraq Maykl Makfolun kimi diplomatların dediyi və ya yazdığı hər hansı bir mətn əvvəlcədən Dövlət Departamenti tərəfindən senzuradan keçirilir, müəyyən düzəlişlər olunur. Maykl Makfolun Moskvaya gələndə Amerikanın dövlət katibi Hillari Klinton idi. Xanım Klintonun təlimatında deyilirdi ki, səfirlər twitterdən olduqları ölkənin insanları ilə münasibət qurmaq üçün istifadə etsinlər. Bu çağırış Maykl Makfolun ürəyincə olmuşdu və onu twitterdən ayırmaq olmurdu".

"The Washington Post" yazır ki, twitterə bağlı belə bir səfir Rusiyada özünü doğrulda bilməzdi, elə ona görə də ənənəvi diplomatiyaya üstünlük verən Con Teffa Moskvaya göndərildi. O, Moskvanın qızılı rəngə boyanmış saraylarında daha yaxşı münasibətlər qura bilər, hər halda, o, Maykl Makfolundan daha münasib fiqurdur. Ömrünün 40 ilini diplomat kimi fəaliyyətdə olub. Poliqlot kimi tanınır. Düşünün ki, ivrit, rus və macar dillərini bilir. Macar dili isə öyrənilməsi praktiki mümkün olmayan ən çətin dil sayılır.

"Cənab Teff 1949-cu ildə anadan olub. Onun karyerası diplomatiyaya bağlı olub. Ukraynada, Gürcüstanda, Litvada səfir kimi çalışıb. Moskvaya səfir göndərmək üçün onu təqaüddən geri çağırmalı olublar. Onun diplomat kimi öz üslubu var. Və bu üslub Rusiyada daha çox işə yarayacaq", məqalədə deyilir.

"Rusiya-ABŞ münasibətləri uzun müddətdir ki, mövcuddur və böyük tarixi var. Biz müttəfiq də olmuşuq, rəqib də. Biz əməkdaşlıq da etmişik, münaqişələrimiz də az olmayıb. Ancaq bütün bunlara baxmayaraq, bir dəyişməz yanaşma da olub. Amerika Rusiya ilə, onun xalqı və rəhbərliyi ilə qarşılıqlı əməkdaşlığa üstünlük verib", qəzet yazır.

Yeni səfirin bu fikri facebookda yayımlanıb, ancaq önəmlisi odur ki, bu paylaşmanı səfir etməyib. Kimsə başqa birisi onun fikrini tirajlamağı lazım bilib...

İndi görək Rusiya mətbuatı Amerikanın yeni səfiri haqqında nə yazır? Düşünün ki, yeni səfirin ən yaxın dostları sırasında Saakaşvili var, Berezovski olub və onun dostluğu bu tipdən olan şəxslərlə çox zəngindir. Qeyd olunur ki, Con Teff ABŞ-ın Gürcüstanda səfiri olarkən bu ölkə Cənubi Osetiyaya soxuldu, o, Ukraynada səfir olarkən isə Viktor Yuşşenko təmsil etdiyi ölkənin ABŞ-ın dəstəyi ilə NATO-ya daxil olmasına cidd-cəhd göstərdi. Lakin "qoca Avropa" Ukraynanın NATO-ya daxil olmasına mane oldu.



Ruslar onu da vurğulayırlar ki, bu səfir nümunəvi xidmətinə görə dəfələrlə Amerikanın mükafatlarını alıb. Amerikada isə ad gününə və ya bu kimi xırda şeylərə görə dövlət mükafatı verilmir. Verilibsə, deməli, ciddi xidmətlər həqiqətən də olub.

Qeyd olunur ki, nümunəvi diplomatik xidmətinə baxmayaraq Con Teffin də müəyyən yanlışlıqları olub. Və belə yanlışlıqlar gözlənilmədən üzə çıxıb. "WikiLeaks"in yaydığı məlumatların birində deyilirdi ki, cənab Teff 2008-ci ildə Saakaşvilini inandırırdı ki, əgər Gürcüstan Cənubi Osetiyada separatçılara qarşı mübarizəyə başlasa, Qərb Gürcüstanın yanında olacaq.

**"WikiLeaks"in yaydığı məlumatlardan o da bəlli olmuşdu ki, cənab Teff Ukraynada səfir olarkən bu dövlətin himninə qarşı son dərəcə mənfi münasibətdə olub. Təbii ki, onun heç ağlına da gəlməyib ki, nə vaxtsa bu fakt mətbuata sıza bilər. O, Dövlət Departamentinə göndərdiyi məruzədə yazırdı:** "Xüsusən onların himnini dinləmək mümkün deyildi. Bu, adama əzab verir. Onlar xorla "He ne vmgrla Ukraina..." hissəsini oxuyanda isə adam dəli olur... Elə bilirsən ki, bu, ölməkdə olan milçəklərin son vızıltısıdır. Hərdən mənə elə gəlirdi ki, bu musiqini dinləməkdənsə ölmək yaxşıdır".

Ruslar bildirirlər ki, cənab Teff Rusiya iqtidarının yeritdiyi siyasətə qarşı son dərəcə kəskin mövqedə olan birisidir. O, Moskvada işə başlamamışdan öncə Senat qarşısında çıxış edərkən deyib ki, ABŞ heç vaxt Rusiyanın Krımı işğal etməsi ilə razılaşmayacaq. Üstəlik, o, Rusiyanı Ukraynada işğalçılıq siyasəti aparmaqda suçlayıb. Rusiyadan gedən səfir Maykl Makfol isə yerinə gələn səfir haqqında deyib ki, o, mükəmməl diplomatdır və bu sahədə ən yaxşılarından biridir.

Ancaq Rusiya mətbuatı onu da bildirir ki, Rusiya-Amerika münasibətləri daha yüksək səviyyəli rəsmilər tərəfindən nizamlanır. Moskvadakı səfirin vəzifəsi isə Vaşinqtonda müəyyən olunan xətti qüsursuz həyata keçirməkdir...

**Qeyd edək ki, ABŞ-ın Bakıdakı səfiri də vaxtından əvvəl dəyişdirildi; o da QHT sektorunun fəalları ilə münasibəti sevirdi...**

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

# "Məhkəmə sistemi Anar Məmmədovun kaprizi ilə oynayır"

## Rauf Arifoğlu: "Bu, məhkəmə-hüquq sistemi üçün böyük ayıb tarixidir və bu tarix silinməlidir"

**Nəqliyyat nazirinin oğlu Anar Məmmədovun "Yeni Müsavat" qəzetinə qarşı qanunsuzluqları davam edir. Bu barədə qəzetimizin ötən sayında da xəbər vermişdik. Baş yazarımız Rauf Arifoğlunun bununla bağlı ədliyyə naziri, Məhkəmə Hüquq Şurasının sədri Fikrət Məmmədova müraciətinə də hələ müvafiq cavab verilməyib.**



Bizə açıqlamasında R.Arifoğlu son durumla bağlı danışdı. Dedi ki, A.Məmmədovun "Yeni Müsavat"la bağlı məhkəmə prosesi Azərbaycan hüquq tarixində qara ləkədir. Müsahibimiz xatırlatdı ki, A.Məmmədovla qəzet arasındakı centlmen anlaşmasından sonra o, iddiasının icrasını geri çəkmişdi: "Bununla bağlı məhkəmə qərarı vardı və biz o qərarı almışdıq. Qanuna görə, qərardan şikayət müddəti 10 gündür. Lakin aradan 5 ay keçəndən sonra o, birdən məhkəməyə müraciət edib. Qərarların icrası ilə bağlı verilən məhkəmə hökmünün ləğv olunmasını istəyib. Məhkəmə də bu şəxsin qarşısında nəyə görəsə qanunsuzluğa yol verib və qəzetin üzərinə Anar Məmmədovun iddiası əsasında yönəlmiş 4 min manatı yenidən icraya yönəltməklə bağlı qərar verib. Öz qərarını ləğv edən, bu qanunsuzluğa yol verən şəxs isə hakim İlham Burcayevdir. Bu azmış kimi, məhkəmə qərarını ləğv etmək üçün icraçı şəxsən banka gedib və bankdan da dərhal icraya yönəltdirib".

**Baş yazar bildirdi ki, bu kritik zamanda "Yeni Müsavat"ın 4 min manat pulu blokdadır. Onun sözlərinə görə, bununla bağlı artıq kasasiya şikayəti də verilib:** "Amma eyni zamanda mən maraqlandım ki, bəlkə biz burda haqsızıq? Bəlkə Anar Məmmədovun xətrinə dəyəndən sonra o, başqa təzyiq variantları tapmadığından qanunlar çərçivəsində buna əl atıb? Maraqlanıb öyrəndim ki, onun hərəkətləri tamamilə qanunsuzdur. Hakimlər özlərini biabır ediblər. Bununla bağlı mən Məhkəmə Hüquq Şurasının sədri, ədliyyə naziri Fikrət Məmmədova müraciət edərək şikayətimi bildirmişəm. Faktları və detalları göstərmişəm. Eyni zamanda Ali Məhkəmənin sədri Ramiz Rzayevə də şikayət edib, detalları və faktları göstərmişəm. Əgər bu qanunsuzluq aradan qalxmasa, biz Avropa Məhkəməsinə müraciət edib, bu işi udacağıq və Azərbaycanı da cərimətlətdirəcəyik. Amma bu, hakimin özü üçün də, məhkəmə-hüquq sistemi üçün də böyük bir ayıb tarixidir və bu tarix silinməlidir. Üstündən 5 ay keçəndən sonra bir nazir oğlu qəzeti cəzalandırmaq üçün hakimin əli ilə dəhşətli bir qanunsuzluğa əl atır. Məhkəmə sistemi də asanlıqla onun kaprizi ilə oynayır. Nədi, nədi Anar Məmmədov sübut etsin ki, biz centlmen anlaşmasını pozmuşuq və o, ayı işi ilə bağlı cərimənin üzərində dayanır, bizim cərimə olunmağımızı təmin edir. Halbuki Fərahim İlqaroğlu döyülənə kimi, 5 ay müddətində anlaşmamıza sadiq qalmışıq".

**R.Arifoğlu xatırlatdı ki, əslində "Yeni Müsavat"ın əməkdaşı Fərahim İlqaroğlu Anar Məmmədovun əmisi oğlu Aynar Məmmədov tərəfindən döyüləndən sonra birincinin adı gündəmə gəlib. Müsahibimizin sözlərinə görə, nazir oğlunun adı anlaşmadan sonra ancaq bu kontekstdə hallandırılıb:** "Biz onun adını bu kontekstdə hallandırmışıq. Birbaşa, qəsdlə onun adı hallandırılmayıb. Buna təəssüf edirəm və ümid edirəm ki, Fikrət Məmmədov və Ali Məhkəmənin sədri Ramiz Rzayev bu qanunsuzluğa son qoymaq qətiyyətini özlərində tapacaqlar".

❑ **Sevinc TELMANQIZI**

# İsrail müdafiə nazirinin Bakıya yarıməxfi səfəri

## Moşe Yalonun səfəri barədə məlumat ancaq onun təyyarəsi Azərbaycan paytaxtında yerə enəndən sonra verilib

**Sentyabrın 10-da İsrail müdafiə naziri Moşe Yalon Bakıya sürpriz və tarixi səfər edib. Ona görə sürpriz ki, yəhudi dövlətinin müdafiə nazirinin Bakıya səfəri barədə məlumatın yayılmasına ancaq onun təyyarəsinin Azərbaycan paytaxtında yerə enməsindən sonra icazə verilib.**

Virtualaz.org xəbər verir ki, bu barədə "The Times of İsrael" qəzetinin Moşe Yalonu müşayiət edən əməkdaşı yazıb. İlk dəfədir ki, İsrail müdafiə naziri Azərbaycana səfər edir və bu baxımdan Moşe Yalonun səfəri tarixi əhəmiyyət kəsb edir.

Azərbaycan tərəfinin yaydığı rəsmi məlumatda isə deyilir ki, prezident İlham Əliyev Bakıda sabah işə başlayacaq "ADEX-2014" müdafiə sərgisində iştirak edən İsrail nümayəndə heyətinin rəhbəri Moşe Yalonu qəbul edib. Görüşdə İsraillə Azərbaycan arasında hərbi tərəfdaşlıq məsələləri müzakirə edilib.

"Mən Azərbaycana tarixi səfər edən ilk İsrail müdafiə naziri olaraq çox şadam. Bizim ikitərəfli münasibətlərimiz çox məhsuldardır və ölkələrimiz arasında strateji tərəfdaşlıq inkişaf edir" - deyə Moşe Yalon qəbulda bildirib.

İsrail müdafiə nazirinin Bakıya səfəri iki gün davam edəcək. Onun Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov və müdafiə naziri Zakir Həsənovla, habelə digər rəsmi şəxslərlə görüşləri də planlaşdırılıb.

İsrail "ADEX-2014" sərgisində 14 şirkətlə iştirak edir. Qeyd edək ki, İsrail Azərbaycana silah satan əsas ölkələrdən biridir. Son illərdə Azərbaycan bu ölkədən milyardlarla dollarlıq müasir silah sistemləri alıb.

YENİ MÜSAVAT
N 227 (5936) 11 sentyabr 2014

# "İsa Qəmbərin kabinetində oturacam"

## Tural Abbaslı: "Niyə yeni partiya yaradaq ki, Müsavat onsuz da bizimdi"

**Bir müddət öncə Müsavat Partiyası başqanlığına iddiaçılardan olan Qubad İbadoğlu "Yeni Müsavat" qəzetinin qonağı olmuşdu. Ötən gün isə başqanlığa namizədlərdən olan Tural Abbaslını redaksiyaya dəvət etdik, onun gözü ilə Müsavat Partiyasında gedən başqanlıq yarışını oxuculara çatdırmağa çalışdıq. Müsavat Partiyası elə bir strukturdur ki, orada gedən proseslər bütünlükdə toplumun, siyasi dairələrin, hakimiyyətin də diqqət mərkəzindədir. Proses son dərəcə həssaslıqla izlənir. Müsavat Partiyasının qurultayı iqtidar mediasının da davamlı izlədiyi məsələlərdəndir.**



*"Yeni Müsavat" qəzeti də bu məsələyə həssas yanaşır. Rauf Arifoğlu "Yeni Müsavat"ın rəhbəri olaraq bildirib ki, o, namizədlərin hamısına informasiya dəstəyi verməyə hazırdır. Baş redaktor vurğulayıb ki, qurultay kimi seçsə, partiya üzvü olaraq həmin şəxsin başqanlığını qəbul edəcək. Rauf Arifoğlu hələlik səsini kimə verəcəyini açıqlamayıb.*

**(əvvəli ötən sayımızda)**

***- Niyə siz özünüz Müsavat Partiyasından gedib başqa bir partiya qurmursunuz? Bu, İsa Qəmbərin, Arif Hacılının qurduğu təşkilatdır, onlar partiyanı bu günə gətirib çıxarıblar. 20 il müxalifətdə qalmasına baxmayaraq partiyanı məhv eləməyiblər. Siz yenilik etmək istəyirsinizsə tərəfdarlarınızla birləşib niyə özünüzə yeni partiya qurub ideyalarınızı gerçəkləşdirmirsiniz?***

- Çünki biz Müsavat Partiyasını kimlərinsə partiyası olaraq görmürük. Mənim babam müsavatçı olub. Onda babam sağ olsaydı, eyni sözləri indiki rəhbərliyə verməkləzımdı. Mənim anam Müsavat Partiyasının bərpa qurultayının nümayəndəsi olub. Mən 10 yaşımdan Türkiyədə Müsavat Partiyası üçün çap olunan bloknotlarla, hazırlanan nişanlarla böyümüşəm.

***- Deməli, Müsavat Partiyası bərpa olunanda sizin cəmi 10 yaşınız olub.***

- Bəli. Heç şübhəsiz Müsavat Partiyasının yaradılmasında böyük əziyyətlər, zəhmətlər olub. Amma bu, partiyanın məhz onu bərpa edənlərə məxsus olması demək deyil. Mən uzun müddət Müsavat Partiyası Gənclər Təşkilatının sədri oldum, ancaq sədrlikdən gedəndən sonra şəxsi maliyyə ilə alınan inventarlara belə toxunmadım. Partiyanın nizamnaməsi var, əsasnaməsi var. Hər bir partiya üzvü fəaliyyətini bu sənədlərə uyğun qurmalıdır. Biz niyə yeni partiya yaratmalıyıq ki - Müsavat Partiyası onsuz da bizimdi. Biz məgər partiyada müəyyən vəzifəni tutmasaq partiyadan gedəcəyik? Qətiyyən belə deyil.

***- İndiki strukturu öz ideyalarınızı həyata keçirmək üçün uyğun görürsüzmü?***

- Təbii ki...

***- Əgər yeni ideyalar yaratmaq, cəmiyyətə yeni ideyalar gətirmək istəyirsinizsə, siyasətin əlifbasında yazılıb ki, bunun üçün köhnə struktur uyğun deyil, yenisi yaradılmalıdır. Ona görə soruşuruq ki, Müsavat Partiyasının ideologiyası, strukturu, proseslərə yanaşması sizin ideyalarınıza uyğundurmu?***

- Struktur ideologiyaya uyğundur, şəxslər uyğun deyil, yanaşma tərzləri uyğun deyil. Müsavat Partiyasının strukturu real praktik məsələlər üzərində qurulub. İdeologiyaya gəlincə, hətta Yeni Azərbaycan Partiyası da müsavatçılıq ideologiyasını qəbul edir. Söhbət Müsavat Partiyasının strukturunu təmsil edən, müəyyən edən insanların yanaşma tərzindən gedir. Araşdırsanız, görərsiniz ki, son bir ildir, bəlkə bir az daha artıq müddətdir mən partiyada baş verən proseslərə müxalif qalıram. Bu o demək deyil ki, mən hər zaman haqlıyam. Ancaq ən azından mən düz olduğumu sübut eləmək üçün bir şans əldə etmək istəyirəm. Bu bizim haqqımızdır. Bizim bir ədəbiyyat müəllimimiz vardı, o deyirdi ki, Xaqani də böyük şair idi, təəssüf ki, Nizaminin dövründə yaşayıb. Biz Xaqani



olmaq istəmirik, Nizamidən şans istəyirik. İstəyirik onun kimi "qəzəl yazmaq" qabiliyyətimiz olduğunu göstərməyimiz üçün bizə də bir imkan versin.

***- Kənardan belə təqdim olunur ki, siz İsa Qəmbərə qarşısınız. Yenilik tələb edəndə, iddia ortaya qoyanda da əslində ona qarşı çıxırsınız. Bu belədirmi? Bu durumu açıq şəkildə necə ifadə edə bilərsiniz?***

- Qətiyyən elə deyil. Çünki İsa Qəmbərin başqanlıqda qalması ilə bağlı 4-5 il öncə məsələ gündəmə gələndə ortaya bizdən açıq mövqe qoyan yox idi. Biz deyirdik ki, nizamnamədəki maddə dəyişdirilsin, İsa Qəmbər başqanlıqda qalsın. Bir nəfərin iki dəfə rəhbər postu tutması baryeri dövlət idarəçiliyi üçün nəzərdə tutulub. Söhbət İsa Qəmbərin idarəetmə qabiliyyətindən, onun bacarıqsızlığından getmir. Qətiyyən biz İsa Qəmbərə qarşı deyilik. Təbii, İsa Qəmbərin bu və ya başqa məsələyə yanaşmasında uyğun gəlməyən məqamlar olub. Bu, təbiidir.

***- Başqanı sevirsizmi?***

- Başqanı sevdiyimizi bizdən yox, başqan uğrunda mübarizə aparan yoldaşlarımızdan, ya da elə hakimiyyətdən soruşmaq olar. Biz onu insan kimi sevirik, siyasi fiqur kimi dəstəkləyirik. Başqanın hansı addımını dəstəkləmiriksə, onu açıq deyirik. Düşünürəm ki, bu, səmimiyyətdir. Əslində sevirik ki, açıq deyirik. Başqanın üzünə bir söz, arxasınca başqa söz söyləmirik.

***- Başqan seçilsəniz, hakimiyyətə münasibətiniz necə olacaq - indiki kursa nisbətdə daha radikalmı, yoxsa daha loyalmı, dialoqa meyllimi? Ya da dialoqun tam əksi olan "küçə mexanizmlərimi" işə salınacaq?***

- Dünyada qəbul olunan praktika var - siyasətin arxasında ordu dayanmırsa, demək, dövlətin siyasəti zəifdir. Partiyanın siyasi konsensusunun arxasında meydan durmursa, bu mübarizə effektsizdir. Bu mübarizə yetimin başına öz papağını qoymaq misalı kimidir. Fəalları səbəbsiz, kütləvi həbs edirlər, sonra 3-4-nü azad edəndə biz onlara təşəkkür edirik. Biz qanunverilik çərçivəsində daha radikal addımlar düşünürük. Meydanlara çıxmalıyıq, öndə də özümüz getməliyik. Bəzən deyirlər ki, meydan dönəmi bitib, repressiyalara rəvac verməyə ehtiyac yoxdur. Gəlin analiz edək görək, meydan dönəmindəmi daha çox repressiyalar vardı, yoxsa indimi? Hazırda az qala hər gün sıralarımızdan birini həbs edirlər. Bir vaxt vardı biz inzibati həbs alanda dostlar zəng edib "qəzan mübarək" deyirdilər, indi 10-15 illik həbs qərarları çıxarılır, ancaq cəmiyyət sakit yanaşır. Fərəc Kərimovu 12 ilə qədər həbs gözləyir, Seymur Həzi 6 il azadlıqdan məhrum edilə bilər. Biz bu qurbanları veririksə, heç olmasa mübarizə şəraitində verək.

***- Siyasi partiyalar sanki siyasi səhnədən yığışmış kimi görünür. İndi siyasi mübarizə, belə demək mümkünsə, facebooka köçüb. Bu durumu necə dəyişməyi düşünürsünüz?***

- Qərb ölkələrindən birinin səfiri deyirdi ki, facebook Azərbaycanda tərs effekt verdi. Ərəb ölkələri inqilablar üçün sosial şəbəkələrdə təşkilatlandılar, bizdə isə sosial şəbəkələr insanların yığılan enerjilərinin boşaldılması funksiyasını yerinə yetirdi. Çox təəssüf, artıq bir çox siyasi tədbirlər facebooka şəkil qoydurmaq üçün keçirilir. Ölkədə bu gün "layk" *(ingiliscə "like" "bəyənmə" sözünün deyiliş forması -red.)* davası gedir. Mən həbs olunanda facebook hələ o qədər də populyar deyildi. 17 ay sonra azadlığa çıxanda gördüm ki, hamı deyir, filankəs filan qədər layk yığdı, filankəs hamıdan çox layk topladı. Mən hətta düşündüm ki, bəlkə bu "layk"lar çox olanda maddi gəlir-filan da olur (gülür). Ola bilər, sonradan biz də hansısa məsələlərdə bu ab-havaya köklədik. Ancaq biz "layk" müxalifəti olmamalıyıq. Mən dünən parkda Rəşadət Axundovun yoldaşını və oğlunu gördüm. Araz artıq 1 yaş 4 aylıqdır. O, atasını görə bilmir. Rəşadəti hətta sabah buraxsalar da onun oğluna atası ilə keçirməli olduğu 1 il 4 ayı necə qaytarmaq olar? Sabah Araza necə deyəcəyik ki, biz elə bilirdik bu siyasi addım düzdür, sən demə, səhv imiş, ona görə sənin atan tutuldu. Ya da Ruslan Bəşirli. İnsan 6 il 9 ayını məhbəsdə keçirdi. 6 il 9 ay. Biz insanların taleyi ilə oynamamalıyıq. İnsanlar gözünü bizə dikibsə, konkret addımlar atmalıyıq. Ya qalib gəlməliyik, ya da deməliyik ki, biz bu işi bacarmadıq, qardaş. Var olmaq xətrinə partiya saxlamaq nə qədər doğrudur? Mən Müsavat Partiyasının var olması üçün yox, onun hakimiyyətə gəlməsi üçün fəaliyyət göstərmək istəyirəm. Mən mənəvi qələbələr istəmirəm. Biz maddi qələbə, real qələbələr istəyirik. Biz parlamenti, bələdiyyələri qazanmaq istəyirik, prezident postunu qazanmalıyıq.

***- Sizcə, Müsavat rəhbərliyi bunları istəmir?***

- İstəyir, əlbəttə. Amma bu məsələlərə yanaşma metodlarımız fərqlidir. Mən düşünürəm ki, biz 5 dəfə meydana çıxsaq, hakimiyyət 6-cı dəfədə danışıqlar masasında əyləşəcək.

***- Yəni sizin timsalınızda Müsavat Partiyası savaşçı bir başqan qazana bilər. Bu həm də o deməkdir ki, bütün aksiyalarda funksionerlərlə bir yerdə olacaqsız?***

- Şübhəsiz. Qalstukumu taxıb kabinetimdə oturmağı düşünmürəm.

***- Seçilsəniz, hansı otaqda oturacaqsız?***

- Müsavat Partiyasının başqanı üçün nəzərdə tutulmuş otaqda.

***- Demək, İsa Qəmbərin kabinetinə də iddialısınız.***

- Müsavat Partiyası başqanının kabinetinə iddialıyam. Kabinet problemim yoxdur - evdə yaxşı bir kabinetim var. Başqan avtoritet olmalıdır, onun zəhmi olmalıdır.



**"Mən Müsavat Partiyasının var olması üçün yox, onun hakimiyyətə gəlməsi üçün fəaliyyət göstərmək istəyirəm. Mən mənəvi qələbələr istəmirəm. Biz maddi qələbə, real qələbələr istəyirik"**

***- Başqan olsanız, indiki rəqiblərdən kimi komandanızda görmək istərdiz?***

- Biz indidən də xahiş edirik - gəlsinlər, bir yerdə işləyək. Məgər başqan seçilsəm, mənim Arif Hacılı kimi bacarıqlı bir siyasətçiyə, ya Qubad bəy kimi savadlı iqtisadçıya, yaxud İsa bəy kimi liderin məsləhətlərinə, dəstəyinə ehtiyacım qalmayacaq? Biz deyirik ki, enerji tələb olunan yerdə gənclər olsun, təcrübə, bilik, bacarıq, plan tələb olunan yerdə təcrübəlilər olsun.

***- Rəqiblərinizdən biri seçilsə, onlardan hansının komandasında olarsız?***

- Mən öz komandamda təmsil olunacam. Mən həmişə Müsavat Partiyasının komandasında olacam.

***- Rəqiblərinizdən hansını özünüzə daha yaxın görürsünüz?***

- Mənəvi baxımdan biri, siyasi baxımdan digərini.

***- Adlar yoxdurmu?***

- Bilən bilir.

***- Ehtiyac olarsa kimin xeyrinə namizədliyini geri götürərsiz?***

- Fövqəladə durum olmasa heç kimin xeyrinə namizədliyimi geri götürməyəcəyik. Ancaq ikinci tur keçirilsə və biz ora çıxa bilməsək, gəncliyin maraqlarını ən çox təmsil edənə səs verəcəyik.

***- Hansı partiyalarla münasibətlər quracaqsınız?***

- Reallıq deyir ki, müxalif siyasi güclərdən biri Müsavatdırsa, digəri AXCP-dir. İlk sırada AXCP ilə münasibətləri normallaşdırmağa çalışacam. Ən azından bir-birimizə zərər vuracaq addımlara moratorium qoyulmalıdır. Yəni əgər səmimi müttəfiq ola bilmiriksə, bir-birimizin əleyhinə də işləməməliyik. AXCP ilə münasibətlər mütləq nizama salınmalıdır - bunsuz mümkün deyil. Digər partiyalara gəlincə, bizim heç kimə müxalifət lisenziyası vermək fikrimiz, hüquqmuz yoxdur. Müxtəlif məsələlərdə müxtəlif partiyalarla eyni mövqedə ola bilərik. Əgər Ümid Partiyası İlham Əliyevi seçkidən sonra təbrik edirsə, bu o demək deyil ki, İqbal Ağazadə siyasi məhbusların azadlığı uğrunda meydana çıxacaqsa, biz ona "get" deyə bilmərik. Müsavat Partiyasının buna qədərki siyasəti də məhz belə olub.

❑ **Qələmə aldı**
**Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 227 (5936) 11 sentyabr 2014

# Abbas Abbasovun Özbəkistanda dostluq etdiyi müxalifətçidən ilginc açıqlamalar

## Rafiq İsmayıl: "Onun yaxşı tost deməyi, toyda tamadalıq etməyi var"

**Azərbaycanın baş nazirinin sabiq müavini Abbas Abbasov bir neçə gün əvvəl Özbəkistanda mükafatlandırıldı. Bu mükafatlandırma mərasimi bir çoxlarında Abbas Abbasovun Özbəkistanla əlaqələrinin haradan qaynaqlanması haqda suallar yaratdı. Abbasovun tərcümeyi-halında Özbəkistan dönəmi haqda qeydlər var. Lakin bu məlumatlar bir qədər ümumi xarakterlidir.**



*Amma Müsavat Partiyasının Sabunçu Təşkilatının sədri Rafiq İsmayıl bizə bu suala cavab tapmaqda köməklik etdi. Rafiq İsmayıl deyir ki, o, 1977-ci ilin dekabrında Özbəkistana gedib. 1 il sonra isə Abbas Abasov ora gəlib:*

- Abbas Abbasobvla çox yaxın münasibətlərimiz vardı. Daim görüşürdük. Birgə məclislərdə olurduq. Onun Özbəkistana niyə gəlməsinin səbəbini bu gün də bilmirəm. Hacı Vaqif vardı rəhmətlik, ona "Daşkənd Vaqif" də deyirdilər. Sonradan Vaqifi Surət Hüseynovun kabinetində "Zobik" öldürmüşdü. Allah ona rəhmət eləsin, 70-ci illərdə Daşkənddə azərbaycanlılara ağsaqqallıq edirdi.

***- "Daşkənd Vaqif" orada nə işlə məşğul olurdu?***

- Biznesmen idi. Özbəkistanda həddindən artıq sərvət və hörmət sahibi idi. O da, Abbas da Gəncədəndirlər. Onu Vaqifin yanında görüb tanımışam. Sonradan münasibətlərimiz dərinləşdi. Azərbaycanlıların toylarında, yaslarında birgə iştirak edirdik.

***- Azərbaycanlı kimi bir yerdə idiz, yoxsa başqa maraqlar vardı?***

- Azərbaycanlı kimi yaxın idik. Vaqiflə hər birimizin yaxın münasibəti bizi yaxın etmişdi.

***- Yaxın olmusunuzsa, illərdir Abbas Abbasov haqda dolaşan bir məsələ, onun qayınanasının erməni olması haqda məlumatınız da olmamış deyil. Bu məlumat doğrudur?***

- Doğrudur. Bilirsiz, o dövrdə ermənilərlə qohumluq adi bir məsələ idi. Xüsusi bir qəbahət yox idi bunda. O vaxt biz bilirdik ki, onun qayınanası ermənidir. Onun son övladı - Yusif Daşkənddə anadan olub.

***- Abbasov o dövrün Daşkəndində özünü necə aparırdı?***

- Abbas bacarıqlı adam idi, hamıdan istifadə edə bilirdi.

***- Necə?***

- Məndən də istifadə etmişdi. O vaxt Abbas Abbasov Özbəkistan "Ptitseprom"da *(Quşçuluq Komitəsi)* müavin idi. Bir dəfə dedi ki, taleyim səndən asılıdır, məni birinci müavin qoymaq istəyirlər, kömək elə. O dövrdə mən Özbəkistan Mədəniyyət Nazirliyinin xətti ilə tikilən möhtəşəm dövlət sarayının tikintisində çalışırdım. Abbas dedi ki, Özbəkistan rəhbərliyində təmsil olunan bir nəfərin yaxınının qəbrinin üstünü təcili götürmək lazımdır. Puldan da narahat olma, nədirsə, ödəyəcək. Abbasla çox yaxın münasibətim vardı deyə gecə ilə briqadanı ora töküb qəbrin üstünü götürtdüm. Usta fəhlələrə də dedim ki, mal-materialdan bağça pulunuzu artıqlaması ilə ödəyəcəklər. Abbas məndən yaşda balacadır deyə elə o vaxtdan ona adı ilə müraciət edirdim.



**"O vaxt Abbas Abbasov Özbəkistanda Quşçuluq Komitəsində müavin idi. Bir dəfə dedi ki, taleyim səndən asılıdır..."**

***- Qəbrin üstünün götürülməsi Abbas Abbasovun karyera yüksəlişinə təsir etdi?***

- Abbas demişdi ki, qəbrin üstü götürüləndən sonra əmri veriləcək. Sonradan bildim ki, gecə ilə gedib qəbrə baxıblar, Abbasın da əmri verilib. Onu "Pititseprom"un 1-ci müavini təyin ediblər.

***- Abbas Abbasov sonradan qəbrin üzərindəki abidənin pulunu ödədi?***

- Elə pul deyildi. 1982-83-cü illər idi. Təxminən 800 rubl pul idi. Abbasla münasibətlərimiz də elə idi ki, ondan pul istəyə bilməzdim.

***- Yəni pulu ödəmədi?***

- Abbas heç nə deməd, mən də üstünü vurmadım.

***- Bunun əvəzində sizə hansısa fayda verdimi?***

- Yox, Abbas fayda verən adam deyil, o, ancaq öz faydasını güdən adamdır.

***- Bəs Azərbaycana qayıdandan sonra münasibətləriniz davam etdi?***

- Toylarda, yığıncaqlarda bir yerdə olmuşuq. 93-94-cü illərdə onun oğlanlarından birini mitinqdə döymüşdülər. O mitinqdə görüşəndə öpüşüb-görüşmüşük. Yəni münasibətlərimiz o burada baş nazirin müavini olarkən də təsadüfi görüşlər zamanı davam edib. Onun Özbəkistanda bir oğlu dünyaya gəlib. Adı Yusif idi, biz Yusqa çağırırdıq.

***- "Daşkənd Vaqif"lə Abbas Abbasovun münasibətləri necə idi?***

- Vaqif azərbaycanpərəst idi, bütün azərbaycanlılara kömək edirdi. Abbas onun elə bir tapşırığı olmazdı ki, yerinə yetirməsin. Vaqif elə bir adam idi ki, qapısına gələn heç bir adamı boş qaytarmazdı. Vaqif Daşkənddə azərbaycanlıların ağsaqqalı idi. Abbasın yaxşı tost deməyi, toyda tamadalıq etməyi var. Rus və Azərbaycan dilində çox gözəl tostlar deyirdi. Vaqif deyirdi ki, Abbas, filan azərbaycanlının toyunda sən tamadalıq etməlisən, o da edirdi.

***- Azərbaycana nə vaxt gəldiz?***

- 1986-cı ildə mən gəldim. O vaxt Özbəkistan Balçılıq Komitəsində müavin idim.

***- Abbas Abbasov nə vaxt Azərbaycana qayıtdı?***

- Elə həmin il idi, səhv etmirəmsə. O, Polyaniçkonun kadrı idi. Onun vasitəsilə burada Abşeron Partiya Komitəsində birinci katib təyin olundu.

***- Özbəkistanda Quşçuluq Komitəsinin 1-ci müavini vəzifəsindən Abşerona 1-ci katib gətirildi?***

- Bəli.

***- Abbas Abbasovun tipi nədir - ziyalıdır, mafiozdur, yoxsa başqa tipdir?***

- Mafioz deməzdim. O, bizdən fərqli olaraq əl altından işlər qurmağı bacaran adamdır. Biz Özbəkistandan gələndən sonra bildik ki, orada özünə işlər qurub. Özbəkistanda mənim imkanlarım onun imkanlarından qat-qat artıq olub, amma heç bir başqa iş görməmişəm. Görünür, Abbas dərinlikləri daha yaxşı bilir. Orada qardaşını da yüksək vəzifəyə işə düzəldə bilmişdi. Abbası Özbəkistanda xüsusi bir fiqur da saymırdım.

***- O, Azərbyacanda baş nazirin 1-ci müavini olduğu bir dövrdə siz də müxalifət partiyasının odlu-alovlu liderlərindən olmusuz. Təmasınız olubmu həmin vaxtlarda?***

- Heç vaxt!

***- Öz tərəflərinə çəkməyə bir təşəbbüs göstərib?***

- Yox, belə bir şey olmayıb.

***- Heç təsadüfən də görüşməmisiz?***

- Hamının tanıdığı bir hüquqşünasın yaxını rəhmətə getmişdi, Abbas, Allahşükür Paşazadə, Çingiz Qənizadə yan-yana oturublar. O vaxt Qənizadə deyib ki, sən Rafiqi tanıyırsan. Abbas da deyib ki, biz bir ailə olmuşuq. O vaxt da mənim çox imkansız vaxtlarım idi deyə Qənizadə onu qınayıb ki, Rafiqi niyə yada salmırsan. Abbas da inciyib, deyib ki, axı mən hamını tapıb imkanları ilə maraqlana bilmirəm, gəlsin, bir şey fikirləşək. Onda Qənizadə Abbasa deyib ki, sən Rafiqi yaxşı tanımırsan.

❑ **E.MƏMMƏDƏLİYEV**

---

# Qoy lap Vural gəlsin, təki Foqts getsin



**Samir SARI**

**Türkiyədə məşhur bir futbol mütəxəssisi var: Yılmaz Vural. Mən onun həyat və yaradıcılığını azı 12 ildir izləyirəm, futbolu bilən, amma uğursuz adamdır. Qoyasan, studiyada oturub şərh verə, məşqçilərin səhvini tuta, hakimlərin qüsurlarını göstərə, ən doğru qərarların nədən ibarət olduğunu sadalaya, bir sözlə, qızıl xırdalaya. Baxırsan ki, adam futbolu əla bilir.**

Ancaq elə ki, Yılmaz əfəndi özü hansısa komandanın baş məşqçisi olur, uzağı ikinci oyunda komandasının qapısına azı beş qol vururlar. Üçüncü oyunda elə, dördüncü oyunda da həmçinin. Beşinci oyundan sonra klubun rəhbərliyi, türkün sözü, acil şəkildə toplanır və Yılmaz Vuralı komandadan qovurlar.

Düzdür, ondan sonra gələn məşqçi də Vuralın əli dəyən komandanı bay eləyə bilmir və bir qayda olaraq, həmin komanda həmin il superliqadan kümə düşür.

Bax, o cür gözəl mütəxəssis bu il futbol üzrə milli yığma komandamızın başına gələ bilərmiş - Berti Foqtsun yerinə. İntəhası, alman lobbisi imkan verməyib.

Bu günlərdə Türkiyə mətbuatına müsahibəsində Yılmaz bəy deyib: "Berti Foqtsun müqaviləsi başa çatdıqdan sonra Azərbaycan millisini mən çalışdıracaqdım. Ancaq alman lobbisi ortaya girdi və Foqtsla müqaviləni yenilədilər. Bu səbəbdən Azərbaycanda işləyə bilmədim".

Nəticədə biz olduqca şən, optimist, o qədər uduzmasına baxmayaraq, türklər demişkən, yılmaz, usanmaz bir məşqçinin rəhbərliyi altında tarix yazmaq imkanından məhrum olmuşuq.

Ah, mənfur alman lobbisi, ah... Sən nələrə qadirmişsən.

Təsəvvür edin, hörmətli oxucular, "Avrovision-2012"-nin Bakıda keçirildiyi il Almaniya ilə Azərbaycanın münasibəti təxminən 1942-ci il səviyyəsində idi. Bizim təbliğatçılar rəsmi hökumət qəzetlərində Hitlerlə Merkelin şəklini qoşa verirdilər, o boyda dövlətin xarici işlər nazirini açıq tekstlə "petux" adlandırırdılar, ara-sıra alman malları *("Mersedes S klass" və "BMW X5" və X6 da o cümlədən)* almağa qadağa və söyüş qoymaq tələbi səslənidirilirdi, AzTV Almaniyanın çöküdüyünə dair silsiləvi şəkildə süjetlər, reportajlar yayırdı, hökumət adamları hər bir almaniyalı qonağa potensial casus kimi baxırdı, amma almanın xasıyla, Berti Foqtsla işi olan yox idi.

Etiraf edək ki, bəzi jurnalistlər həmin soxasoxun fonunda fürsətdən istifadə edərək fon Foqtsun torbasını tikmək təşəbbüsü göstərdilər, dəli yadına daş salmağa çalışdılar, amma Almaniya-Azərbaycan soyuq müharibəsinin Foqtsun karyerasına mənfi təsiri olmadı. AFFA rəhbərliyi dünyada ikinci bir məşqçi yoxmuş kimi onu vəzifəsində saxlamaqda, o da milli komandamızı uduzdurmaqda davam etdi.

Əlbəttə, heç kim iddia etmir ki, Berti Foqtsu vəzifəsindən götürən saat milli komandamız Kosta-Rika yığması kimi qəbağına çıxanı udaraq mundiallara qatılacaq. Yox, bizdə hələlik o material, o alt yapı, o aşağı ətraf yoxdur. Amma hər halda bir məşqçinin rəhbərliyi altında uduzmaq əzabından xilas ola bilərik, başqa məşqçiləri söymək imkanı qazanarıq. Yoxsa Foqtsun ünvanına deyilməyən söz qalmayıb, o da soyuqqanlı alman olaraq, bütün söyüş və tənqidləri yaxşı mənada peysərə verir.

Hərçənd onun yerində Yılmaz Vural olsa, çıxıb jurnalistlərlə dalaşardı, söyüşərdi, bunun komandamızın FİFA-dakı reytinqinə elə bir təsiri olmasa da, ən azı həyat maraqlı olardı.

İndi hamı deyir ki, istəyir, get "Çelsi"dən Mourinyonu gətir, xeyri yoxdur, futbolçularımız zəifdir.

Ancaq niyə xeyri olmamalıdır ki? Dinəndə futbolçulara yekə-yekə "filan məşqçinin yetirmələri" deyirlər. Deməli, yaxşı məşqçinin canı çıxmalıdır, hətta küçədə toza-torpağa bata-bata top qovan qayışbaldır qara gədələrdən yaxşı futbolçular yetişdirməlidir.

Yoxsa artıq yetişmiş Dieqo Kostanı, Ardanı, Runini, Messini, Ronaldonu, Qarayı, Pirlonu, Markesi, İbrahimoviçi yığ bir komandaya, başlarına da lap Yılmaz Vuralı qoy, hamını uda-uda gedəcəklər.

Ona görə də, artıq vaxtdır, fon Foqtsu təmtəraqla, Azərbaycan futboluna böyük töhfə verdiyinə görə "Şöhrət" ordeni ilə təltif edərək yola salmaq, yerinə yetişdirici bir məşqçi gətirmək lazımdır. Bizdən iki dəfə balaca olan və nefti olmayan Kosta-Rikadan örnək götürmək gərək.

YENİ MÜSAVAT
N 227 (5936) 11 sentyabr 2014

# DAK-la İran səfirliyi arasında dava qızışdı

## Tehran rəsmi Bakıdan ölçü götürülməsini tələb edir; **Sabir Rüstəmxanlı:** "Belə əsəbləri də çox görmüşük, belə səfirləri də..."


Möhsün Pakayin


Sabir Rüstəmxanlı

**Xəbər verdiyimiz kimi, sentyabrın 8-də Dünya Azərbaycanlıları Konqresi "Yaxın Şərqdə baş verən problemlər: Güney Azərbaycandakı son durum" mövzusunda Bakıda dəyirmi masa keçirib. Ancaq dəyirmi masa İranın Azərbaycandakı səfirliyinin sərt etirazına səbəb olub.**

İranın Azərbaycan səfirliyi DAK-ın sözügedən tədbiri ilə bağlı etiraz bəyanatı yayıb. Səfirlik DAK-ın İranda yaşayan azərbaycanlıların durumu ilə bağlı keçirdiyi tədbiri "separatçılıq" adlandırıb. Bundan əlavə, səfirlik DAK-ı xalqa söykənməyən, siyasi yeri olmayan, dövlət himayəsindən məhrum "kiçik dəstə" hesab edir.

Səfirlik bəyan edib ki, qurum İranda yaşayan azərbaycanlılarla bağlı tədbirləri gündəmdə qalmaq üçün keçirir. Bəyanatda DAK "İran və Azərbaycan xalqları"nın düşmənlərinə xidmət etməkdə, sionizm mediası ilə birgə indiki əlaqələri zəiflətməkdə ittiham olunur.

Eyni zamanda səfirlik bəyanatda İranda Azərbaycan əleyhinə belə toplantılara yol verilmədiyini xatırladaraq rəsmi Bakının İranın ərazi bütövlüyünü sual altına alan bu kiçik separatçı dəstə barəsində qanun çərçivəsində davranmaq kimi tələb irəli sürür.

**DAK həmsədri, Milli Məclisin deputatı Sabir Rüstəmxanlı** "Turan" agentliyinə açıqlamasında İran səfirliyinin belə bir bəyanatla çıxış etmək haqqı olmadığını deyib. Bu sənədi insan haqlarını pozmaq kimi dəyərləndirib. DAK-ın ictimai qurum olduğunu deyən S.Rüstəmxanlı Güney Azərbaycan türklərinin insani haqları barədə danışmağı qurumun birbaşa vəzifəsi adlandırıb. Eyni zamanda İran tərəfin, bəzi beynəlxalq qurumların İranda Güney Azərbaycan türklərinin sayının reallıqda olduğundan az göstərilməsinə diqqət çəkib.

**Daxili işlərə qarışmağa gəlincə, S.Rüstəmxanlı İranın "Səhər" telekanalını Azərbaycanın dövlət müstəqilliyini, dövlət atributlarını daim təhqirə məruz qoymaqda ittiham edib:** "Hətta Azərbaycanı dövlət olaraq öz adı ilə deyil, başqa adlarla adlandırmağa cəsarət edir. İran Azərbaycanla "qardaş dövlət" olduğunu deyir. Bu, necə qardaşlıqdır ki, millətin dilini əlindən alırlar. Özünü dini dövlət sayan İran tərəf bilir ki, dili verən Allahdır. Allahın verdiyini isə insanın əlindən almaq Allaha qarşı üsyandır. Özünü Azərbaycana dost sayan İran Ermənistanla əməkdaşlıq edir. Urmu gölü quruyur, İŞİD-dən Güney Azərbaycan torpaqlarını tutacağı hədə-qorxusu gəlir, İran tərəf isə buna hər hansı mövqe ifadə etmir. Odur ki, İran tərəfin belə bəyanatla çıxış etməyə, səfirin əsəb nümayiş etdirməsinə əsası yoxdur. Belə əsəbləri də çox görmüşük, belə səfirləri də, hər kəs öz işi ilə məşğul olsun və başqasının nə edəcəyi ilə bağlı hökm verməsin".

Qeyd edək ki, Sabir Rüstəmxanlının fikirlərinə İran səfirliyindən cavab almağa çalışdıq. Ancaq səfirlikdən bildirdilər ki, hazırda İrandan Azərbaycana nümayəndə heyətinin səfəri olduğu üçün səfir DAK sədrinin iddialarına cavab verə bilmir. Ancaq eyni zamanda bildirdilər ki, yaxın günlərdə İran səfiri Möhsün Pakayin S.Rüstəmxanlının fikirləri ilə bağlı geniş açıqlama yayacaq.

Qeyd edək ki, İran hökuməti bir neçə dəfə Güney Azərbaycanla bağlı keçirilən tədbirlərə kəskin etirazını bildirib. Rəsmi Tehran bu cür fəaliyyətləri "separatçılıq" adlandırır və belə tədbirlərlə bağlı kəskin, hədələyici tonda bəyanatlar verir.

❑ **KƏNAN**



# Parlament 200 min manatı bölmək üçün qanuna düzəliş edəcək

## İqbal Ağazadə Siyavuş Novruzovun təklifini dəstəklədi

**Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların dövlət büdcəsindən maliyyələşdirilməsi meyarlarının dəyişdirilməsi ilə bağlı Milli Məclisin payız sessiyasında qanunvericilik təşəbbüsü irəli sürüləcək. Bu barədə "Trend"ə Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib.**

S.Novruzov bildirib ki, "Siyasi partiyalar haqqında" mövcud qanunda qeyd olunur ki, dövlət büdcəsindən ayrılmış vəsaitin 10 faizi irəli sürdüyü namizədlər Milli Məclisə keçirilmiş son seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin parlamentdə təmsil olunmayan siyasi partiyalar arasında qazanılmış səslərin sayına proporsional olaraq bölünür: "Lakin bu gün 3 faizlik səddi aşa bilən partiyalar olmadığına görə bir boşluq yaranıb. Parlamentdə təmsil olunan siyasi partiyalar təklif edirlər ki, əgər 3 faizlik səddi aşan partiya yoxdursa, qalan 10 faiz vəsait proporsional şəkildə parlamentdə təmsil olunan partiyalar arasında bölünsün. Bunun üçün isə qanuna mütləq düzəliş edilməlidir".

S.Novruzov vurğulayıb ki, həmin vəsait büdcədə qalıb və onun qanuni olmadığına görə hansı formada xərclənməsinə sərəncam verilə bilmir.

**Parlamentdə təmsil olunan Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə "Yeni Müsavat"a açıqlamasında Siyavuş Novruzovun qaldırdığı məsələni dəstəklədiyini bildirdi və qeyd etdi ki, "Siyasi partiyalar haqqında" Qanuna sözügedən dəyişiklik səsverməyə çıxarılacağı halda lehinə səs verəcək:** "Bu təklifi, qaldırılan məsələni dəstəkləyirəm. Hesab edirəm ki, qanun mövcud situasiyaya uyğun qəbul olunmur ki, qanun ümumi qəbul olunur. Bu gün bu partiya iqtidardır, sabah bir başqası iqtidar ola bilər. Doğrudan da əgər 3 faizlik səddi aşa bilib parlamentdə təmsil olunmayan partiyalar yoxdursa, həmin vəsait parlamentdə təmsil olunan partiyalar arasında bərabər bölünməlidir və çünki o büdcə siyasi partiyaların maliyyələşdirilməsi üçün ayrılıb. Odur ki, mən dəstəkləyirəm".

**"YAP parlamentdə çoxluq olduğu üçün ola bilərmi ki, sözügedən vəsaitin də böyük hissəsi YAP ayrılsın" sualına İ.Ağazadə belə cavab verdi:** "Hesab edirəm ki, o vəsait bərabər bölünəcək. Çünki o vəsait 50 faiz kateqoriyasına aid deyil".

Onu da bildirək ki, Siyavuş Novruzovun dediyi kimi, qanuna dəyişiklik ediləcəyi halda parlamentdə təmsil olunan partiyalar 200 min manatı öz aralarında bölməli olacaqlar.

❑ **Etibar SEYİDAĞA**

# Divanda kim-kimə səs verəcək? (təxminlər)

## Təsnifat maraqlı mənzərə ortaya çıxarır

**Müsavat Partiyası qurultaya hazırlaşır. Sentyabrın 27-nə nəzərdə tutulan qurultayda Müsavat Partiyası özünün yeni başqanını seçəcək. Başqanlığa namizədlər isə Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı, Səxavət Əlisoydur. Onların hər biri partiyadaşlarından səs almaq üçün çalışırlar.**

Partiyanın rəhbərliyində təmsil olunan şəxslərin kimə səs verəcəyi də maraqlıdır və digər qurultay nümayəndələrinin seçiminə müəyyən qədər təsir edən amil sayıla bilər. Divan üzvlərinin ötən qurultayda yüksək səs toplayaraq bu statusu qazanmaları məlum olduğundan onların başqan seçkisində kimi dəstəklədiklərinin də kifayət qədər önəmli olduğu bəllidir.

Müsavat Partiyasının rəhbər orqanı partiyanın Divanıdır. Başqanlığa namizəd olduqları üçün bir neçə gün öncə Divan üzvlüyündən istefa verən Arif Hacılı və Tural Abbaslı istisna olmaqla, hazırda Divanın 13 üzvü var. Onu da qeyd edək ki, başqanlığa iddiaçı Qubad İbadoğlu da Divan üzvdür. Digər iddiaçı Səxavət Əlisoy isə nəinki Divanda, Məclisdə də təmsil olunmur.

Divan üzvlərinin əksəriyyəti hələ də başqanlıq mübarizəsində kimi müdafiə etdiklərini açıqlamırlar. Buna baxmayaraq, "Yeni Müsavat" olaraq Divan üzvlərindən kimin kimə səs vermə ehtimalının yüksək olduğu barədə təxminlərimizi yazmaq qərarına gəldik.

İsa Qəmbər öz postunda kimi görmək istədiyini tamamilə gizli saxlayır. Onun mövqeyinin qurultay nümayəndələrinin seçiminə çox ciddi şəkildə təsir edəcəyi dəqiqdir. Bu baxımdan zərrə qədər şübhə yoxdur ki, İsa Qəmbərin hansı namizədin xeyrinə hətta azacıq eyhamla mövqe sezdirməsi həmin namizədin qələbəsini yüz faiz təmin edə bilər. Görünür, böyük siyasi təcrübəyə malik başqan bu reallığı nəzərə aldığından maksimum tərəfsizlik nümayiş etdirməyə çalışır.

Arzu Səmədbəyli də kimi dəstələyəcəyini hələ gizli saxlayır. Lakin əminliklə söyləmək olar ki, Arzu bəy Arif Hacılıya və ya Qubad İbadoğluna səs verəcək. İstisna deyil ki, Arzu Səmədbəyli heç kimlə münasibətlərini korlamamaq üçün sonadək kimə səs verəcəyini açıqlamasın, hətta gizli səsvermədən sonra da səsini kimə verdiyini açıqlamasın.

Mehman Cavadoğlu da kimi müdafiə etdiyini hələ açıqlamayıb. Müsavat dəhlizlərindəki söhbətlərdən və Mehman bəyin Arif Hacılı ilə uzun illərə dayanan yaxın münasibətlərindən bu nəticəyə gəlmək olar ki, o, A.Hacılıya səs verəcək.

Gülağa Aslanlının Arif Hacılıya səs verəcəyinə yəqin ki, heç kimdə şübhə yoxdur.

Hazırda həbsdə olan Tofiq Yaqublu artıq seçimini rəsmən bəyan edib. Tofiq bəy Qubad İbadoğlunu başqan görmək istəyir.

İkram İsrafil mövqeyini hələ ortaya qoymayıb. Bununla belə, onun Arif Hacılını müdafiə edəcəyi ehtimalı yüksəkdir.

Nüşabə Sadıqlı son qərarını hələ bəyan etməyib. Böyük ehtimalla Arif Hacılı ilə Qubad İbadoğlu arasında seçim edəcək.

Almaz Əliqızı qəti mövqeyini açıqlamayanlardandır. Onun kimi seçəcəyini hazırda dəqiq söyləmək üçün əsaslar yoxdur.

Vurğun Əyyub Qubad İbadoğluna səs verəcəyini bəyan edib və artıq Qubad bəyin seçki təbliğatında da aktiv iştirak edir.

Məryəm Oruclu isə partiyada Vurğun Əyyuba yaxın şəxs kimi tanınır. Bu baxımdan təxmin etmək olar ki, Vurğun Əyyubun dəstəklədiyi namizədə səs verəcək.

Osman Kazımov Arif Hacılıya səs verəcəyini elan edib və sosial şəbəkədə Arif bəyin ən uğurlu namizəd olduğunu partiyadaşlarına xitabən yazıb.

Hökmə Qurbanlının isə Qubad İbadoğluna səs verəcəyi ehtimalı böyükdür. Qurbanlı Qubad İbadoğlunun görüşlərində iştirak edir.

❑ **Etibar SEYİDAĞA**

# Müsavatın başqanı kim olsun?

## Bölgə müxalifətçiləri ad açıqlamasalar da, əksəriyyət bir nəfəri ən şanslı görür...

**Sentyabrın 27-də Müsavat Partiyası özünün qurultayında yeni başqanı seçməlidir. Hələlik iddiaçılar dörd nəfərdir - Arif Hacılı, Qubad İbadoğlu, Tural Abbaslı və Səxavət Əlisoy. Onlardan kim partiyanın növbəti başqanı olacaq? Hazırda bu məsələ müsavatçılar arasında qızğın müzakirə edilməkdədir.**
**Bəs rayon təşkilatlarında yeni başqan qismində kimi görmək istəyirlər? Suala cavab almaq üçün mini-sorğu keçirdik. Partiyanın Şəki rayon təşkilatının sədri Həbibulla Manaflı hələ ki ad açıqlamaq istəmədiyini bildirdi:**


Arif Hacılı


Qubad İbadoğlu


Tural Abbaslı


Səxavət Əlisoy

“Mən Müsavat Partiyasının yüksəlişi, inkişafı, onun gələcəkdə ölkəmizin ictimai-siyasi həyatında öncül mövqeyini qoruyub saxlaması üçün ən layiqli namizədi dəstəkləyəcəyəm. Ancaq indi ad açıqlamıram. Çünki son qərarımı qurultayda aldığım təəssürat müəyyənləşdirəcək”.

**Gəncə şəhər təşkilatının sədri Oqtay Zeynallı isə başqanlığa namizəd kimi Arif Hacılını dəstəklədiyini dedi:** “Bugünlərdə Goranboy və Göygöl rayon təşkilatlarının iştirakı ilə Qubad İbadoğlu ilə görüş keçirdik. Yaxınlarda Arif Hacılı da gəlməlidir. Biz qurultay nümayəndələrinə göstəriş verə bilmərik ki, sən konkret bu şəxsə səs verməlisən. Mən başqan kimi ya Qubad İbadoğlunu, ya da Arif Hacılını görmək istəyərəm. Arif bəy mübarizənin içində artıq bişib. Ona görə düşünürəm ki, Arif Hacılı bu işin öhdəsindən daha yaxşı gələr. Çünki hakimiyyətin qarşısına mədəni insan yox, dilli-dilavər, mübarizədə bişmiş insan çıxmalıdır ki, bu da Arif Hacılıdır”.

**Masallı rayon təşkilatının sədri Xasay Səfəroğlu da Arif Hacılının başqanlığının daha məqsədəuyğun olduğunu dedi:** “Təşkilatın adından danışmaq demokratik prinsiplərə ziddir. Çünki səsi üzvlər verir. Onlar da azaddır, kimi istəsələr dəstəkləyə bilərlər. Bu gün namizədliyini irəli sürənlərin hamısının partiyada xidməti olub. Onlar arasında seçim etmək çətindir. Ancaq düşünürəm ki, bu mərhələdə bizi Arif Hacılı daha yaxşı təmsil edər və onun başqan olması daha məqsədəuyğundur. Keçən 25 illik müddətə baxsaq görərik ki, Arif Hacılının Müsavata daha çox bağlılığı var. Bu bağlılığı da fəaliyyətində konkret olaraq sübut edib. Digər iddialılar da dəyərli müsavatçılardır. Amma bu bağlılığı hansısa bir formada nümayiş etdirmək şərtdir”.

**Şamaxı rayon təşkilatının sədri Yasəf Ağazadə partiya olaraq artıq seçim etdiklərini dedi:** “Biz başqanlığa namizəd kimi Arif Hacılını dəstəkləyəcəyik. Arif bəy əvvəldən indiyədək həmişə lider olub. Təşkilati işləri çox gözəl bilir. Düşünürük ki, İsa Qəmbərdən sonra başqanlıqda Arif Hacılı olmalıdır”.

**Partiyanın İsmayıllı rayon təşkilatının sədri Vidadi Həmidli ən layiqli namizədə səs verəcəklərini söylədi:** “Biz namizədlər içərisindən ən layiqlisini seçəcəyik. Ancaq hələ ki bu insanın kim olduğunu açıqlamaq istəmirik. Təbii ki, hər biri bu vəzifəyə layiqdir və bizim üçün əzizdir. Ona görə də ad açıqlamaq istəmirəm”.

**Müsavatın Qazax rayon təşkilatının sədri İlqar Mustafayev isə bildirdi ki, ad açıqlasalar müəyyən ziddiyyətlər yarana bilər:** “Müsavat başqanlığına olan namizədlərin hər birinə hörmətlə yanaşırıq. Seçim günü hər şey aydın olacaq. Əvvəlcədən bu adamı dəstəkləyəcəyik deməmiz müəyyən ziddiyyətlərə səbəb ola bilər. Ona görə də qurultay günü öz səsimizi verəcəyik. Bu seçki azad seçki olacaq və Azərbaycan demokratiyasına bir örnək olacaq. Bizim nümayəndələrin hər biri müstəqil olaraq kimə istəsələr ona da səs verəcəklər”.

**Göyçay təşkilatının sədri Namiq Hacıbəyli Arif Hacılını dəstəklədiyini bildirdi:** “Mən hamının yerinə səs verə bilmərəm. Amma şəxsən Arif Hacılını dəstəkləyirəm. Ola bilər ki, seçilən 7 nəfər qurultay nümayəndələrindən kimisi Qubad bəyə, kimisi isə Tural bəyə səs versin. Amma mən şəxsən Arif Hacılını başqan görmək istəyirəm. Arif bəy təşkilati işləri çox gözəl bilir. Həmçinin siyasi analizləri çox xoşuma gəlir. Arif bəy dəfələrlə həbsdə yatsa da bu hökumət onu sındıra bilməyib. O, artıq bişmiş bir kadrdır. Qubad İbadoğlu da çox savadlı iqtisadçıdır və gözəl iqtisadi təhlilləri var. Tural Abbaslını da tanıyıram. Gənclərin lideri olub. Səxavət Əlisoy da həkimdir. Həkimi başqan olaraq heç görmürəm”.

**Öz növbəsində Müsavatın Oğuz rayon təşkilatının sədri Həqiqət Mikayıl qərarlarını qurultayda verəcəklərini dedi:** “Şəxsən mən öz seçimimi etmişəm. Başqanlığı haqq etmiş, dəyərli bir insana səs verəcəyəm. Amma o insanın adını açıqlamaq istəmirəm. Hər bir namizəd öz-özlüyündə çox dəyərli müsavatçıdır. Amma partiyanın qorunub saxlanmasında can yandıran elə insanlar var ki, mən o adamlardan birinə səs verəcəyəm”.

**Ağcabədi rayon təşkilatının sədri Rəşid Nəcəfli hələ ki bu barədə müzakirə apardıqlarını bildirdi:** “Hələlik konkret bir namizədin üstündə dayanmamışıq. Bu, hər bir fərdin öz işidir. Biz heç kimə "filankəsə səs ver" deyə bilmərik. Ola bilər ki, müzakirələr nəticəsində yekdil olaraq ortaq məxrəcə gələk".

❑ **Günel MANAFLI**



## Meriya qurultay üçün Müsavata Əmircanı verdi

Məlum olduğu kimi, Müsavat Partiyası qurultayını keçirmək üçün sentyabrın 27-nə vaxt təyin edib. Bununla bağlı partiya bir müddət öncə qurultayına yer ayrılması ilə bağlı BŞİH-ə müraciət ünvanlamışdı. Sentyabrın 10-da partiyanın müraciətinə aidiyyəti orqan cavab verib.

Bakı meriyası Müsavata başqanlıq seçkilərini keçirmək üçün yenidən Əmircanda yerləşən Səttar Bəhlulzadə adına Mədəniyyət Evini münasib bilib. Partiya isə müraciətində 800-1000 nəfərlik tutuma malik olan Opera və Balet Teatrını istəmişdi. Maraqlıdır, görəsən, Müsavat bu dəfə də qurultayının zamanını dəyişəcəkmi?

**Müsavat başqanının müavini Mehman Cavadoğlu musavat.com-a açıqlamasında bunları deyib:** “BŞİH-in ayırdığı yer müzakirə olunacaq. Böyük ehtimalla qurultay keçiriləcək. Harada keçirilməsi məsələsi yəqin ki, müzakirədən sonra məlum olacaq. Qurultayla bağlı bütün variantların ola biləcəyi istisna olunmur. Müzakirələr nəticəsində ictimaiyyətə geniş məlumat veriləcək. Qurultayın təxirə salınması variantı artıq yoxdur. Ehtimal ki, qurultay baş tutacaq”.

❑ **Cavanşir ABBASLI**

## ABŞ və Avropa geri çəkilsə...



Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Rusiyaya qarşı sanksiyaların ilk mərhələsi tətbiq ediləndə iştirakçı dövlətlər yekdil mövqedə dayandılar. İyulda ikinci sanksiyalar da elə bir fikir ayrılığı yaratmadı... Artıq bəlli idi ki, Avropa ölkələri və ABŞ qlobal təhlükəyə qarşı mübarizədə eyni mövqedən çıxış edirlər. Qəribə də olsa, Rusiyanın Ukraynaya açıq təcavüzü də məhz bu qadağalara adekvat oldu. Artıq hadisələrin axarı elə dramatik şəkil almışdı ki, söhbət təkcə Ukraynadan getmirdi, Rusiya bütün dünyanı təhdid edirdi...**

Bir cəhəti qeyd etmək gərəkdir ki, Rusiyanın az qala bütün dünya ilə qarşıdurması “soyuq müharibə” illərindən fərqlənir. Ən azından üz-üzə gələn iki ideologiya yoxdur. Rusiya özü Qərb üçün xarakterik inkişaf yolunu seçib, bu ölkədə kollektiv idarəçilik bazar iqtisadiyyatı ilə əvəzlənib. Ən azından ilk baxışdan elə görünür ki, ideoloji ziddiyyətlər aradan qalxıb. Ölkə daxilində isə vəziyyət xeyli fərqlidir - sərt avtoritar idarəçilik, daha çox keçmiş təcrübəyə söykənən məmur rəftarı hələ də qalır. Bu gün çətin ki, dünyada ikinci elə bir dövlət olsun ki, orada Rusiyadakı qədər qadağalar rəsmi şəkildə tətbiq olunsun.

Bu ölkə dünya ilə qarşıdurmaya birdən-birə köklənmədi. Putinin imperiya xarabalıqlarında ona tabe olan birlik yaratmaq ideyası da qəfil ortaya çıxmadı. Yadınızdadırmı, o, hakimiyyətə gələndə atdığı ilk addımlar azad mətbuatı boğmaq oldu, demokratiyanın ilk cücərtiləri tapdandı. Hətta onu dəstəkləyən partiya da daha çox kommunist partiyasının prototipi idi. Əgər müqayisələr aparsanız görərsiniz “Yedinaya Rossiya” ilə kommunist partiyası arasında elə ciddi fərq də yoxdur. Analoji vəziyyət Azərbaycanda da mövcuddur. Küll halında götürsək, Rusiya da, bizim ölkəmiz də qeyri-müəyyənlik zolağına düşüb...

Bütün səylərə baxmayaraq, Putinin istinad etdiyi nə varsa, artıq çat verir. Ərzaq qıtlığına, bunun nəticəsində qiymət artımına qarşı inzibati tədbirlər görülür, digər tərəfdən, rəsmi statistika da etiraf edir ki, əsas ərzaq məhsullarının qiymətində ciddi artım olub. Bu məqamda sovet təcrübəsi köməyə yetmir...

Bax belə məqamda, sanksiyaların üçüncü mərhələsinin tətbiqi gündəmə gələndə Avropa ölkələrinin mövqeyində çat əmələ gəldi. Özü də bu ölkələr tarixin müəyyən dönəmlərində ruslardan ciddi zərbələr alan ölkələrdir. Məhz Finlandiyanın, Macarıstanın qlobal təhlükəyə göz yumub, bu günə hesablanan iqtisadi maraqları xeyli suallar doğurur. Tarixi paralellər, müqayisələr də köməyə yetmir. Dünya eynən ötən əsrin 30-cu illərində yaşanan proseslərlə üz-üzə qalıb. Putin heyrət doğuracaq şəkildə Hitlerin atdığı addımları təkrarlayır.

Təsəlli doğuran odur ki, anti-Putin mövqeyində qərarlaşan ABŞ, Almaniya, İngiltərə daha sərt, barışmaz mövqedə dayanıblar...

Qərbin Rusiya qarşısından geri çəkilməsinin hansı fəsadlar törədəcəyini təsəvvür edirsinizmi? Söhbət təkcə Ukraynanın taleyindən getmir, Avropa üçün xarakterik olan demokratik dəyərlər ciddi zərbə ala bilər, qatı avtoritar idarəçilik daha cəlbedici görünə bilər. Bu baxımdan Avropa Ukraynanı yox, özünü qorumaq savaşına qatılıb.

İqtisadi cəhətdən zəif Rusiya dünyanın ən önəmli xammal bazasıdır. Ona alternativ ölkələrdə də ciddi ixtilaflar yaşanır. Amma heç kimə sirr deyil ki, cəmisi bir ilə Rusiyanın onsuz da zəif iqtisadiyyatı elə zərbələr alacaq ki, yaxın on ildə özünə gələ bilməyəcək...

Hələlik Rusiya bazarlarına ərzaq malları daşıyan ölkələrdə bir ajiotaj hökm sürür. Kimə sirdir ki, bu ölkələr Rusiyanı doyduracaq qədər resurslara malik deyillər. Bunun nə ilə nəticələndiyini bizim ölkənin timsalında görmək olar. Artıq qışda bir çox məhsulların bahalaşacağını göz altına almışıq.

Rusiyanın bu savaşda məğlub olmağı postsovet məkanında da vəziyyəti kökündən dəyişəcək. İndi qorxu-hürkü içində Putinin Avrasiya Birliyinə qoşulmaq tələbini gözləyən ölkələrdə situativ məqam yaranacaq - artıq Rusiya ilə hesablaşmayan ölkələr qloballaşan dünyada yeni istinad nöqtələri axtaracaqlar. Avtoritarizmin böyük dayağının sarsılması bu ölkələrdə demokratiya arzulayanları yeni əhvala kökləyəcək. Ən nəhayət, dünyanın siyasi xəritəsi dəyişəcək, iki düşərgəyə bölünməyən dünyada regional ziddiyyətləri tənzimləmək xeyli asan olacaq.



# “Mona Liza” nəyə gülür

Zamin HACI
zaminhaci@gmail.com

**Neçə gündür xəbər dolaşır ki, fransızlar Luvr muzeyində saxladıqları “Mona Liza” tablosunu satmaq istəyirlər. Çünki dövlətin xeyli borcu var imiş. Ancaq hələ də bizim hökumət, YAP, SOKAR, Heydər Əliyev Fondu və Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən bu məsələyə münasibət açıqlanmamışdır. Hətta Hafka da tərpənmir, halbuki fransızların futbol klubunu almışdı.**

Məncə, tələsmək lazımdır, tablonu almalıyıq. Bunun üçün uyğun təcrübələrimiz də vardır. Fransa paytaxtı Paris hələ Müsyö Jordan və Dərviş Məstəli Şahın dövründən bizə doğma şəhərdir, orda bu saat xeyli obyekt alıb qoymuşuq, kupçası-zadı yerində. Versal sarayının təmirindən tutmuş elə həmin Luvr muzeyində yeni güşə açılmasınacan, Strasburq kafedral kilsəsinin pəncərələrinə şüşə salmaqdan Fransanın “Legion” ordenini alan Leyla Yunusu Kürdəxanıya salmağa qədər xeyli əlaqələrimiz toplanıb. Leonardo da Vinçi müəllimin şəklini biz almalıyıq. Üstəlik, keçən illərdə bir neçə donqili jurnalistlərimiz israrla yazmışdılar ki, Leonardonun əsli Şəkinin Aşağı Göynük kəndindəndir, özünə də Şəkidə ləqəb qoyubmuşlar, Malyar Vidiş çağırırmışlar. İnanmağa məcburuq.

Bir haşiyə çıxım ki, “Mona Liza”nın Azərbaycan taxılçılıq təsərrüfatlarının inkişafında da böyük rolu olmuşdur. Siz zarafat sayın, ancaq 2001, ya da 2002-ci ildə “Azərbaycan fermeri” qəzetində mən öz gözümlə bir foto görmüşdüm: ümummilli əmimiz Cəlal müəllim taxıl sahəsinin kənarında əlində “Mona Liza”nın kopyası dayanmışdı. *(Bəlkə də əsli idi, kim bilir)*. Şəklin altından isə belə sözlər cızılmışdı: “Da Vinçi ”Cokonda"nı hansı incəliklə qayırıbsa, hörmətli akademik də “Qaraqılçıq-1" buğda sortunu elənçik məhəbbətlə yetişdiribdir”.

Qayıdaq bu günlərimizə. Şəklin təxmini qiyməti, deyilənə görə, 1 milyard avroya yaxındır, ancaq bu, bizi qorxutmamalıdır. Cənab prezidentin dəfələrlə qeyd etdiyi kimi, bizim pulumuz çoxdur. Ona qalsa Bakının Xutor dairəsindən təzə avtovağzala qədər olan yol ötürücülərinə indiyə qədər 2 milyard avro axıdılıb, lakin hələ də camaat bir yerə gedib çıxammır. Nə olar, qoy 1 milyard da “Mona Liza”ya verilsin, əvəzində Dərnəgül yolu gec qazıq-quzuq edilsin. İncəsənət qurban tələb edir, Ziya müəllim isə ziyalı adamdır, belə qurbanlara dözər.

Həm də bu şəklin alınmasının siyasi əhəmiyyəti var. Misal üçün, ilk növbədə bədnam qonşularımız olan ermənilərin yerdə qalan az hissəsi də paxıllıqdan partlamaya düşüb öləcəklər, o zaman general Zakir müəllim “Mona Liza”nı bayraq kimi qaldırıb müzəffər ordumuzun qabağında İrəvan şəhərinə varid olacaqdır! Bəs necə, axı Fransada erməni lobbisi güclüdür. Biz o lobbinin başının üstündən şəkli almaqla düşməni mühasirəyə salırıq.

Avam, nadan insanlar, bəzi müxalifətçi ünsürlər deyə bilər ki, axı şəkil nəyimizə lazımdır, o pulla neçə pensiyaçıya ət-yağ almaq mümkündür, nə qədər xəstə müalicə olunar və sairə. Bunlar savadsız, mənasız sözlərdir. Xalqımıza “Mona Liza” daha vacibdir, nəinki çörək. İnanmayan düşüb küçədə sorğu keçirtsin. Xalqımız dünyada ən çox kitab mağazası, ən yaxşı məktəbləri, ən reytinqli universitetləri, görkəmli alimləri, dəhşətli yazıçıları ilə tanınır! Bu çəmənlərdə gəzib Vaqifin şux gözəli!

Başqa yöndən, bu tablo öz sirli təbəssümü ilə dünyada məşhurdur. Hələ də heç kim bilmir ki, tablodakı zənən xeylağı nəyə qımışır. Əgər tablonu alıb gətirsək “Bandotdel”in incəsənət ekspertləri qısa müddətdə elə arvadın özündən nəyə güldüyünü, kimə güldüyünü öyrənə bilərlər. Hətta tablonun pulunu Kamal müəllim versə, onu aparıb Qəbələdə meşədə gəzdirsə “Mona Liza” nəinki gülümsəyər, qəhqəhə çəkər, nazlı gəlin kimi qaqqıldayar, kəklik kimi quqquldayar və sairə. *(Deyəsən, kəkliyin səsini tərs yazdım, amma dəxli yoxdur)*.

Ondan sonra Cəlal əminin gözəl ənənəsinin davamı olaraq respublikanın yaxşı bir yerindən yazıb asmaq olar ki, “Mona Liza” Azərbaycandakı analoqsuz inkişafı görüb sevinir, gülümsəyir.

# Rəsmi Tiflis Azərbaycanla sərhədini viza ilə möhürlədi



# “Gürcüstan cənnəti” üzümüzə bağlanır - Təfsilat

## İki ölkə iqtidarı arasında əldə olunan razılaşma ilk növbədə Tiflisə sığınan siyasi fəalların, müxalif yazarların, Qərbin donor təşkilatları ilə əməkdaşlıq edən QHT üzvlərinin işini mürəkkəbləşdirib; **Elxan Şahinoğlu:** “Avropadakı mühacirlərin də geri qaytarılmasına başlanacaq”

**Gürcüstanın Azərbaycanla viza rejiminə keçməsinin pərdəarxası məqamları üzə çıxıb. Mötəbər qaynaqların “Yeni Müsavat”a verdiyi məlumata görə, viza rejiminin tətbiqi ilə bağlı Azərbaycan hökuməti və rəsmi Tiflis arasında razılaşma əldə olunub. Məqsəd Gürcüstanda yaşayan mühacirlərin və gələcəkdə belə bir addımı atmağa hazırlaşanların vətənə qaytarılmasına nail olmaqdır.**

Çünki hökumətin “qara siyahısı”na düşən bəzi adamlar var ki, onlar Tiflisdə oturmaqla bu təhlükədən müvəqqəti sığortalana bilirlər. Yeni viza rejiminin tətbiqi Gürcüstanda olan mühacirlərin ölkəyə məcburi qaytarılmasını da nəzərdə tutur. Bu sövdələşmə ilk növbədə siyasi təqiblə üzləşən və Tiflisə sığınan fəalların, müxalif yazarların, Qərbin donor təşkilatları ilə əməkdaşlıq edən QHT üzvlərinin işini mürəkkəbləşdirib.

Yeni qaydalara əsasən, Gürcüstanda yaşayan əcnəbi vətəndaşlar 90 gündən artıq icazəsiz qaldıqda 180 lari *(81 manat)*, 180 gündən çox qalanda isə 360 lari *(162 manat)* cərimələnəcək.

**Qaynağımızın sözlərinə görə, Azərbaycan dövləti Gürcüstan iqtisadiyyatına böyük investisiyalar qoyur:** "“SOCAR”ın yanacaqdoldurma məntəqələri bu ölkənin şəhərlərində fəaliyyət göstərir və getdikcə sayları artırılır. Eyni zamanda energetika sahəsində, hotel biznesində yatırımlar qoyulur, Bakı-Tiflis - Qars, Bakı-Tiflis-Axalkalaki dəmiryol xətlərinin tikintisinə milyardlar yatırılıb. Məhz Azərbaycanın sayəsində Gürcüstan əksər meqa-layihələrin iştirakçısına çevrilib. Bakı-Tiflis - Ceyhan neft kəməri bu ölkənin xilas kəməri statusundadır və burada da Azərbaycanın Gürcüstana böyük maliyyə güzəştləri var.

Gürcüstanla Azərbaycan arasında xeyli geniş olan ticarət əlaqələri var. Gürcüstanın xarici bazar imkanlarını genişləndirməsində Azərbaycanın ciddi rolu var. Bu ölkə Azərbaycana daha çox məhsul və xidmət ixrac edir. Gürcüstanın ən çox ehtiyacı enerjidaşıyıcılarınadır ki, bu ölkənin neft və neft məhsulları bazarının əksər hissəsini Azərbaycan təmin edir".

Onu da yada salmaq lazımdır ki, Gürcüstan Statistika İdarəsinin 2014-cü il üçün olan son məlumatında Azərbaycanın Gürcüstana 81,9 milyon dollar yatırdığı qeyd olunub. Bütün bu yatırımların müqabilində ehtimal olunur ki, Azərbaycan hakimiyyəti üçün mühüm olan bir məsələyə - viza rejiminin tətbiqinə Gürcüstan iqtidarı razı olub.

Cənubi Qafqazda demokratiyanın paytaxtı sayılan Tiflisin bu jesti təqdir oluna bilməz. Bunu daha çox Gürcüstan tərəfinin “demokratiyanın Azərbaycan qazında boğması” kimi qiymətləndirmək də olar. Tarixən azərbaycanlı ziyalıların, siyasi xadimlərin fəaliyyət üçün seçdiyi ən əlverişli yer Tiflis olub.

Bu şəhərə səfər edənlər də təsdiqləyər ki, həm siyasətçi, həm yaradıcı adamlar üçün Tiflis əvəzolunmaz məkandır.

Gürcüstan paytaxtının mistik ab-havası, azad mühiti var, burada yaşamağı seçənlər stressdən, gərginlikdən kənarda dayanmaq istəyənlər olur. Ancaq indi viza rejiminin tətbiqi ilə “demokratiya paytaxtı” Azərbaycan iqtidarı üçün arzuolunmaz şəxslərin üzünə faktiki qapadılır.

***

“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bu məsələyə daha geniş kontekstdən baxmağın tərəfdarıdır. Politoloqun fikrincə, mühacirlərin qaytarılması məsələsində təkcə Gürcüstanla razılığa gəlinməyib.

**E.Şahinoğlu Avropa Birliyi ilə Azərbaycan arasında imzalanan sənədə diqqət çəkməyə çağırır:** “Bu sənədin oxşarı Gürcüstanla razılaşdırılıb. Çünki Avropa ölkələrində çoxlu sayda siyasi sığınacaq alan mühacirlərimiz var. Onların bəziləri bəhanə edərək, heç bir siyasi təqiblə üzləşmədən sənədlərini hazırlayıb yaşamaq üçün gediblər. Bundan sonra Avropaya köçmək və mühacir statusu almaq asan olmayacaq. Belə görünür ki, onların geri qaytarılması başlanacaq. İndi bu oxşarlığı Gürcüstanla hiss edirəm”.

**Politoloq hesab edir ki, bu məsələ ilə bağlı Avropa Birliyinin rəsmisi Stefan Fülenin də açıqlamalarına nəzər yetirmək vacibdir:** “Onun vətəndaş cəmiyyəti üzvləri ilə də görüşü oldu, dövlət rəsmiləri ilə də. Bu çıxışlardan qənaət ondan ibarətdir ki, Amerika və Avropa üçün enerji təhlükəsizliyi önəmlidir. Hətta Qərbdən qrant alan təşkilatların rəhbərləri həbs olundu və gözlədiyimiz ciddi reaksiya olmadı. Ümumi bəyanatlar səsləndi, sanksiya çağırışları olmadı.

Artıq Azərbaycan - NATO əməkdaşlığı da inkişaf edir. Eyni zamanda Gürcüstan haqda bunu demək olar. Bu ölkəyə Azərbaycan tərəfi investisiyalar qoyur, Bakı-Tiflis-Qars xətti gələn il açılır və qarşılığında qeyri-rəsmi bir razılaşma əldə oluna bilər. Digər tərəfdən, Gürcüstan Avropa İttifaqı ilə assosiativ saziş imzalayıb və qaydalara əməl etməlidir. Amma Azərbaycan hökumətinin istəklərinin də nəzərə alındığı görünür".

**Politoloq Zəfər Quliyevin** fikrincə, bu məsələ təkcə mühacirlərlə məhdudlaşmır. Siyasi şərhçinin sözlərinə görə, Azərbaycandan mühacirətə gedənlər təkcə Gürcüstanda deyil, Avropa ölkələrində də var. Ekspert hesab edir ki, viza rejiminin tətbiqi ikitərəfli münasibətlər, geosiyasi maraqlarla əlaqəlidir.

**Z.Quliyev bu razılaşmada mühacirlərlə bağlı Azərbaycanın xüsusi marağını da istisna etmir:** “Gürcüstan Avropa İttifaqı ilə assosiativ saziş imzalayıb, Avropa qaydalarına uyğun məkana hazırlaşır. Ona görə viza rejimi digər ölkələrə də şamil edilib. Azərbaycanla viza rejiminin razılaşdırılması bir sıra məsələlərlə bağlı ola bilər. Ancaq ikitərəfli münasibətlərdə ola bilsin ki, Azərbaycanın mühacirlərlə bağlı xüsusi marağı da var”.

**Xatırladaq ki, Azərbaycanın Gürcüstandakı səfirliyi bu ölkə ərazisində fəaliyyət göstərən Azərbaycan şirkətlərinə müraciət ünvanlayıb. Müraciətdə deyilir:** “1 sentyabr 2014-cü il tarixində qüvvəyə minmiş Gürcüstanın ”Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin hüquqi statusu haqqında" qanununa əsasən ölkənin miqrasiya siyasətinə bir çox dəyişikliklər edilib.

Qeyd edilən dəyişikliklər Azərbaycan Respublikası vətəndaşlarına da şamil edilib. Qanuna əsasən, Azərbaycan Respublikası vətəndaşları Gürcüstan ərazisində vizasız olaraq hər 180 gün ərzində 90 gün qanuni formada yaşaya biləcəklər.

Qanunsuz formada 90 gündən artıq Gürcüstan ərazisində qaldıqda 180 lari *(bu günün məzənnəsi ilə 81 manat)*, 180 gündən çox qaldıqda isə 360 lari *(bu günün məzənnəsi ilə 162 manat)* məbləğində cərimələnəcəkdir.

Azərbaycan Respublikası vətəndaşları 1 sentyabr 2014-cü il tarixindən sonra Gürcüstan ərazisində 90 gündən artıq qalmaq üçün ölkə ərazisinə daxil olmadan əvvəl Gürcüstanın Bakı şəhərindəki səfirliyinə və ya Gəncə şəhərindəki Baş Konsulluğuna müraciət edərək viza almalı və qeyd olunan viza ilə ölkə ərazisinə daxil olduqdan sonra Gürcüstanın Ədliyyə Nazirliyinə müraciət edərək yaşayış hüququ almalıdırlar.

Əlavə olaraq bildirmək istərdik ki, cari ilin 1 sentyabr tarixinədək Gürcüstan ərazisinə gəlmiş və ölkə ərazisini tərk etməmiş Azərbaycan Respublikası vətəndaşları 90 gündən artıq Gürcüstanda qalmaq üçün Gürcüstanın Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinə müraciət edərək viza ala biləcəklər.

❑ Emil SALAMOĞLU

**Avropa Birliyinin genişlənmə və qonşuluq siyasəti üzrə komissarı Ştefan Fülenin görüşləri və mesajları belə ümidlər yaradıb ki, onun Bakı səfərinin ardınca vətəndaş cəmiyyətinin ağır durumdan çıxarılması prosesinə start veriləcək.**



# Fülenin Bakı səfəri QHT-ləri xilas edəcəkmi?

Avropalı diplomatın islahatların həyata keçirilməsi üçün hökumətlə vətəndaş cəmiyyəti arasında dialoqa çağırması, ölkədə vətəndaş cəmiyyəti üçün məkanın daraldığını qeyd etməsi və s. fikirləri təhlilçilər tərəfindən müxtəlif cür şərh olunur.

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu bu səfərin nəticə verəcəyini güman etmir:** "Ənənəvi bir səfərdir və heç nə dəyişməyəcək. Ona görə ki, səfər adi, növbətçi xarakter daşıyırdı və bu səfərin reallaşdırılmasında hansısa xüsusi məqsədlər yox idi. Bu mənada QHT-lərlə keçirilən görüş də proqram xarakterli idi. Həmin görüşdə QHT-lərlə bağlı yaranmış durum müzakirə olunub, vətəndaş cəmiyyətinə qarşı təzyiqlərə Avropa Birliyi tərəfindən bir dənə də real reaksiya verilməyib. Fülenin özü də faktiki olaraq ciddi bir münasibət göstərməyib. Yalnız onu deyib ki, Avropa Azərbaycanda vətəndaş cəmiyyətinə 3 milyon avro yardım ayırıb. Amma bu gün bank hesabları bağlanan Azərbaycan vətəndaş cəmiyyəti iflic vəziyyətindədir. Ona görə də hesab edirəm ki, bu, formal səfərdir və burada hansısa yeniliklər, sensasion dəyişikliklər axtarmaq, məncə, həddindən artıq optimist yanaşma deməkdir. Reallıqda isə bu, mümkün deyil". **Ə.Oruclu deyir ki, bütövlükdə Qərbin Azərbaycana marağı azalıb:** "Ən azı iqtisadi, siyasi maraq azalıb. Bunun da konkret səbəbləri var. İlk səbəb ondan ibarətdir ki, Qərbin bütün diqqəti Rusiyaya yönəlib. İkinci səbəb odur ki, Azərbaycan artıq enerji portnyoru kimi Qərb üçün əvvəlki önəmi kəsb eləmir. "Nabucco" layihəsinin alınmaması bu marağın azalmasına səbəb oldu. Digər tərəfdən, Qərbin Azərbaycanın daxilindəki dinamikaya münasibəti göstərir ki, Avropa Birliyi Azərbaycanı formal olaraq tərəfdaş kimi nəzərdən keçirir. Nəhayət, NATO-nun son sammitində Azərbaycanın ərazi bütövlüyü ilə siyahıya gətirib Ermənistanın da salınması onu göstərir ki, bizə müstəsna münasibət yoxdur". Ə.Oruclu Fülenin səfərinin QHT-ləri xilas edəcəyini düşünmür: "Bunu deməyə əsas yoxdur".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hesab edir ki, Azərbaycana səfər edən Qərb diplomatlarının və rəsmilərinin görüş və açıqlamalarında dəyişən bir şey yoxdur:** "Əvvəlcə rəsmilərlə görüşüb fikir mübadiləsi aparırlar, sonra ya müxalifət liderləri, ya da vətəndaş cəmiyyətinin nümayəndələrini qəbul edir, sonda da mətbuat konfransında diplomatik ifadələrlə səfərlərinə yekun vururlar. Eynilə Füle də bu ənənəyə sadiq qaldı. Əlbəttə, Avropa Birliyi Azərbaycanda bəzi müstəqil QHT-lərin sıxışdırılmasından narahatdır. İş o yerə çatıb ki, Avropa Birliyinin ayırdığı qrantlar üzrə də bir qisim QHT-yə qarşı cinayət işi açılıb. Ancaq mən Füle və digər avropalı və ya amerikalı rəsmilərin, diplomatların bu prosesi ciddi surətdə əngəlləyəcəyini gözləmirəm. Rəsmi Bakı qərarını verib və dayanmaq fikri yoxdur. Qərar da bundan ibarətdir ki, vətəndaş cəmiyyəti yalnız yerli imkanlar hesabına fəaliyyət göstərməli, bütün xarici qrant və donor təşkilatların Azərbaycandakı fəaliyyəti dayandırılmalıdır. Rəsmi Bakının Qərbdən maliyyələşdirilən QHT-lərə qarşı səlib yürüşünə başlaması və həbslər həyata keçirməsinə Azərbaycanın Avropa Şurası Nazirlər Kabinetinə sədrlik etməsi də mane olmur. Halbuki düşünülə bilərdi ki, bu sədrlik rəsmi Bakının siyasətində Qərdin arzuladığı dəyişikliklərə gətirib çıxara bilər". **E.Şahinoğlu vurğuladı ki, Füle avropalı məmurdur və Avropanın maraqları çərçivəsində hərəkət edir:** "Avropanın maraqları isə Azərbaycanla enerji və təhlükəsizlik sahəsində ciddi əməkdaşlığı diktə edir. Fülenin xarici işlər naziri Elmar Məmmədyarovla dilə gətirdiyi ilk iki cümləni xatırlatmaq istəyirəm: "Hər dəfə buraya gələndə burada baş verən dəyişikliklər məni heyran qoyur. Mən gözəl Bakı şəhərindən həzz alıram. Anlayıram ki, Azərbaycan dövlətinin iddia və maraqlarını nəzərə almalıyıq". Hər iki cümlədə Azərbaycan hakimiyyətinə kompliment var. Yəni Füle bəri başdan deyir ki, Avropa Azərbaycanın daxili işlərinə qarışmaq istəmir, hakimiyyətin siyasətinə ciddi etirazı yoxdur, ancaq yumşaq şəkildə onu da məsləhət verir ki, yaxşı olardı ki, müstəqil QHT-lər sıxışdırılmasın. Yəni bu bir məsləhətdir, Azərbaycan hakimiyyətinə qarşı sanksiya xəbərdarlığı deyil".

**Ekspert deyir ki, hakimiyyət yerli QHT-ləri ancaq QHT-lərə Dövlət Dəstəyi Şurasının ayırdığı maliyyə ilə fəaliyyət göstərməyə sövq edir:** "Məsələ burasındadır ki, QHT-lərə Dövlət Dəstəyi Şurası ildə iki dəfə qrant müsabiqəsi keçirir və ayırdığı maliyyə çox kiçikdir. Müstəqil QHT-lər isə bu günə qədər xaricdən daha böyük büdcələr əldə edirlər və bu yolla illik fəaliyyət planlarını tərtib edirdilər. Xarici qrantların azalması və ya yaxın gələcəkdə ümumiyyətlə dayandırılması müstəqil QHT-lər və ictimai fəallar qarşısında iki seçim qoyur: Birinci seçim, başqaları kimi yalnız QHT-lərə Dövlət Dəstəyi Şurasının müsabiqələrinə qatılmaqdır. Sadəcə, problem ondadır ki, kiçik maliyyədən başqa bu müsabiqələrdə "siyasi məhbusların siyahısının tutulması", "məhkəmələrin sərbəstliyi və monitorinqi" və ya "demokratiya üçün oxu" kimi layihələr qəbul olunmayacaq, maliyyələşməyəcək. Əgər müstəqil QHT-lər QHT-lərə Dövlət Dəstəyi Şurasından maliyyə almaq istəyirlərsə, dövlətin ictimai sahədəki siyasətini qəbul etməlidirlər. Bu isə o deməkdir ki, onlar hakimiyyətin siyasi kursundan kənara çıxmamalıdırlar. İkinci seçim, ictimai fəaliyyətdən uzaqlaşmaqdır. Əgər müstəqil QHT hakimiyyətin siyasi kursunu müdafiə etməyəcəksə, ancaq xaricdən maliyyəsi də olmayacaqsa, onun yeganə alternativi bu sektoru tərk etməkdir. Çünki bu günə qədər onların müstəqil fəaliyyətlərinə yalnız xaricdən əldə etdikləri maliyyə şərait yaradırdı. Beləliklə, müstəqil QHT-lərin hər iki seçimi hakimiyyətin xeyrinədir. Bir qisim QHT hakimiyyətin tərəfinə keçəcək, digərləri isə ümumiyyətlə bu sektorda fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalacaq və deməli, hakimiyyətə problem yaratmayacaqlar".

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə Fülenin Bakıda ehtiyatla danışdığını xüsusi vurğuladı. Onun sözlərinə görə, səfərdə əsasən Azərbaycanla Avropa Birliyi arasında Strateji Modernləşmə Planının imzalanması ətrafında müzakirələr aparılıb:** "Çünki tərəflər sazişi imzalamaq üçün hazırlaşır. Avropa demokratiya ilə bağlı sözünü deyir, amma kifayət qədər ehtiyatlıdır, hadisələri qabaqlamaq istəmirlər. Sazişin imzalanması noyabr ayında olmalıdır. Bu zaman yeni bir situasiya yaranacaq. Noyabrın əvvəlində QHT-lərin qrantları ilə bağlı məsələdə dəyişiklik gözlənilir, yeni əlverişli qaydalar qəbul olunacaq. Yəni elektron qeydiyyat məsələsi, şəffaflıq məsələsi təmin olunacaq. Ona görə də vətəndaş cəmiyyəti ilə hökumət arasında dialoq mühitinin yaradılmasına ehtiyac var. Əlbəttə, burada QHT-lərə Dövlət Dəstəyi Fondunun rolu gücləndirilməlidir. Amma müəyyən dəyişikliklər olacaq".

**M.Əliyev də Fülenin gəlişi ilə QHT-lərin xilas olacağına inanmır:** "Bizdə medianı necə xilas etdilər, QHT-ləri də o cür xilas edəcəklər. Buna baxmayaraq, yaxın dönəmdə dəyişikliklər qaçılmazdır, 4-5 il ərzində xeyli məsələlər dəyişməlidir, buna ehtiyac var. Çoxlu problemlər var, bunları həll etmək üçün zaman və dialoq mühiti lazımdır".



**Ərəstun Oruclu:** "Bütövlükdə Qərbin Azərbaycana marağı azalıb"



**Elxan Şahinoğlu:** "Rəsmi Bakı qərarını verib və dayanmaq fikri yoxdur"



**Mehman Əliyev:** "Medianı necə xilas etdilər, QHT-ləri də o cür xilas edəcəklər"

❑ **E.PAŞASOY**

# Rusiya işğalını əngəlləyən "neft amili"



**Azər RƏŞİDOĞLU**

**Bu gün dünya siyasətində neft həlledici amilə çevrilib. Azərbaycanın gələcək inkişafı da neft resurslarının istifadə səmtindən asılı olacaq.**

Məhz neft amili Bakının geosiyasi seçiminə təsir etmiş oldu. Enerji daşıyıcılarının Avropaya nəql edilməsi Rusiyanın imperiya iddialarına ciddi zərbələr endirdi.

Azərbaycan neftini dünya bazarına çıxaran və 2006-cı ilin iyulunda işə salınmış Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri də regionun ən iri layihələrindən birinə çevrildi. Bu layihə çərçivəsində ölkəyə külli miqdarda neft gəlirləri daxil olmağa başladı.

Bəs "Əsrin müqaviləsi" Azərbaycana nə verdi? Bu çoxmilyardlıq layihə üzrə neft-qaz satışı xalqın həyatını yaxşılaşdırdımı?

Təsadüfü deyil ki, "Əsrin müqaviləsi"nin imzalanmasının gecikdirilməsi Ayaz Mütəllibov və Əbülfəz Elçibəy hakimiyyətlərinin devrilməsində müstəsna rol oynayıb. "Əsrin müqaviləsi" elə bir dövrdə imzalandı ki, atəşkəs haqda saziş yenicə imzalanmışdı, dövlət büdcəsi xeyli daralmışdı. Müharibənin doğurduğu problemlər də yetərincə idi. Bu amillər kifayət edirdi ki, Azərbaycanda hakimiyyət çevrilişləri adi hal alsın.

Lakin "neft amilini" həddən ziyadə şişirtmək də düzgün yanaşma olmazdı. Belə ki, 2000-ci ilə qədər neft amili Azərbaycan iqtisadiyyatında indiki qədər qabarıq deyildi. Ancaq buna baxmayaraq, iqtisadi inkişafda bir sıra ciddi nailiyyətlər əldə edilmişdi. Yəni Azərbaycanda neft tükənəndən sonra fəlakət yaranacağı ilə bağlı fikirləri bir mənalı rədd etmək lazım gəlir. Burada müəyyən aralıq böhrandan söhbət gedə bilər. Neft puluna öyrəncəli iqtisadiyyat neftsiz iqtisadiyyata çevriləndən sonra bir müddət iqtisadi təlatümlər qaçılmaz olacaq. Bu təlatümlər iqtisadi inkişaf barədə rasional qərarlar qəbul edilənə qədər davam edəcək.

Buna baxmayaraq, neft amili Azərbaycan iqtisadiyyatının bərpa və inkişafını xeyli sürətləndirdi.

"Əsrin müqaviləsi" ölkənin iqtisadi-siyasi mühitində xüsusi yer tutur. 1994-cü ildə ölkə müharibədən yenicə çıxmışdı və pulu yox idi. Bu baxımdan neft müqaviləsinə ehtiyac böyük idi. Müqavilə çərçivəsində isə Azərbaycana çoxlu maliyyə yatırılacaqdı. Üstəlik də müqavilənin imzalanmasına görə Azərbaycana 300 milyon dollar bonus verildi.

Bəlkə də bu məbləğ indi çoxlarında gülüş doğura bilər - 300 milyon dollar hazırkı reallıqda bir neçə körpünün puludur. Məsələn, son dərəcə keyfiyyətsiz inşa edilmiş Bakı - Oguz Qəbələ su kəmərinə 1 milyard dollar xərclənib.

Ancaq 1994-cü ildə bu rəqəm büdcə xərclərinə yaxın bir məbləğ idi. Həm də o dövrdə Azərbaycanın valyuta ehtiyatı qalmamışdı - müharibə valyutanın axırına çıxmışdı. Yəni bu müqavilənin imzalanması istər cari, istərsə də strateji məqsədlər baxımından vacib idi və hakimiyyət böyük siyasi iradə ortaya qoyaraq bunu reallaşdırdı.

O dövrdə xarici güclər müqavilənin imzalanmaması üçün Azərbaycan hakimiyyətinə aramsız təzyiqlər edirdi. Rusiya hərbi çevrilişlərlə hədələyirdi. Buna baxmayaraq, rəsmi Bakı "Əsrin müqaviləsi"nə imza atmaq qətiyyəti göstərdi. Müqavilənin imzalanmasından cəmi 2 ay sonra Azərbaycanda maliyyə sabitliyi yarandı və bu maliyyə sabitliyi indi də davam edir. Təbii ki, "Əsrin müqaviləsi"nin xeyli mənfi cəhətləri də oldu.

Ən əsas mənfi cəhət layihənin tam şəkildə vergiyə cəlb edilməməsi oldu. Transmilli neft şirkətləri ilə Azərbaycan hökuməti arasındakı anlaşmaya görə, layihə çərçivəsində görülən işlərin əksəriyyəti vergidən azad edildi.

Digər tərəfdən, qeyri-neft sektorunun tamamilə iflic olması iqtisadiyyata zərbələr endirdi.

Azərbaycan neftçilərini narahat edən əsas səbəblərdən biri də o oldu ki, xarici neft şirkətlərində işləyən azərbaycanlıların əmək və başqa hüquqları mütəmadi olaraq pozulmağa başladı.

Neftdən başqa gözləntilər də özünü doğrultmadı - Qarabağ münaqişəsi çözülmədi - neft əvəzinə Qarabağ siyasəti iflasa uğradı, demokratik proseslər sürətlənmədi. "Əsrin müqaviləsi" ona gətirib çıxartdı ki, demokratiya paytaxtları Azərbaycanda ilk növbədə enerji maraqlarını güdməyə başladı. Bu amil demokratiyanın inkişafına rəvac versə də, hər halda ölkəni Rusiyanın işğalından qoruya bildi...

YENİ MÜSAVAT
N 227 (5936) 11 sentyabr 2014


Şövqi Vaqifoğlu

# Putinin "işdən çıxardığı" azərbaycanlı iş adamı "Yeni Müsavat"a danışdı

## Şövqi Vaqifoğlu: "Rusiyaya qarşı sanksiyanı dəstəkləyən Avropa ölkələrində acınacaqlı vəziyyət yaranıb"

**Şövqi Vaqifoğlu Azərbaycan jurnalistikasında tanınan isimlərdən biridir. O, xeyli müddətdir ki, Polşada yaşayır və bundan əvvəlki dəfə qəzetimizə açıqlama verərkən biz onu uğurlu azərbaycanlı iş adamı kimi görmüşdük, orada işləri, Polşadakı biznes mühitini oxucular üçün açmışdı. Məlum olmuşdu ki, Polşada çox münbit bir iş şəraiti var və həm azərbaycanlılar üçün, həm zəhmət çəkmək istəyən digərləri üçün.**

*Və xüsusilə də azərbaycanlıların orada az sayda da olsa, biznes qurma imkanları genişdir.*

*Bu dəfə isə Ş.Vaqifoğlu redaksiyamıza gələndə və onunla hal-əhval tutanda məlum oldu ki, azərbaycanlıların, ümumiyyətlə, Polşadakı biznes sektorunun vəziyyəti heç də yaxşı deyil. Biz bunun səbəbini soruşduq.*

***- Niyə Polşada biznes mühiti dəyişikliyə məruz qalıb? Bu, yalnız Polşadadırmı? Vəziyyət ümumiyyətlə Avropa istiqamətində necədir? Bu pisləşmənin səbəbləri nədir?***

- Ukraynada baş verən hadisələrdən sonra Avropanın və ABŞ-ın Rusiyaya təzyiqlərinə Putin də özünəməxsus formada qarşılıq verdi: Putin Avropa ölkələrindən Rusiyaya bütün növ məhsulların idxalına qadağa qoydu. Avropa ölkələrindən təxminən 41 faiz ixracat Rusiyaya olurdu. Bu, əslində Rusiyanın özü üçün də olduqca təhlükəlidir. Hazırda Rusiyada yasaq qoyulan mallara böyük tələbat var. Hansı ki, o malları əsasən Avropa ölkələrindən alırdı. Bu cavab tədbirindən sonra Rusiyaya qarşı sanksiyanı dəstəkləyən Avropa ölkələrində acınacaqlı vəziyyət yaranıb. Bu vəziyyətin nə vaxtadək davam edəcəyi bilinmir.

***- Bu vəziyyət sizə, iş adamlarına nə dərəcədə təsir edib?***

- İxrac etdiyimiz mallara Putin tərəfindən yasaq qoyulub. Əsasən Rusiya bazarları ilə işləyirdik. İndi Rusiyaya heç bir malı ixrac edə, göndərə bilmirik. Göndərdiyimiz malların da paralarını geri almaqda çətinliyimiz var. Biz sanksiyadan əvvəl göndərdiyimiz malların da pulunu ala bilmirik, bu da böyük ölçüdədir, xırda məbləğlər deyil.

***- Bu, yalnız azərbaycanlılara şamil edilir, yoxsa ümumiyyətlə, Polşada vəziyyət belədir?***

- Bütün bu işlə məşğul olanlarla bağlı vəziyyət bu cürdür. Nəinki Polşada, bütün Avropa dövlətlərində eyni vəziyyətdir.

***- Putinin qoyduğu embarqo, tətbiq etdiyi sanksiya çox adama gülməli gəlirdi. Çoxları düşünürdü ki, bunun heç bir nəticəsi olmayacaq. Amma deməli, nətica verib...***

- Əksinə, bu dəqiqə Avropa demək olar ki, Putindən, Rusiyadan heç vaxt gözləmədiyi zərbəni aldı. Baxmayaraq ki, onun əks təsiri Rusiyaya daha çoxdur. İndi Avropa öz malını satmağa növbəti ölkələr, bazarlar axtarır. Rusiyada böyük həcmdə çatışmazlıq var, böyük həcmdə idxal malları çatışmır. Demək olar ki, burada əsas zərbə Avropaya dəyir. Avropa Birliyi indi kənd təsərrüfatı ilə məşğul olan insanlara yardım etmək üçün müəyyən formatda tədbirlər görür, amma bu da nəticəsizdir. Nə qədər kompensasiya verilsə də, vəziyyətin düzəlməsi üçün yetərli deyil.

***- Sizə də veriləcəkmi kompensasiya?***

- Yox, ciftçilərə veriləcək. Biz birbaşa kənd təsərrüfatı ilə məşğul deyilik. Biz becərən adamlardan məhsullarını vaxtından əvvəl alırdıq və onu Rusiyaya satırdıq.

***- Bəs indi neyləyirsiniz? Vəziyyətdən çıxmaq üçün planlarınız varmı?***

- Hazırda gözləmə mövqeyindəyik. Deyirlər ki, bu vəziyyət gələn ilin mart ayına kimi davam edəcək. Bu, iflasdır artıq, göz görəsi iflasdayıq.

***- Bu vəziyyətdə olan çox iş adamı var?***

- Bütün iş adamları, hamı bu vəziyyətdədir. Zərərçəkən ölkələrdən biri də Hollandiyadır. Çünki onlara okean malları gəlir, Amerikadan, Argentinadan və başqa ölkələrdən gələn port malları toplanırdı və sonra Rusiyaya daşınırdı. Birinci təsir Hollandiyayadır, sonra Polşada oxşar vəziyyətdir, məhv olma həddindədir. İnsanların arasında böyük narazılıq var. Tutaq ki, Polşa vətəndaşları Polşa hökumətinə qarşıdırlar ki, niyə Rusiyaya qarşı belə sanksiyalara qoşulub.

**"Avropa Putindən, Rusiyadan heç vaxt gözləmədiyi zərbəni aldı"**

***- Belə çıxır ki, Amerika Avropanı işə salıb?***

- Hə, işə salıb.

***- Bəs iş adamı olaraq Rusiyadakı tərəfdaşlarınızın vəziyyəti necədir?***

- Onlar da başqa alternativlər axtarırlar. Rusiyanın tələbatını ödəyən ölkələr hazırda Azərbaycan, Gürcüstan, Makedoniya, Serbiya və Türkiyədir. Bunlarda spesifik bir sahələr var idi ki, bu sahələrdə o ölkələr favorit idi. Avropa ölkələrində başqa sahələr favorit idi. İndi boşluq yaranıb və bizim biznes tərəfdaşlarımız o boşluğu doldura bilmirlər. Bəlkə biz Serbiyada, Makedoniyada, Türkiyədə iş qursaydıq, indiki halda daha çox para qazana bilərdik. Biz Avropa Birliyi ölkələri ilə işlədiyimizə görə hazırda nə verdiyimiz, göndərdiyimiz malların pulunu ala bilirik, nə də iş görə bilirik.

***- Vəziyyətdən çıxmaq üçün nə düşünürsünüz? Nə edəcəksiniz? Azərbaycana gəlişinizin səbəbi alternativlər axtarmaqdır?***

- Biz Avropada qurduğumuz işi Azərbaycanda qurmaq üçün vəziyyətə baxmaq istəyirdik. Eskizlərə baxmaq istəyirik ki, burada bu işləri görmək nə dərəcədə realdır. Burada o qədər boşluqlar var ki, alqı-satqı işləri demək olar ki, kağızsız, sənədsiz aparılır, ala, sata bilmirsən. Elə şirkətlər var ki, kimlərinsə nəzarətindədir, ancaq onların nəzarəti, xətti ilə getməlisən. Yəni şəffaf olmadığına görə biz bu işləri Azərbaycanda görə bilmədik.

***- Belə deyək ki, Putin sizi "işdən çıxarıb". Bu, səbəb ola bilərmi ki, siz para qazandığınız, iş tapdığınız Polşadan köçəsiniz?***

- Yox, biz orada o qədər yaxşı oturuşmuşuq, sistemi elə qurmuşuq ki, onu 6-8 ay da gözləyib saxlamaq daha məqsədəuyğundur, nəinki qorxub çəkilmək. Oturuşmuş bir həyat tərzimiz var orada, təhsil baxımından, məişət baxımından. Qalıb gözləyəcəyik.

***- Avropalılar zərər çəkməsinə baxmayaraq Putindən daha çox öz hakimiyyətlərinə qızır? Bu, o deməkdirmi avropalılar Putuni cavab addımına görə haqlı bilirlər?***

- Məsələn, Polşada öz hökumətini qınayan insanlar daha çoxdur. Orada belə bir fikir də var idi ki, Polşa diversantlar hazırlayıb göndərir Ukraynada Rusiyaya qarşı. Belə iddialar var idi. Hökuməti qınayanlar da məhz bu prizmadan yanaşırlar, deyirlər ki, bizim nəyimizə lazımdır Ukrayna? İndiki halda Ukrayna daxili savaşı udsa belə, heç bir standarta uyğun gəlmir ki, onu Avropa Birliyinə qəbul etsinlər. Ukrayna da aldadılmış bir vəziyyətdədir - xaotik bir vəziyyətə salınıb.

❑ RÖYA

# İREX nə işlər görüb?

## "Yeni Müsavat" İREX-in əməkdaşlıq etdiyi təşkilatlarla bu mövzunu müzakirə edib

IREX

WWW.IREX.ORG

**Xəbər verdiyimiz kimi, sentyabrın 5-də Baş Prokurorluq əməkdaşları məhkəmənin qərarı ilə İREX-in Bakı ofisinin bütün kompüterlərini, digər avadanlıqlarını, eləcə də təşkilata dair sənədləri apardılar. Təşkilatın Azərbaycandakı bank hesabı bir sıra yerli və beynəlxalq QHT-lərə açılan cinayət işi ilə əlaqədar olaraq 2014-cü il iyulun 26-da dondurulub.**

Qeyd edək ki, İREX təşkilatı 15 ildir Azərbaycanda fəaliyyət göstərir. Bəs bu illər ərzində təşkilatın fəaliyyət istiqamətləri nə olub və hansı işlər görüb? "Yeni Müsavat" İREX-in əməkdaşlıq etdiyi təşkilatlarla bu mövzunu müzakirə edib.

**Təşkilatın Azərbaycandakı fəaliyyətini dəyərləndirən Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz** bildirdi ki, İREX ali təhsil müəssisələrinin əksəriyyətində informasiya infrastrukturunun, Wi-Fi şəbəkəsinin qurulmasında xidmətləri olub, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə regionlarda layihələr həyata keçirilib. "Mənim rəhbərlik etdiyim qurum informasiya azadlığının inkişafı, yeni medianın inkişafı ilə bağlı müxtəlif dövlət qurumlarının, özəl sektorun, o cümlədən İREX-in də dəstəyi ilə bir çox uğurlu layihələr həyata keçirmişik. Bir sözlə, İREX-in bu ölkədə informasiya sektorunun inkişafına çox böyük dəstəyi olub" deyə, O.Gündüz bildirib.

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə qeyd etdi ki, Azərbaycanda online medianın inkişafı, informasiya əldə etmək imkanlarının genişlənməsi, xüsusən də internet köşklərinin yayılması və sair sahələrdə "İREX-Azərbaycan" təşkilatının böyük xidmətləri olub:** "Region televiziyalarına avadanlığın alınması, onlar üçün təlimlərin keçirilməsi, ümumilikdə jurnalistikanın inkişafı üçün keçirilən treninqlər medianın inkişafı üçün faydalı olub. "Turan"ın müstəqil və dayanıqlı media kimi fəaliyyət göstərməsinə kömək ediblər. İREX ölkəmizdə media qanunvericiliyi sahəsində mühüm işlər görüb".

**"Media və Demokratiyanın İnkişafına Dəstək" təşkilatının sədri Aynur İmranova da hesab edir ki, İREX-in Azərbaycanda jurnalistlər üçün əvəzolunmaz xidmətləri olub:** "İREX-in təlimlərində hər il onlarla jurnalist püxtələşib. Tələbkarlıqlarına, peşəkarlıqlarına söz ola bilməz, təşəbbüskarlıqları sadəcə qibtə hissi yaradır. Bundan əlavə, İREX təkcə Bakıda deyil, əyalət jurnalistikasının yetişdirilməsi və püxtələşməsində xüsusi rol oynayıb. Qurumun fəaliyyət istiqamətlərindən biri də jurnalistləri və media qurumlarını texnika ilə təmin etməsidir. Şəxsən mən illər əvvəl videomontaj, texniki səsləndirmələr, internet təhlükəsizliyi, biznes araşdırmalarının yazılması kimi təlimlərdə iştirak eləmişəm. Və jurnalist kimi fəaliyyətimi davam etdirmək üçün bir sıra texniki vasitələri bu təşkilatdan almışam. Bu gün Azərbaycan jurnalistikasının peşəkarlığının artırılmasında İREX-in danılmaz xidmətləri var".

**Media Hüququ İnstitutunun keçmiş əməkdaşı Xalid Ağəliyev İREX-in Azərbaycan mediasının inkişafı üçün həyata keçirdiyi işləri yüksək qiymətləndirib:** "Mənim də uzun illər çalışdığım Media Hüququ İnstitutu İREX-lə 5 ildən artıq əməkdaşlıq edib. Jurnalist və bloqçuların təlimləndirilməsi istiqamətinə də dəstək verib, ancaq İREX əsasən jurnalistlərin hüquqlarının müdafiəsində MHİ-yə yardım göstərib. Bu dəstək ola bilsin ki, bəzən yetərli olub, ola bilsin ki, bəzən bu işi tam şəkildə həyata keçirməmizə kifayət etməyib. Ancaq son 6-7 ildə jurnalistlərin hüquqlarının müdafiəsinin dəstəklənməsində əsas yükü məhz İREX təşkilatı daşıyıb. Mən təbii ki, görülən, real işləri nəzərdə tuturam. MHİ biz fəaliyyət göstərdiyimiz dövrdə peşə fəaliyyəti ilə əlaqədar olaraq hüquqları pozulan elə bir jurnalist, qəzet, sayt olmayıb ki, onun yanında olmasın. İmkanlarımız çərçivəsində, heç kimə fərq qoymadan hüquq yardımı göstərmişik. Fəaliyyət göstərdiyimiz dövrdə elə bir jurnalist hüququ pozuntusu olmayıb ki, onu ən yuxarı məhkəmə instansiyasınadək aparmayaq. Media hüququ, ifadə azadlığı sahəsində ixtisaslaşmış azsaylı hüquqçuların da əksəriyyəti MHİ-dən çıxıblar, bu iş də dolayısı ilə həm də İREX-in dəstəyi nəticəsində mümkün olub. Bundan əlavə, bildiyim qədər, mediaya hüquq yardımının, jurnalistlərin təlimləndirilməsinin dəstəklənməsi İREX-in gördüyü işlərin kiçik bir hissəsi idi. İREX hökumət qurumları ilə, xüsusən də Rabitə Nazirliyi ilə sıx əməkdaşlıq edib. Azərbaycanın iri kəndlərinin pulsuz internetlə təminatı kimi vacib təşəbbüslərə dəstək verib. Ola bilsin ki, ilk baxışda bu təşkilatın gördüyü işlər o qədər də nəzərə çarpacaq olmasın, ancaq İREX gerçəkdə öz fəaliyyət sferası çərçivəsində Azərbaycan toplumu üçün gərəkli olan əksər təşəbbüslərin dəstəkçisi olub".

❑ Nərgiz LİFTİYEVA

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT

N 227 (5936) 11 sentyabr 2014

**Dağlıq Qarabağ problemi ətrafında yeni bir hərəkətlilik müşahidə olunmaqdadır. Bu dəfə təmas xəttində deyil, dinc nizamlama prosesində özünü göstərən canlanmanın sülh danışıqlarını dalandan çıxarıb-çıxarmayacağını hələ ki söyləmək çətindir. Ən azı o səbəbə ki, ATƏT-in Minsk Qrupu həmsədrlərinin (Qərb və Rusiya nəzərdə tutulur) məsələnin həll perspektivinə baxışları heç vaxt olmadığı qədər bir-birindən fərqlənir, üst-üstə düşmür.**



# Prezidentlərin intensivləşən görüşlərinin pərdəarxası

## Qərb Qarabağ strategiyasına düzəliş edir; ABŞ təkbaşına vasitəçiliklə problemi istədiyi kimi uzadan Rusiyanı fakt qarşısında qoymağı hədəfləyib; saxta soyqırımın 100-cü ildönümündə Vaşinqtonun "Böyük Sülh Sazişi" mümkünmü?..

Bu xüsusda prezidentlərin Soçi görüşü və həmin görüşdə Rusiya prezidenti Putinin söylədikləri əyani şəkildə göstərdi ki, Moskva, ümumiyyətlə, Minsk Qrupunun varlığında maraqlı deyil və şəriksiz vasitəçiliyə can atır. Ona görə ki, şəriksiz vasitəçilik Kreml üçün şəriksiz maraqlar, şəriksiz region deməkdir.

Belə görünür, Putinin bu mesajını artıq Qərbdə alıblar. Bunun təzahürü idi ki, Soçi görüşündən heç bircə ay keçməmiş ABŞ-ın dövlət katibi Con Kerrinin birbaşa təşəbbüsü ilə və rusiyalı vasitəçi olmadan Azərbaycan və Ermənistan prezidentləri Avropa şəhərində bir araya gəldilər. Görüşdə hansısa sənəd, birgə bəyanat qəbul edilməsə də, faktın özü nümayiş etdirdi ki, Qərb Qarabağ məsələsində təşəbbüskarlığın Rusiyada qalmasına seyrçi olmaq fikrində deyil.

Əsas diqqətçəkən də odur ki, konfliktin birdəfəlik yoluna qoyulması üçün indi də Qərb (ABŞ və Avropa timsalında) yeni bir səhifə açmağa, Rusiyanı gözləmədən problemin həllini real olaraq irəli aparmağa, heç olmasa, savaş ehtimalını sıfra endirməyə, ən əsası, Moskvanı fakt qarşısında qoymağa çalışır.

NATO-nun Uels sammiti çərçivəsində Fransa prezidenti Fransua Ollandın İlham Əliyev və Serj Sərkisyanla görüşərək, qısa müddət sonra daha bir üçtərəfli təmas haqda razılıq əldə eləməsi də göstərir ki, Rusiyanın Dağlıq Qarabağ məsələsindən, bütövlükdə postsovet məkanındakı konfliktlərdən uzun müddət manipulyasiya etməsi Qərbi artıq təngə gətirib və o, Ukraynadakı böhranda Kremlin təxribatçı rolunu da ciddiyə alaraq bu konfliktlərə münasibətdə strategiyanı dəyişmək istəyir.

Artıq prezidentlərin növbəti görüşünün tarixi bəllidir. Azərbaycan və Ermənistan dövlət başçıları bu dəfə Parisdə, noyabrda görüşəcəklər. Vasitəçi isə Fransa prezidenti Ollanddır. Xəbəri Fransanın ölkəmizdəki səfiri də təsdiqləyib.

Doğrudur, belə təmaslarla bağlı rəsmi Bakı elə də nikbin deyil və "görüş xətrinə görüş"ün əleyhinədir, ancaq ötə yandan Amerika və Fransanın təşəbbüsünü yerə salmaq da mümkünsüzdür. İstər görüşləri artan intensivliyi, istərsə də və ən başlıcası, bu görüşlərdə problemin həllinə yönəlik bəzi "gümrahlaşdırıcı" təkliflər söyləməyə əsas verir ki, Qərb, hər halda, Güney Qafqazın ən üzücü və ağır probleminin həllində irəliləyişə nail olmaq üçün qərarlılıq göstərməyə can atır.

Uels görüşləri ilə bağlı Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun neçə illik fasilədən sonra təzədən "Böyük Sülh Sazişi" haqda danışmağa başlaması da bu xüsusda təsadüfə oxşamır. Nazirin sözlərinə görə, məhz ABŞ dövlət katibi təklif edib ki, belə bir layihə üzərində iş aparılsın. Onu da xatırladaq ki, cənab Kerri həmin görüşdə prezidentləri öz cəmiyyətlərini sülhə hazırlamağa çağırıb və bundan sonrakı proseslərdə şəxsən özünün iştirak edəcəyi barədə anons verib.

***

**Hərgah, məsələ ilə bağlı skeptik fikirdə olanlar da var. Məsələn, Vaşinqtondakı Kornegi Fondunun Qafqaz məsələləri üzrə eksperti, "Qara və Bağ" kitabının müəllifi Tomas de Vaala görə, hər şey dəyişsə də, Dağlıq Qarabağ məsələsində hələ ki heç nə dəyişməyib, çünki "hazırda nə prezidentlər, nə də cəmiyyət səviyyəsində münaqişənin mahiyyətinin real müzakirəsi mövcud deyil".** Sitat: "Bu gün Qarabağ münaqişəsinin yalnız nizama salınması prosesinin formal xüsusiyyətləri mövcuddur. 20 il keçməsinə baxmayaraq, cəbhə xəttində hər şey eyni vəziyyətdə qalıb, münaqişə isə hələ də həll edilməyib".

**Ekspertin məsələnin nizama salınması üçün orijinal təklifi var. Onun qənaətincə, indi daha ciddi prosesə ehtiyac var. Tomas de Vaala görə, Qarabağ münaqişəsi ilə bağlı məsləhətçilər institutu yaradılmalıdır:** "Bu institutun məqsədi problemin həlli prosesini aktivləşdirməkdən ibarətdir. Tərəflər arasında tez-tez görüşlər keçirilə bilər. Həmçinin bu addım yeni münasibətlər zemininin yaradılmasına səbəb olacaq. Bununla da tərəflər arasında qarşılıqlı ortaq məxrəcə gəlmək üçün yollar axtarıla bilər. Bu isə münaqişənin həllinə kömək edə bilər".

***

**Öz növbəsində durumu mediaforum saytına şərh edən konfliktoloq Elxan Mehdiyev sülh sazişi layihəsinin hazırlanması təklifinin heç bir reallığa əsaslanmadığını vurğulayıb:** "Sülh sazişinin nə qədər qeyri-real olduğunu görmək üçün ilk növbədə Ermənistana, həmin ölkənin başında oturan hərbi cani Serj Sərkisyanın bəyanatlarına, onun Uels görüşündən sonrakı fikirlərinə diqqət yetirmək lazımdır. Sazişi Azərbaycan və Ermənistan imzalamalıdır. Erməni tərəfin isə belə bir saziş imzalamaq, işğal etdiyi torpaqlardan çıxmaq fikri yoxdur.



Təcavüzkar məsələni, Azərbaycan prezidenti İlham Əliyevin də dəfələrlə dediyi kimi, uzatmağa israrlıdır, çünki məqsədinə çatdığını düşünür. Gələn il qondarma erməni soyqırımının 100 illiyidir. Ermənistan belə bir fonda sülh sazişi imzalayarmı?!"

**Politoloqa görə, Con Kerri sadəcə öz arzusunu ifadə edib:** "Yəni ki, sülh sazişi imzalamağın vaxtıdır. Guya sülh sazişi imzalamağa 21 il müddət lazım idi? Bir də axı, Dağlıq Qarabağ münaqişəsi Kerridən deyil, Rusiya prezidenti Vladimir Putindən asılıdır. Rusiyanın da başı indi ayrı işə qarışıb".

***

**"İrəvan bu dəqiqə Moskvanın əlində bir alətdir". Bu sözləri isə axar.az-a politoloq Vəfa Quluzadə Qarabağda "böyük sülh sazişi" məsələsini şərh edərkən deyib. O, Moskvanın Qarabağdan asanlıqla əl çəkməyəcəyini bildirib:** "Qarabağ məsələsini həll etmək üçün gərək Qərb Rusiyanı məhdudlaşdırsın və Ermənistanı onun təbeliyindən ayıra bilsin. Çünki İrəvan bu dəqiqə Moskvanın əlində bir alətdir. Rusiya Dağlıq Qarabağın ərazi bütövlüyünü tanımır, amma eyni zamanda Qarabağın da həllini əngəlləyir. Ermənistan anlayır ki, problemin həlli olmadan onun gələcəyi yoxdur. İrəvan bunu çox arzu edir, amma dilə gətirməyə qorxur. Səbəb isə ondan ibarətdir ki, neçə dəfə Rusiya tərəfindən cəzalandırılıb".

**Azərbaycanın mövqeyi isə politoloqa görə, tam konstruktivdir:** «Moskva hər zaman Ermənistanı destruktiv mövqe tutmağa kökləyərək və cəzalandıraraq, bu məsələnin həllini əngəlləyib. İndiki NATO-Rusiya qarşıdurmasında həll yalnız o halda mümkündür ki, Rusiyanın Qarabağda maraqları olmasın. Başqa bir variant isə hakimiyyətə yeni hökumətin gətirilməsi ola bilər ki, o da imperiya maraqlarına sahib olmasın. Bugünkü Rusiya Qarabağın həllinə imkan verməyəcək. Mən Qərbin Ermənistanı Rusiyanın caynağından ayırmasının tərəfdarıyam. Bu olmadan məsələni həll etmək mümkün deyil. Əgər Kerrinin Azərbaycan torpaqlarına olan iddiadan ermənilərin əl çəkməsi, Qarabağdan qoşunlarını çıxartmaları məsələsində Moskvanın Ermənistana nəzarətinin qarşısını almağa gücü çatırsa, Qarabağ ixtilafı həll olunacaq".

# Ermənilər 15 yaşlı azərbaycanlı girovu qaytarmaq istəyir

## Qızıl Xaçın Bakı nümayəndəliyi: "Danışıqlar gedir..."

**Dağlıq Qarabağdakı separatçı rejimin "əsir və itkin düşmüş şəxslərlə bağlı komissiyası"nın yaydığı məlumatda 15 yaşlı Azərbaycan vətəndaşı Cavid Məmmədovu geri qaytarmağa hazır olduqlarını bildiriblər. Modern.az Ermənistan mətbuatına istinadən xəbər verir ki, qondarma qurum bunu Cenevrə Konvensiyasının tələblərinə uyğun qaydada həyata keçirmək istəyir.**



""DQR" rəhbərliyi Cenevrə Konvensiyasının tələblərinə uyğun olaraq 2014-cü il sentyabrın 5-də ərazimizə keçmiş Məmmədov Cavid Samir oğlunu geri qaytarmağa hazırdır", - deyə separatçı rejimin qondarma komissiyası bəyan edib.

Xatırladaq ki, sentyabrın 5-dən erməni girovluğunda olan 15 yaşlı II qrup əlil Cavid Məmmədov Tərtər Rayon Yol Polisi İdarəsi rəisi müavininin oğludur. Yeri gəlmişkən, Azərbaycanın insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova 15 yaşlı Cavid Məmmədovun məsələsi ilə bağlı Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Deniz Durana məktubla müraciət edib. Ombudsman beynəlxalq hüquq normalarına riayət etməklə, Azərbaycan vətəndaşı, 15 yaşlı Cavid Məmmədovun təhlükəsizliyinin təmin edilməsini, işgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəzaya məruz qalmasının qarşısının alınmasını, habelə onun ailəsinə qaytarılmasının sürətləndirilməsinə köməklik göstərilməsini xahiş edib.

"Hazırda erməni girovluğundakı Cavid Məmmədovun azad edilməsi ilə bağlı tərəflərlə müzakirələr aparılır. Bu müzakirələrin mövzusu ictimaiyyətə açıqlanmır". Bunu isə Beynəlxalq Qızıl Xaç Komitəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova bildirib.

"Bütün hallarda qaytarılma tərəflərin razılaşmasından asılıdır. Girov götürən tərəf qaytarmağa, qarşı tərəf isə girovu qəbul etməyə razılaşmalıdır. Ən əsası isə saxlanılan şəxs qayıtmaq istədiyinə dair öz arzusunu bildirməlidir. Bu hallar üst-üstə düşdükdə komitə neytral vasitəçi olaraq qaytarılma əməliyyatında iştirak edəcək".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 227 (5936) 11 sentyabr 2014



# Müxalifət niyə mitinq keçirmir?

**Mustafa Hacıbəyli:** "Tələb edən çox olsa da, aktiv mübarizənin önündə getməyə hazır olanlar azdır"



**Belə davam etsə, 2014-cü il Azərbaycanda müxalifətin heç bir mitinqinin, piketinin keçirilmədiyi il kimi yadda qalacaq. Ölkədə müxalifətin etiraz aksiyaları keçirməsinə səbəb olacaq hadisələr baş versə də, ilin əvvəlindən müşahidə olunan passivlik davam edir. Demokratik qüvvələrin heç bir kütləvi aksiya keçirməməsinin səbəbləri barədə vaxtaşırı olaraq kütləvi aksiyalara başlamaq çağırışı edən Müsavat başqanının müşaviri Mustafa Hacıbəyli ilə danışdıq.**

**Mustafa Hacıbəyli** öncə bildirdi ki, hazırda dünya ictimaiyyətinin əsas diqqəti keçmiş postsovet məkanında Ukraynaya yönəlib. Azərbaycan hakimiyyəti də bundan istifadə edərək demokratik institutların məhv edilməsi istiqamətində tədbirlər görür. Bu tədbirlərə demokratik düşərgə təkcə bəyanatlarla münasibət bildirməməlidir: "Uzun müddət siyasi partiyalar basqılar altında oldu. Fəallıq edən müxalif siyasətçilər müxtəlif müddətlərdə həbs olunublar. Sonra uzun müddət mətbuat orqanları müxtəlif vasitələrlə sıxışdırılıb, jurnalistlər həbs edilib. İndi də dünya ictimaiyyətinin diqqətinin Ukraynaya yönəldiyi vaxtda hakimiyyət QHT-lərə qarşı təqibləri artırıb. Nəzarətdə olmayan QHT-ləri məhv etmək, qismən nəzarətdə olan QHT-ləri isə tam nəzarətə götürmək xəttini seçiblər. Bundan əvvəl Leyla Yunus kimi, İntiqam Əliyev kimi, Arif Yunus kimi QHT təmsilçiləri həbs olunublar. Demək olar ki, bütün QHT-lərin hesablarına həbs qoyulub. Təbii ki, hakimiyyətin bu basqılarına demokratik düşərgə tərəfindən adekvat reaksiya verilməlidir. Şəxsən mən bu məsələ ilə bağlı ən müxtəlif tədbirlərin, kütləvi aksiyaların keçirilməsinin tərəfdarıyam. Azərbaycanın demokratik qüvvələri yerli və demokratik ictimaiyyətin diqqətini bu probleme yönəltmək üçün kütləvi tədbirlər keçirməlidir. Niyə keçirmirlər sualına gəlincə, təəssüf ki, demokratik düşərgənin özündə belə, heç də hamının kütləvi aksiyalara, mitinqlərə münasibəti eyni deyil. Bir çox hallarda həqiqətən kütləvi aksiyalardan ehtiyatlanırlar. Çünki kütləvi aksiyalara hakimiyyət müdaxilə edir, polis dəyənəyi ilə dağıdılır, eyni zamanda həbslər, cərimələr həyata keçirilir. Elə bir vəziyyət yaranıb ki, aksiyalarda iştirak eləməyə çəkinən insanlar aksiya tərəfdarlarını aşağılayan ifadələr işlədirlər, "siz ona görə mitinq keçirilməsini istəyirsiniz ki, gedib orada şəkil çəkdirəsiniz" kimi əsassız iddialar səsləndirirlər. Ona görə də daha aktiv siyasi mübarizənin tərəfdarları da öz təşəbbüslərini qərarlara çevirməyə çətinlik çəkirlər".

**Mustafa Hacıbəyli özünü müxalifətçi kimi təqdim edən bir sıra insanların "kütləvi aksiya keçirmək istəyən, indiki vəziyyətdə aksiya keçirilməsinin vacibliyini bəyan edənlər hakimiyyətin yeni həbslər həyata keçirməsinə və bununla da cəmiyyətdə qorxu mühitinin qalmasına şərait yaradırlar" kimi iddialarının absurd olduğunu vurğuladı:** "Bunlar tamamilə absurd, gülünc iddialardır. Əlbəttə, mitinqlər məqsəd deyil, vasitədir. Biz siyasi məhbusların azadlığını tələb etməliyik. Bunu bəyanatlarla eləmək effekt vermir. Başqa hansı yolumuz var təklif eləsinlər. Biz təkcə mitinqlər yox, piketlər, yürüşlər, flaş-moblar da təklif və təşkil edirik. Yeri gəlmişkən, mən sonuncu dəfə icazəsiz aksiya olaraq, Tofiq Yaqublunun azadlığa buraxılması tələbi ilə flaş-mobun-yürüşün təşkilatçısı olmuşam. Yəni biz irticanın demokratiya üzərinə yerimədinə qarşı tədbirlər görməliyik. Bir tərəfdən deyirlər ki, referendum keçirildi və bir nəfərin iki dəfədən artıq prezident seçilməsinə icazə verildi niyə buna müqavimət zəif oldu, bir tərəfdən deyirlər hakimiyyət partiyaları, mətbuatı sıxışdırırdı buna müqavimət niyə az oldu, bir tərəfdən deyilir ki, QHT-lərin sıxışdırılmasına müqavimət niyə azdır, o biri tərəfdə isə buna müqavimət göstərənləri, göstərmək istəyənləri absurd iddialarla tənqid edirlər. Bu cür mövqe təbii ki, qınanmalıdır. Bir daha deyirəm, ictimai ovqat elə bir şəklə köklənib ki, aktiv mübarizə aparmağı tələb eləyən çox olsa da, aktiv mübarizənin önündə getməyə hazır olanlar azdır. Ona görə də aktiv mübarizə səngiyir".

**Azərbaycanın Xarici İşlər Nazirliyi Avropa Birliyi ilə vizaların sadələşdirilməsi haqqında açıqlama yayıb. Həmin saziş sentyabrın 1-dən qüvvəyə minib. Həmin tarixdən «Azərbaycan Respublikası və Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında» saziş də qüvvəyə minib.**

# Xaricə getmək istəyənlər üçün "yaşıl işıq"

## Viza qaydaları sadələşdi, jurnalistlərin üzünə "gün doğdu"...



Vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında sazişin məqsədi Azərbaycan Respublikası və Avropa İttifaqına üzv dövlətlərin vətəndaşları üçün qarşılıqlıq prinisipi əsasında vizaların verilməsinin sadələşdirilməsidir. Sadələşdirilmiş viza rejiminin tətbiqi Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında bu sahədə əməkdaşlıq üçün yeni imkanlar açacaq. Readmissiya haqqında saziş isə qeyri-qanuni miqrasiyanın qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsinə xidmət edəcək.

**Sazişə əsasən aşağıdakı istiqamətlərdə vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi nəzərdə tutulur:**

(I) Uzunmüddətli, yəni bir ildən beş ilədək etibarlılıq müddəti olan çoxdəfəlik giriş vizalarının rəsmiləşdirilməsi;

(II) Viza ərizələrinə baxılması üçün rüsumun məbləğinin endirilməsi və bir qrup kateqoriyadan olan şəxslərin rüsumdan azad edilməsi;

(III) Viza ərizəsinə baxılması müddətinin qısaldılması;

(IV) Diplomatik pasporta malik olan şəxslərin vizadan azad edilməsi;

(I) Uzunmüddətli, yəni bir ildən beş ilədək etibarlılıq müddəti olan çoxdəfəlik giriş vizalarının rəsmiləşdirilməsi

**Beş il etibarlılıq müddəti olan çoxdəfəli giriş vizalarının rəsmiləşdirilməsi aşağıdakı kateqoriyadan olan vətəndaşlara tətbiq edilir:**

- Hər iki tərəfin ərazisində qanuni yaşayan vətəndaşları ziyarət edən ər və ya arvad, valideynlər, yaşı 21-dən aşağı olan və ya valideyn himayəsində olan uşaqlar;

- Görüşlər, məsləhətləşmələr, danışıqlar və ya mübadilə proqramlarında, eləcə də hökumətlərarası təşkilatlar tərəfindən iştirakçı ölkələrin ərazisində təşkil edilən tədbirlərdə mütəmadi olaraq iştirak etməli olan rəsmi nümayəndə heyətlərinin daimi üzvləri.

**Sazişdə jurnalistlər üçün də maraq kəsb edəcək yeni detallat var. Belə ki, bir il etibarlılıq müddəti olan çoxdəfəli giriş vizaları əvvəlki il ərzində ən azı bir dəfə viza almış və səfər etdikləri dövlətin giriş və qalma qaydalarına uyğun tərzdə ondan istifadə etmiş aşağıdakı kateqoriya vətəndaşlara tətbiq edilir:**

- Təlim və ya təhsil kursları, eləcə də mübadilə proqramlarında iştirak etmək məqsədilə ilə mütəmadi olaraq səyahət edən tələbələr və doktorantlar;

- Jurnalistlər və onları peşəkar səviyyədə müşayiət edən texniki heyət;

- Qardaşlaşmış şəhərlər tərəfindən təşkil edilən rəsmi mübadilə proqramlarının iştirakçıları;

- Azərbaycan Respublikası və Avropa İttifaqı üzv dövlətlərinin əraziləri arasında beynəlxalq yükdaşımanı və sərnişin daşıma xidmətlərini həyata keçirən sürücülər;

- Tibbi məqsədlərlə mütəmadi əsasda səfər etmək ehtiyacı olan şəxslər və zərurətlə əlaqədar onları müşayiət edən şəxslər;

- Beynəlxalq sərgi, konfrans, simpozium, seminar və digər oxşar tədbirlərdə iştirak edən ixtisas sahibləri;

- Mübadilə proqramları da daxil olmaqla, təhsil kursları, seminarlar, konfranslar məqsədilə mütəmadi olaraq səfər edən vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri;

- Universitet və digər mübadilə proqramları da daxil olmaqla, elm, mədəniyyət və incəsənət tədbirlərində iştirak edən şəxslər;

- Beynəlxalq idman tədbirlərinin iştirakçıları və onları peşəkar səviyyədə müşayiət edən şəxslər;

- Rəsmi dəvətnaməyə əsasən görüşlər, məsləhətləşmələr, danışıqlar və ya mübadilə proqramlarında, eləcə də hökumətlərarası təşkilatlar tərəfindən iştirakçı ölkələrin ərazisində təşkil edilən tədbirlərdə mütəmadi olaraq iştirak etməli olan rəsmi nümayəndə heyətlərinin daimi üzvləri;

- İş adamları və kommersiya təşkilatlarının nümayəndələri.

Bu kateqoriyadan olan şəxslər səfər etdikləri dövlətin giriş və qalma haqqında qanunlarına uyğun tərzdə iki il ərzində bir illik çoxdəfəli vizalardan istifadə etdikləri halda, ən azı iki və ən çoxu beş il etibarlılıq müddəti olmaqla, onlara çoxdəfəli giriş vizaları rəsmiləşdirilə bilər.

Saziş Avropa İttifaqı və Azərbaycan Respublikası vətəndaşlarına hər 180 gün ərzində 90 gündən artıq olmayan müddətə nəzərdə tutulmuş qalma üçün vizaların rəsmiləşdirilməsi məsələsini əhatə edir.

Bu sadalanan şəxslər turist məqsədilə deyil, məhz peşəsi və ya üzrlü səbəblərlə *(yəni müalicə və ya dəfndə iştirak)* əlaqədar səfər etdikləri zamanı sadələşdirilmiş qaydada viza ala biləcəklər.

Daha bir maraqlı detal isə odur ki, viza ərizələrinə baxılması üçün rüsumun məbləği 35 avro müəyyən edilib. İştirakçı ölkələr viza rəsmiləşdirilməsi üçün kənar xidmət göstərən yardımçı şirkətlərlə əməkdaşlıq etdikləri halda, bu şirkətlər tərəfindən xidmətlər üçün əlavə ödəniş alına bilər. Bu halda xidmət üzrə ödənişin məbləği 30 avrodan artıq olmamalıdır. Amma aşağıdakı şəxslərin viza ərizəsinə baxılması rüsumdan azad edilir:

Bunlar iştirakçı ölkələrin ərazisində qanuni yaşayan vətəndaşları ziyarət edən ər və ya arvad, valideynlər, yaşı 21-dən aşağı olan və ya valideyn himayəsində olan uşaqlar, babalar, nənələr və nəvələri, rəsmi nümayəndə heyətlərinin üzvləri, mübadilə proqramları da daxil olmaqla, təhsil və ya təlim kursları, eləcə də məktəblə bağlı digər fəaliyyət məqsədləri ilə səfər edən şagird, tələbə və onları müşayiət edən müəllimlər və doktorantlar, əmək qabiliyyəti olmayan şəxslər və zəruri hallarda onları müşayiət edən şəxslər, beynəlxalq idman tədbirlərinin iştirakçıları və onları peşəkar səviyyədə müşayiət edən şəxslər, universitet və digər mübadilə proqramları da daxil olmaqla elm, mədəniyyət və incəsənət tədbirlərində iştirak edən şəxslər, təcili tibbi müalicə almaq, yaxın qohumunun dəfn mərasimində iştirak etmək və ya ciddi xəstə olan yaxın qohumunu ziyarət etmək kimi hallar daxil olmaqla, humanitar əsasda səfərlərinin zəruriliyini sübut edən sənədləri təqdim edən şəxslər və bu şəxsləri müşayiət edənlər, təhsil kursları, seminar və konfranslarda iştirak məqsədilə səfər edən vətəndaş cəmiyyəti təşkilatlarının nümayəndələri, təqaüdçülər, 12 yaşadək olan uşaqlar, jurnalistlər və onları peşəkar səviyyədə müşayiət edən texniki heyət daxildir.

Bundan başqa, viza ərizələrinə baxılması müddəti 10 təqvim günüdür. Əlavə araşdırma tələb olunduğu təqdirdə, baxılma müddəti 30 təqvim gününə qədər uzadıla bilər.

Bu istiqamətdə daha bir yenilik isə Azərbaycan prezidentinin "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nda dəyişikliklər edilməsinə verilən fərmandır. Sentyabrın 9-da gerçəkləşən yeniliyə görə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəhbərinin köməkçiləri (müşavirləri), katiblik, baş idarə, idarə (şöbə, xidmət, hərbi hissə, bölmə, sektor, qrup) rəhbərləri və onların müavinləri, aparatda baş (böyük) və orta rəis heyəti vəzifələrində xidmət edən şəxslər, zabitlər, ali (böyük, orta) xüsusi rütbəsi olan şəxslər, baş məsləhətçilər, böyük məsləhətçilər, aparıcı məsləhətçilər, məsləhətçilər və onlara bərabər tutulan vəzifəli şəxslər, eləcə də qurumun təbiliyində olan orqanların rəhbərləri və onların müavinləri, tabeliyində olan orqanların struktur vahidlərinin rəhbərləri və onların müavinləri xidməti pasport almaq hüququ qazanırlar.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 227 (5936) 11 sentyabr 2014

# Qobudan Prezident Administrasiyasına yürüş ola bilər

## Sakinlər onları qışda evdən didərgin salan problemin həllini tələb edirlər

**Abşeron rayonunun Qobu qəsəbəsində enerji böhranı yaşanır. Yeni sahədə məskunlaşan sakinlər redaksiyamıza müraciət edərək bildirirlər ki, qəsəbədə enerji təminatı biabırçı durumdadır: "Bir transformator var və o da həddindən artıq yüklənib. Axşam düşəndə qəsəbə zülmətə qərq olur. 220 əvəzinə evlərə 60 volt cərəyan gəlir. Hər gün bir elektrik cihazımız sıradan çıxır. Bir qədər əvvəl köhnə sayğacları söküb smart kartla olan sayğac quraşdırdılar. Cərəyan o qədər zəifdir ki, smart kartlı sayğaclar işləmir".**







Sakinlər deyirlər ki, transformatorun yenilənməsi üçün aidiyyəti qurumlara müraciət ediblər. Amma xeyri olmayıb: "Əgər smart kartlı sayğaclar işləməyəcəkdisə, nəyə görə dövlətə külli miqdarda ziyan vurub bu sayğaclar qoşulurdu? Həmin sayğaclara xərclənən dövlət puluna yeni transformator alıb quraşdıra bilməzdilər? Biz dəfələrlə aidiyyəti orqanlara müraciət etsək də, heç bir tədbir görülmür. Abşeron Elektrik Şəbəkəsindən və "Azerenerji"dən deyirlər ki, bu bizə aid məsələ deyil. Biz bilmək istəyirik ki, bu məsələ kimə aiddir? Hər gün yeni evlər tikildikcə həmin tikilən evlər də həmin transformatora qoşulur və enerji verilişi zəifləyir".

**Şikayətçilər bildirirlər ki, yeni xətlər primitiv üsullarla çəkilir:** "Heç bir işıq direyi istifadə edilmədiyindən elektrik xətləri qaz borularına bağlanır. Bu harada görünüb ki, elektrik xətti qaz borusuna bağlana? Bunun qarşısı alınmasa, qəsəbədə növbəti faciə olacaq. Hər gün enerji verilməsi saatlarla, hətta günlərlə dayanır. Səbəb isə göz qabağındadır. Yəni transformatorların yüklənməsidir".

**Sakinlər deyir ki, onların müraciətlərini qulaqardına vuran qurumlar qəsəbənin yeni salınan və əhalinin yaşamadığı ərazilərində yeni transformatorlar quraşdırır, yeni elektrik xətləri çəkir:** "Həmin ərazilərdə torpaqları satırlar deyə oralara tez-tələsik kabellə yeni xətlər çəkirlər. Oradan gəlirləri var deyə bizi orada məskunlaşacaq vətəndaşlardan ayırırlar. Ayrı-seçkilik edirlər. Dövlət yeni transformatorların quraşdırılmasına, elektrik kabellərin çəkilməsinə büdcədən vəsait ayıranda məgər Abşeron Elektrikşəbəkədəkilərə deyir ki, pul alın, sonra iş görün?

Yeni torpaqları satmaq üçün "Azenko" şirkəti kabelləşmə aparır. Bu da onu göstərir ki, yeni yerləri tez və baha satmaq üçün dəridən-qabıqdan çıxırlar. Biz artıq neçənci qışdır ki, evimizdə yatmırıq. Qışda enerjiyə olan tələbatımız artır və transformator da hər dəfə partlayır. Həftələrlə işıq olmur. Artıq qış gəlir və biz yenə də evimizdən köçməyə məcbur olacağıq. Görəsən, hansı zəmanədə yaşayırıq ki, evin ola-ola bir neçə ay kirayədə qalasan? Bizim tələbimiz budur ki, ən azı bu yüklənmədən qurtarmaq üçün və yeni evlər tikildiyinə görə 2 transformator qoyulsun. Əks halda, biz məcburuq qəsəbənin mərkəzi yolunu bağlayıb, Prezident Administrasiyasına yürüş edək".

Sakinlər inanırlar ki, prezidentin Bakı və ətraf qəsəbələrin inkişafı haqda fərmanı nəhayət ki, Abşeron Rayon İcra Hakimiyyətinə də gedib çatacaq və problemləri həll ediləcək.

❑ E.MƏMMƏDƏLİYEV

# Ölkədə təmtərağa meyl necə yaranır?



**Hüseynbala SƏLİMOV**

**Bir neçə il əvvəlin söhbətidir. İlk dəfə Y.Qaydarın kitabından məmur kapitalizmi haqqında oxuyarkən hələ bu fenomenin sərhədlərini, onun fəsadlarını axıra qədər təsəvvür etmirdik. O vaxt ağlımıza da gəlməzdi ki, illərlə bu sosial bəlanı yaşamalı olacağıq.**

İndi dəbdəbə, təmtəraq və ifratçılıqla bağlı məmurların və bir də hakim partiyanın funksionerlərinin yazdıqlarını oxuyarkən bir daha bu problem haqqında düşünməli olduq.

Bəli, hakim partiyanın funksionerlərinə elə gəlir ki, onlar artıq yas mərasimləri ilə bağlı məsələləri yoluna qoyublar və növbəti hədəf toylar olacaq. Halbuki bəziləri yas mərasimlərinə qırx gündə xərclədiklərini indi üç gündə xərcləməyə çalışırlar. Amma yenə də fərq etmir, olsun. Görün onlar toylarla bağlı nə deyirlər?

Həmin funksionerlər toy mərasimləri ilə bağlı İngiltərədə gördüklərini bölüşürlər. Deyirlər ki, orada xüsusi toy hədiyyələri mağazaları var. İnsanlar bu mağazalardan hədiyyələr alır və çeki bəylə gəlinə verirlər.

Bəs hədiyyələrin qiyməti nə qədərdir? Təsəvvür edin, təxminən 20 funtsterlinqdən tutmuş 3000 funtsterlinqə qədər!

Bunu oxuyanda indiki toylara şükür dilədik. İndi toyu 50-100 manatla başa vurmaq olur. Hətta 100 manat kifayət qədər yaxşı hədiyyə hesab edilir. Təsəvvür edin, camaat 1000-2000 funtsterlinqlik hədiyyə təqdim etdiyi halda siz də əlləriniz əsə-əsə 20 funtsterlinqlik hədiyyə çekini bəylə gəlinə uzadırsınız!..

Deyə bilərsiniz ki, bu ki, İngiltərədə baş verir, orada ki, məmur kapitalizmi yoxdur? Düzdür, orada məmur kapitalizmi yoxdur. Amma İngiltərə kapitalizminin azı 400 il yaşı var. Azərbaycanda bəzi məmurların sərvəti heç də ingilis kapitalistlərinkindən az deyil. Amma bu, o demək deyil ki, biz hamımız pulda və sərvətdə ingilislərlə yarışa bilərik!

Məmur kapitalizmi özünü daha nədə göstərir? Xərcləri zorla, süni şəkildə İngiltərə və yaxud da başqa bir ölkənin standartları səviyyəsinə qaldırmağa cəhd edirlər. Bəs gəlirlər? Bəli, gəlirlər haqqında kim düşünəcək? Bəlkə onları da ABŞ-ın, İngiltərənin səviyyəsinə qaldırmaq lazımdır?

Gəlirlər demişkən, indi, təmtəraq, dəbdəbə və ifratçılıq haqqında söhbət gedərkən, bəlkə elə məmurların gəlir deklarasiyası haqqında düşünməyin əsl vaxtıdır? Axı bu məsələ də nə vaxtsa həllini tapmalıdır!..

Kimsə üçün sirr deyil ki, əksər hallarda həyat standartları ilə bağlı musiqini məhz oliqarx məmurlar sifariş edirlər. Dəbdəbənin də, təmtərağın da, ifratçılığın da mənbəyi elə onlardır.

Azərbaycanda həyat şəraiti əhalinin təxminən 15- 20 faizinin gəlirlərinə hesablanıb. Elə bazarda təklif də bunun əsasında formalaşır. Başqa ölkələrdə istehsalçılar nisbətən ucuz qiymətə daha çox adama satmaqla udurlarsa, Azərbaycanda məsələ əvvəldən tərsinə qoyulur: hamı az satmaq, amma necə deyərlər, saz satmaq istəyirlər...

Məmur kapitalizmi daha nələrə gətirib çıxardı? "Elita" məfhumunun tərəfdarı olmasaq da, məmur kapitalizmi ölkədə ayrıca, siyasi elitadan kənarda iqtisadi elitanın yaranmasına imkan vermədi.

Məmurlar iqtisadiyyatın ayrı-ayrı sektorlarına "krışalıq" edirlər. Güclünü, daha tədbirlini bazar yox, məmurlar müəyyən edir. Demək olar ki, heç bir rəqabət yoxdur, sadəcə, inhisarçı sektorlar var... Açığı, adam Azərbaycan iqtisadiyyatının "rəqabət indeksi" haqqında yazıları oxuyanda gülməkdən başqa çarəsi qalmır. Soruşmaq istəyirsən ki, xırda ticarətdən başqa, cənablar, siz rəqabəti harada görürsünüz?..

Ölkədə mülkiyyət hüququ da mübahisəlidir. Bir çox hallarda mülkiyyətin toxunulmazlıq müddəti ona "krışa"lıq edən məmurun vəzifədə olduğu müddət qədərdir.

Ona görə də axır vaxtlar işdən çıxarılanlar hətta özləri ilə bağlı qərarların çox vaxtında verildiyini və bunun çox müdrik qərar olduğunu xüsusilə qeyd edirlər. Onlar bununla özlərini vəzifədən getməyin acı nəticələrindən qorumağa, vəzifədə olduqları müddətdə topladıqları sərvəti rahat xərcləmək üçün toxunulmazlıq qazanmağa çalışırlar. Bəzi hallarda bu, onlara nəsib olur, bəzi hallarda isə məmurlar vəzifə ilə birlikdə hər şeylərini itirirlər. Ona görə ki, məmur kapitalizminin qaydaları daha sərtdir, burada müflisləşmək üçün şanslar daha böyükdür, çinki onlar tək iqtisadi oyun qaydalarına deyil, birinci növbədə siyasi qaydalara əməl etməlidirlər...

Bəli, acıdır, amma reallıqdır, məmurların özlərinin yaratdığı reallıqdır...



## Mübariz Qurbanlı özünə yeni komanda yığır

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində kadr dəyişikliyi davam edir. Modern.az-ın məlumatına görə, qurumun yeni sədri Mübariz Qurbanlının müvafiq əmri ilə Oqtay Hüseynov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Aparatına rəhbər təyin olunub. O. Hüseynov artıq işə çıxır.**

Qeyd edək ki, iyulun 21-dən komitəyə sədr təyin olunan YAP icra katibinin müavini Mübariz Qurbanlı təxminən iki aya yaxın köhnə komanda ilə çalışandan sonra kadr islahatlarına başlayıb. Yeni sədr Anar Kazımovu komitənin Bakı şöbəsinin müdiri təyin edib. A. Kazımov buna qədər komitənin Bakı şöbəsində məsləhətçi işləyib.

Onu da qeyd edək ki, M.Qurbanlının sədrliyindən qabaqkı dövrdə komitə sədrinin köməkçisi işləmiş Daşqın Rəcəbli də bir neçə gün öncə vəzifəsindən azad edilib, onun yerinə 28 yaşlı Amid Cavadov gətirilib.

# Keçmiş direktor təhsil şöbəsinin müdirini döydü

**Moderator.az-a Kəlbəcər rayonundakı mənbələrdən çox heyrətamiz bir məlumat daxil olub. Belə ki, Kəlbəcər Rayon Təhsil Şöbəsinin müdiri səlahiyyətlərini icra edən Məhiyyədin Əbdürrəhmanov sentyabrın 9-da günorta saat 15 radələrində iş yerinin qarşısında keçmiş məktəb direktoru tərəfindən döyülüb.**




Şahidlərin bildirdiyinə görə, əslən rayonun Keştək kəndindən olan Ceyhun Abdullayev bu ilin yazınadək Yevlax rayonunun Salahlı kəndində yerləşən Kəlbəcər orta məktəbində direktor işləsə də rəhbərlik etdiyi təhsil ocağında aparılan yoxlamanın nəticəsi olaraq işindən azad edilib. Məlumatlara görə, yoxlama zamanı çoxsaylı qanun pozuntuları, maliyyə maxinasiyaları, külli miqdarda yeyinti üzə çıxarılıb və materiallar həm Maliyyə Nazirliyinə, həm də Korrupsiyaya qarşı Mübarizə İdarəsinə göndərilib.

Bundan qeyzlənən Ceyhun Abdullayev elə o vaxt da təhsil şöbəsinə hücum çəkərək Məhiyyədin Əbdürrəhmanovu döyüb və bu günədək guya rayon polisi onu axtarır. Dünənsə Ceyhun Abdullayev qəflətən armaturla silahlanaraq Məhiyyədin Əbdürrəhmanovun qarşısında peyda olub, onu təhqir edərək sonra qoluna və başına dəmir parçasıyla zərbələr endirib.

Rayon təhsil şöbəsi müdirinin sürücüsü və metodkabinənin müdiri Elçin Şirinov araya girib onu sakitləşdirmək istəsə də Ceyhun Abdullayev başının dəstəsiylə hücum çəkərək onların hər üçünü döyüb. Dərhal da hadisə yerini tərk edən qoçuları tutmaq polisə də müyəssər olmayıb və Məhiyyəddin Əbdürrəhmanov Gəncədəki Teymurov xəstəxanasına yerləşdirilib.

Ekspertiza ona ağır kəllə-beyin travması və qolun sınığı diaqnozunu qoyub.

Olay rayon ictimaiyyətinin narazılığına səbəb olub və insanlar günün günorta çağı aşkar qoçuluq edən şəxslərin sərt şəkildə cəzalandırılması tələbini səsləndiriblər. O da bildirilir ki, olayın əsas təşkilatçısı təhsil şöbəsinin keçmiş müdiri Məhəmməd Bağırovdur və yeni şöbə rəisi məhz onun göstərişi əsasında döyülüb...

YENİ MÜSAVAT
N 227 (5936) 11 sentyabr 2014

# Məktəb mövsümünün gəlişi valideynlərin qayğısını artırıb

## Bir məktəblinin ləvazimatına ən azı 150 manat lazımdır; **Teymur Muradov:** "Bahalığa görə oğlumu bu il məktəbə qoymadım..."







**Yeni tədris ilinin başlanmasına artıq bir neçə gün qalıb. Məktəb yaxınlaşdıqca valideynlər də şagirdlər qədər həyəcan keçirir. Valideynlərin həyəcanı əsasən övladını məktəbə yola sala bilmək qayğısıdır. Çünki bazar və dükanlarda məktəb ləvazimatlarının qiyməti əl yandırır. Əlacsız valideynlər məcburən səhərdən axşamadək dükan və bazarları gəzərək nisbətən ucuz mallar axtarırlar.**

Hazırda ticarət mərkəzlərində müxtəlif çeşiddə məktəbli ləvazimatı tapmaq mümkündür. Ancaq qiymətlər kəllə-çarxa çıxıb. Belə ki, bir məktəblinin məktəb ləvazimatının qiyməti orta hesabla 200 manata başa gəlir. Bu ləvazimatların haradan alınmasından asılı olaraq qiymətlər arta-azala bilər, amma nəticə etibarilə qiymət 150 manatdan aşağı enmir. Ailədə məktəbə gedəcək uşaqların sayı 1-dən çoxdursa, onda vəziyyət bir az da gərginləşir. Çünki qiymət ikiqat, üçqat artmış olur ki, bu da aztəminatlı ailələrin qayğısına səbəb olur.

Biz də məktəb ləvazimatlarının qiymətləri, alış-veriş edən valideynlərin haqlı etirazlarını öyrənmək üçün bir neçə dükan və bazara baş çəkdik. İlk baş çəkdiyimiz məkan metronun "28 May" stansiyasının yaxınlığındakı yeraltı keçiddə yerləşən topdansatış mərkəzi oldu. Burada hər qiymətə məktəb ləvazimatı satılırdı. Qiymətlərə gəldikdə isə, məsələn, məktəbli çantaları 20-35, ağ köynəklər 15-20, dəftərlər 20 qəpik və 1 manat arasında, 6 dənəlik rəngli karandaşlar 4 manat, 12 dənəlik karandaş 6 manata, 24 dənəlik karandaş isə 12 manata satılırdı.

Yollandığımız digər dəftərxanalardan birində isə çantalar 15 manata, qələmlər 30-80 qəpiyə, pozan 30 qəpik-1 manat, dəftərlər isə 15-70 qəpik, rəsm albomu - 40 qəpik - 2 manat, xətkeş 20 qəpik - 2 manat, qələm qabı 2- 5 manat, su qabı 2-6 manat arasında dəyişirdi. Bundan əlavə, test kitabçaları, əlavə vəsaitlərin də xərci ayrıdır. Məhsulların qiyməti çeşidləri və keyfiyyətindən asılı olaraq dəyişir.

"8-ci kilometr" bazarında qiymətlər nisbətən aşağı idi. Belə ki, burada məktəbli çantalarının qiyməti 10-30 manat, qələmlər 20-60 qəpik, pozanlar 20 qəpik-1 manat, karandaşlar 70 qəpik -3 manat, dəftərlər isə 10-80 qəpik arasında qiymətlərə satılırdı. Qızlar üçün olan balaca saç lentləri 70 qəpik, böyük lentlər isə 1 manata idi. Oğlan köynəklərinin biri 10 manata satılırdı.

Satıcı Nihat Ağayevi sözlərinə görə, axtarsan bazarda 5, hətta 3 manata da köynək tapmaq olar, ancaq bu köynəklərin keyfiyyəti yaxşı deyil. Onların əksəriyyətinin Çin məhsulu olduğunu deyən satıcı bu tip paltarları almağı məsləhət görmədiyini bildirdi.

**Bazarı dolaşdıqca satıcılarla yanaşı, alıcılarla da söhbətləşdik. Bazarda iki övladı ilə məktəb bazarlığına çıxan Şəfa Məstəliyeva 1-ci sinfə uşaq yola salmağın daha böyük məbləğ tələb etdiyini dedi:** "Məktəblərin başlamasına 3-4 gün qalıb. Uşaqlarımla səhərdən bazar və dükanları gəzirik ki, məktəb ləvazimatlarının nisbətən ucuz satıldığı yeri tapaq. İki uşaq məktəbə yola salıram. İkinci qızım bu il məktəbə gedir. Bu da mənim xərcimi iki qat artırır. 4-cü sinifdə oxuyan oğlumu keçən il aldığım çantası, köynəyi və ayaqqabısı ilə yola salacağam. Başqa əlacım yoxdur. Təkcə dəftər-qələmə 50 manatım çıxıb. Hələ qızıma ayaqqabı, çanta və məktəbdən verilən məktəbli forması da almalıyam. Bütün bunların öhdəsindən necə gələcəyəm bilmirəm".

**Digər valideyn Teymur Muradov bir uşağı üçün məktəb ləvazimatlarına 150 manat xərclədiyini dedi:** "Yaxşı ki, kitabları məktəb verir. Yoxsa belimiz qırılardı. Biz istəyirik ki, uşaqlarımız təhsil alsın. Amma bu bahalıqla mümkünsüz görünür. Oğlum bu il birinci sinfə getməli idi. Məktəb xərclərinə görə onu bu il məktəbə qoymadım. İkisinə birdən necə çatdırım?!"

**Gəldiyimiz nəticə bu oldu ki, bir valideynin övladına nisbətən keyfiyyətli alış-veriş etməsi üçün ən az 150 manat xərcləməsi gərəkdir. Bu pul isə kimi üçün əl çirki olsa da, əksər ailələr üçün ciddi məbləğdir, hətta bəzi ailələrin bir aylıq dolanışıq xərcidir.**

❑ Günel MANAFLI
Fotolar müəllifindir

**Elan**

**Hacıqabulda ipək yolunun yanında 47 hektar torpaq sahəsi, çobanlar üçün 2- ədəd -2 otaqlı , 1ədəd- 4 otaqlı qonaq evi, 3 hektar meyvə bagı, 200 ədəd mal-qara saxlamaq üçün daşdan tikilmiş tövlələr, 10 min ot bagı üçün yem anbarı, 2ədəd balıq gölü, daimi işıgı, suyu. Qaz çəkdirmək üçün sənədlər ( texnikişərt), 0,5 hektar torpaq sahəsi olan restoran, 30 metr üzüm talvarı olan ferma satılır. Ətrafında əlavə 100-150 hektar torpaq sahəsi var.**

**Əlaqə nömrəsi : (050)-214-40-53**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# "Asan imza" xidməti "Nar Mobile" ilə daha da asanlaşdı

## Abunəçilər artıq paytaxt və Sumqayıtdakı bütün "Nar Mobile" xidmət mərkəzlərində «Asan imza» mobil elektron imza xidmətindən yararlana biləcəklər

**"Nar Mobile" mobil operatoru "Asan imza" mobil elektron imza xidməti göstərən mağazalarının sayını artırdı. Belə ki, abunəçilər artıq Bakı şəhərindəki bütün "Nar dünyası" mağazalarında, eləcə də Sumqayıtdakı hər iki mağazada "Asan imza" xidmətindən yararlana biləcəklər. Bundan başqa, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Bakı şəhəri Mirəli Qaşqay küçəsi 56 ünvanda yerləşən "195" çağrı mərkəzində, eləcə də Bakı şəhəri Sabunçu rayonunda fəaliyyət göstərən "Asan xidmət-4" mərkəzində də "Asan imza" xidmətindən yararlanmaq mümkün olacaq.**

**Qeyd edək ki, "Asan imza" elektron xidmətlərdə avtorizasiya və elektron sənədlərin imzalanması baxımından rahat, etibarlı və təhlükəsiz bir alətdir. "Asan imza" mobil elektron imza texnologiyasının açar üstünlükləri smart-kartın oxunması üçün əlavə qurğuların və proqram təminatının istifadəsinə ehtiyacın olmamasıdır. Xidmətin istifadəsi üçün autentifikasiya və elektron imza rəqəmsal açarlarının saxlanıldığı SIM-karta əsaslanan mobil telefonun mövcudluğu kifayətdir.**

**Əlavə məlumatı www.narmobile.az və www.asanimza.az saytlarında əldə etmək mümkündür.**

**Azərbaycanın sürətlə inkişaf edən mobil operatoru olan "Nar Mobile" 2007-ci ildən etibarən abunəçilərinə xidmət göstərir. Fəaliyyət göstərdiyi illər ərzində "Nar Mobile" daima sərfəli qiymət siyasətinə sadiq qalaraq müxtəlif tarif planları ilə abunəçilərinə ən sərfəli təkliflərini təqdim etmiş və onların rəğbətini qazanmışdır. Münasib danışıq tarifləri ilə yanaşı, mobil operatorun müxtəlifliyi və sərfəliliyi ilə seçilən İnternet paketləri, eləcə də abunəçilərin hər zona üzrə eyni qiymət ödədikləri sadə rouminq təklifləri xüsusilə qeyd olunmalıdır.**




# «Azercell»in Yenilənmiş Mobil Göz Kilinikası fəaliyyətini davam etdirir

**Yeni tədris ili üçün re-brendinq edilən Mobil Göz Klinikası sentyabr ayında da kimsəsizlərə və məcburi köçkünlərə dayaq olacaq.**

**Azərbaycan mobil rabitə bazarının lider şirkəti «Azercell Telekom»un sosial sahədə həyata keçirdiyi unikal layihəsi Mobil Göz Klinikası bu gün də fəaliyyətini uğurla davam etdirir. Yeni tədris ili üçün re-brendinq edilərək yenilənən Mobil Göz Klinikası valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin profilaktikasının aparılması, onların hərtərəfli müayinəsinin təşkilini təmin edərək, həmçinin ahılları və aztəminatlı ailələrinə də xidmət göstərəcək. Bu ilin yay aylarında Lökbatan qəsəbəsində yerləşən 39 saylı Kardiorevmatoloji Sanatoriyada müalicə alan vətəndaşları, Sumqayıtda yerləşən sığınacaqda məskunlaşan Laçın və Zəngilan rayonlarından olan məcburi köçkünləri və eyni zamanda Qala qəsəbəsindəki məcburi köçkünləri müayinə edən Mobil Göz Klinkasının həkimləri sentyabr ayında da bu xeyirxah işləri davam etdirəcəklər. Belə ki, sentyabr ayında Mobil Göz Klinikası Pirşağıda və Zabratda məcburi köçkünlərin məskunlaşdığı sığınacağa, "Ümid Yeri" sığınacağına və eləcə də, Sumqayıtdakı internat məktəbinə yollanacaq. Məlumat üçün bildirək ki, layihə çərçivəsində klinika artıq Bakı şəhərindəki bir çox internat məktəbləri, uşaq evlərinə səfər edib. Gəncə, Lənkəran, Qusar rayonlarındakı kimsəsiz uşaq evlərində, Nabrandakı uşaq düşərgələrində məskunlaşan və Qubadan, Xaçmazdan gətirilən görmə qüsurlu uşaqların müayinələri aparılıb.**

**Qeyd edək ki, Mobil Göz Klinikası 2011-ci il iyunun 1-də - Uşaqların Beynəlxalq Müdafiəsi Günündə fəaliyyətə başlayıb. Azərbaycanda çox maraqla qarşılanan və populyarlaşan bu layihədən indiyə qədər 2 mindən artıq uşaq yararlanıb. Layihənin icrasını Caspian Compassion Project aparır. Bu qurum «Azercell»in aldığı avtobusun təchizatına, həkimlərin seçiminə, klinikanın marşrutlarının müəyyənləşdirilməsinə cavabdehdir. «Azercell»in bu təşəbbüsü o qədər uğurlu olub ki, sonradan digər şirkətlər də səyyar şəkildə tibbi müayinələrin təşkili ilə bağlı layihələr reallaşdırmağa başlayıblar.**

**Şirkət həyata keçirdiyi sosial layihələrə görə dəfələrlə həm ölkəmizdə, həm də beynəlxalq arenada mükafatlandırılıb. Onu da qeyd edək ki, ilk dəfə məhz «Azercell» 2007-cı ildə "İlin Korporativ Sosial Məsuliyyətli" şirkəti seçilib, bundan sonra isə hər il sosial məsuliyyətlə bağlı mükafatlara layiq görülüb.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell Telekom MMC» 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell Ekspres» ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2013-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell 3G», 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır.**

# Paytaxtda və əyalətdə tükürpədən qətllər



**Cəlilabad rayonunda qətl hadisəsi baş verib.**

APA-nın cənub bürosunun məlumatına görə, hadisə sentyabrın 9-da gecə saatlarında rayonun Maşlıq kəndində qeydə alınıb. Kənd sakini, 1991-ci il təvəllüdlü Elman Elçin oğlu Həsənov yaxın qonşusu və həmkəndlisi olan 1991-ci il təvəllüdlü Həbib Beytulla oğlu Şahbazovu aralarında baş verən mübahisə zəminində çoxsaylı bıçaq zərbələri ilə ölümcül yaralayıb. Cəlilabad Mərkəzi Rayon Xəstəxanasına çatdırılan zərərçəkmişə müvafiq tibbi yardım göstərilməsinə baxmayaraq, o, çoxlu qan itirdiyinə görə cərrahiyə stolunda dünyasını dəyişib.

Hadisəni törətmiş Elman Həsənov polis tərəfindən saxlanılaraq istintaq orqanlarına təhvil verilib.

Faktla bağlı Cəlilabad Rayon Prokurorluğunda qəsdən adam öldürmə maddəsi ilə cinayət işi açılıb, araşdırma aparılır.

***



Ağdaş rayonunda 3 nəfərin ağır xəsarət alması ilə nəticələnən güllələnmə hadisəsi baş verib. APA TV-nin məlumatına görə, hadisə sentyabrın 9-da axşam saatlarında Ağdaşın Qaraoğlan kəndində qeydə alınıb. Kənd sakini, 26 yaşlı Mollayev Nəsrəddin Asim oğlu ilə qonşusu, 44 yaşlı Bayramov Azər Əziz oğlu arasında dava düşüb. İlkin məlumata görə, qonşular arasında münaqişəyə Azərin inəklərinin kol-koslu çəpərdən Nəsrəddinin həyətinə keçməsi səbəb olub. Dəfələrlə belə halın baş verməsi sonda qonşular arasında qanlı davaya səbəb olub. Nəsrəddin Mollayev evindəki ov tüfəngini götürərək qonşusu Azər Bayramovu güllələyib. Dava zamanı onları sakitləşdirmək istəyən Nəsrəddin Mollayevin anası, 44 yaşlı Mollayeva Gülzar Fərman qızı və əmisinin arvadı, 53 yaşlı Mollayeva Simuzər Şiralı qızı da güllə yarası alıb. Yaralıların hər üçü Ağdaş Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib.

Hadisəni törədən Nəsrəddin Mollayev tutularaq istintaqa təhvil verilib.

Qeyd edək ki, Ağdaş Rayon Suvarma Sistemləri İdarəsinin işçisi olan Nəsrəddin Mollayevin qardaşının bu gün toy mərasimi olacaqdı.

***

Sentyabrın 9-da Bakıda qətl törədilib. Bakı Şəhər Baş Polis İdarəsindən lent. az-a verilən məlumata görə, saat 16:30 radələrində B.Nuriyev küçəsində naməlum şəxs bıçaqla Bakı şəhər sakini 1993-cü il təvəllüdlü Cəfər Teymurova xəsarət yetirib. O, aldığı xəsarətdən xəstəxanada ölüb.

Keçirilən əməliyyat tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən, 1992-ci il təvəllüdlü Şahnamiq Hüseynov Nizami RPİ 24-cü PB-nin əməkdaşları tərəfindən yaxalanıb.

Məlumata görə, Bəhruz Nuriyev küçəsində 21 yaşlı Cəfər Teymurovu qətlə yetirən 22 yaşlı Şahnamiz Hüseynov onu söyüş üstündə bıçaqladığını deyib. Məlum olub ki, hər iki şəxs əvvəlcədən bir-birini tanıyırlarmış və münasibətləri olub. Dünən isə onlar B.Nuriyev küçəsində yaşadıqları binanın həyətində qarşılaşıblar və söhbət ediblər. Söhbət əsnasında gənclərin sözü çəpləşib. Ş.Hüseynovun sözünə görə, Cəfər onu söyüb və o da əsəblərinə hakim ola bilməyərək tanışını bıçaqlayıb.

***



Qusar rayonunda intihar hadisəsi baş verib.

Qusar Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə rayonun Şirvanovka kəndində qeydə alınıb.

Kənd sakini, 26 yaşlı Radik İbrahim oğlu Mahmudov yaşadığı evin həyətindəki zoğal ağacından özünü asıb. Onun özünə qəsd etməsinin səbəbləri məlum deyil.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

# Xaçmazdakı pivə zavodunun direktoruna sərt ittihamlar

**"Qasım Muradov özünə hər il evlər və müxtəlif obyektlər tikdirir, fəhlələrin əmək haqlarını isə mənimsəyir"**

**İşlətdiyi fəhlələrin pulunu mənimsəməkdə suçlanan və bir sıra qanunsuz əməllərinə görə Nərimanov Rayon Polis İdarəsində dindirilən "Aysberq" Pivə İstehsalat Müəssisəsinin təsisçisi Qasım Muradovun işi araşdırılması üçün Xaçmaz polisinə göndərilib.**

Bu barədə məlumatı aznews.az-a direktordan şikayətçi olan Paşa Əliyev verib. Onun sözlərinə görə, Qasım Muradovdan daha 10 nəfər fəhlə polisə müraciət edərək, əmək haqlarının verilməsini və onlara müxtəlif yollarla edilən təzyiqlərin dayandırılmasını istəyiblər. Şikayətçi bildirib ki, pivə zavodunun müdiri özünə hər il evlər və müxtəlif obyektlər tikdirir və həmişə də fəhlələrin əmək haqlarını mənimsəyir:

"Kimsə ona etiraz edəndə hədələyir, şikayət verirsən, polis çox vaxt baxmır. Qudurğanlıq edir. Təsəvvür edin ki, rayonda nə qədər tikinti materialı satan dükanlar var, hamısına borcludur. Çoxu haqqını tələb etməyə qorxur".

**Şikayətçi bildirib ki, indi onun rəhbərlik etdiyi usta-fəhlə qrupuna 9.440 manat borcu var, amma məsələ təkcə bu məbləğdə deyil:**



Qasım Muradov

"Biz bundan əvvəl də onun işini görmüşük. Pivə zavodunun da üzləmə-fasad işlərini görmüşəm. Onda bizim 10 min manatımızı kəsdi. Nə qədər çalışdıq ala bilmədik. Mən o işdə də ziyana getdim və məsələ ilə bağlı sahibkarın böyük qardaşına şikayət etdim. O, sözügedən borcu mənə verməməklə yanaşı, qaçıb gizlənir və zəng edəndə məni təhqir edirdi. Mən onunla görüşməyi də təklif etdim, ancaq o gəlmədi. Uzun müddətli söz-söhbətdən sonra zəng edib dedi ki, gəlin, başqa işlərim var, onu həll edin, qalan borcu da bu işləri gördüyünüz vaxt qaytararam. "Köhnə söz-söhbəti bağlayaq" - dedi və olanlara görə mənə üzrxahlıq etdi. Yenidən onun şirin dilinə aldanıb rəhbərlik etdiyim işçi heyəti ilə birlikdə ona Xaçmazda yeni mənzil tikdik. Qasım Muradovun mənzilinin tikintisindən sonra o, pivə zavodunda bizim başımıza gətirdikləri oyunu yenidən təkrar etdi".

**P.Əliyev əlavə edib ki, sahibkarla bağlı Nərimanov Rayon Polis İdarəsinə etdikləri şikayətə baxılması üçün Xaçmaz rayonuna göndərilib:** "İşi Xaçmazda gördüyümüz üçün şikayət də baxılması üçün sözügedən rayona göndərilib. Polisə çağırılan kimi özüm işçilərimlə - Məmmədov Ramin, Əliyev Hacıbaba, Məmmədov Rauf, Baxışəliyev Fuad, Qacarov Ələsgər, Şakir Raufla - birlikdə Xaçmaza gedəcəyik. Biz nə lazım olsa, əlimizdən gələn işi görüb, öz zəhmətimizlə qazandığımız pulu ondan alacağıq".

# Dələduz məhkəmə hakiminin işi ilə bağlı qalmaqal

**Həsən Əliyevin keçmiş iş yoldaşları prosesə çıxmaqdan imtina etdilər**

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluq və rüşvət vermədə təqsirləndirilən keçmiş hakim Həsən Əliyevin barəsində olan cinayət işi üzrə məhkəmənin sentyabrın 10-na təyin olunan hazırlıq iclası təxirə salınıb.**

APA-nın məlumatına görə, prosesdə məhkəməyə sədrlik edən hakim Azər Orucov bildirib ki, hakim tərkibi özlərinə etiraz edir. Azər Orucov deyib ki, o özü və tərkibdə olan hakimlər - Əlövsət Abbasov, Əlisultan Osmanov təqsirləndirilən Həsən Əliyevlə iş yoldaşı olublar. A.Orucov qeyd edib ki, bu hal işin baxılmasına təsir etməsə də, cəmiyyətdə yanlış fikir yarada bilər.

Etiraza Bakı Apelyasiya Məhkəməsində baxılacaq. Buna görə də proses qeyri-müəyyən vaxtadək təxirə salınıb.



Həsən Əliyev

Qeyd edək ki, yayılan məlumatlara görə, Rusiyadan gələn iş adamı Ramazan Səlimov işə düzəlmək üçün 2011-ci ildən tanıdığı Elman Məmmədova müraciət edib. E.Məmmədov isə onu Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Həsən Əliyevlə tanış edib. Həsən Əliyev isə R.Səlimovdan işə düzəltmək adı ilə 600 min manat pul alıb. Lakin sonradan pulu qaytarmayıb. Bundan sonra R.Səlimov polisə şikayət edib. Şikayət əsasında cinayət işi başlanılıb və E.Məmmədov həbs edilib.

İstintaq dövründə Həsən Əliyevə qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) maddəsi ilə bərabər, Cinayət Məcəlləsinin 312-ci (rüşvət vermə) maddəsi ilə də ittiham elan olunub. Lakin barəsində həbs-qətimkan tədbiri seçilməyib.

Onu da qeyd edək ki, prezident İlham Əliyev Həsən Əliyevin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında sərəncam imzalayıb. Buna səbəb kimi Həsən Əliyevin qanunvericiliyin tələblərini dəfələrlə kobudcasına pozması göstərilib.



ATA-ENESI: PARENTS
Atasy Father: Muradow (familiýasy - surname)
Şamil Paşaýewiç (ady, atasynyň ady - name, patronymic)
milleti nationality: azerbaýjan
raýatlygy citizenship: -
Enesi Mother: Habibowa (familiýasy - surname)
Nargizhanum Alekperowna (ady, atasynyň ady - name, patronymic)
milleti nationality: azerbaýjan
raýatlygy citizenship: -
Hasaba alnan ýeri Place of registration: Türkmenbaşy ş. RÝNÝ bölümi
(name and location of the Civil Status Registration Office)
Berlen wagty Date of issue: 2014 aprel 02 aýynyň month

## Erməni olduğu deyilən müğənninin sənədləri yayıldı

**Müğənni Natəvan Həbibinin xalq artisti Aygün Kazımova, Tolik və Zoriki ona "erməni" dediklərinə görə şərəf və ləyaqətin alçaldılması, işgüzar nüfuzuna xələl gətirilməsi maddəsi ilə məhkəməyə müraciət etməsi barədə xəbər vermişdik.**

"Qafqazinfo" Natəvanın atası Muradov Şamil Paşa oğlu, anası Həbibova Nərgiz Ələkbər qızı, dayısı Həbibov Əhməd Ələkbər oğlu, əmisi Muradov Kamil Paşa oğlu, xalası Həbibova Nəcibə Ələkbər qızının doğum haqqında şəhadətnamələrini əldə edib. Doğum haqqında şəhadətnamələrdə müğənninin və onun ailəsinin "erməni" olması ilə bağlı heç bir məlumat əks olunmayıb.

Qeyd edək ki, sənəddə Həbibinin doğum haqqında şəhadətnaməsinin verilmə tarixi 1984- cü il, yenilənmə tarixi 2014-cü il göstərilir. Sənədin yenilənməsi Türkmənistanda "Ümumi Sənəd Yenilənməsi Qanunu" ilə əlaqədardır.

# Nazir türmədən çıxanlar üçün xüsusi yer tikdirir

**Hazırda Qobustanda penitensiar mərkəzlərdən buraxılan keçmiş məhbusların cəmiyyətə adaptasiyasını təşkil etmək üçün bir neçə sığınacaq tikilir. Salamnews xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov deyib.**

Zabratda kimsəsiz uşaqlar üçün də sığınacaqların tikildiyini deyən nazir, bu sığınacaqların ilin sonuna qədər təhvil veriləcəyini qeyd edib: "Zabratda həm də kimsəsiz uşaqlar üçün peşə-reabilitasiya mərkəzləri inşa olunur. Bu yaxınlarda məişət zorakılığına məruz qalmış şəxslərin cəmiyyətə adaptasiyasının təşkil olunması üçün fəaliyyət proqramı qəbul olundu. Bu proqramda belə şəxslərin sosial adaptasiyasının təmin olunması və onlar üçün reabilitasiya mərkəzlərinin tikilməsi nəzərdə tutulub. Hazırda bu işlərlə bağlı iş gedir. Gələn ildən etibarən isə ölkənin müxtəlif regionlarında belə sığınacaqların hazırlanması üçün dövlət büdcəsindən əlavə vəsaitin ayrılması nəzərdə tutulub".



Səlim Müslümov

YENİ MÜSAVAT

Son səhifə

N 227 (5936) 11 sentyabr 2014



# iPhone 6 neçəyə olacaq?

“Apple” şirkətinin yeni təqdim etdiyi iPhone 6 və iPhone 6 Plus modellərini əldə etmək istəyənlər bir az gözləməli olacaqlar. “Apple” şirkətinin çoxdandır gözlənilən iPhone 6 modelinin necə olacağı çoxlarını maraqlandırırdı. Artıq bu intizara son qoyuldu və dünən İPhone 6-nın təqdimatı oldu. Bu telefonlar dərhal satışa çıxarılmayacaq. Amma iPhone həvəskarları yeni model telefonları əldə etmək üçün artıq növbə tutmağa başlayıblar. Yeni smartfonlar Birləşmiş Ştatlarda 19 sentyabrda satışa çıxarılacaq. İPhone həvəskarları yeni modellərin satışa çıxarılmasını səbirsizliklə gözləyir. Modelin oktyabr ayında 120 ölkədə satışa çıxacağı açıqlanıb. ABŞ üçün 2 illik müqaviləyə uyğun olaraq telefonun qiymətləri də açıqlanıb. Gb-dən asıl olaraq İPhone 6-nın qiyməti 199-399 dollar arasında dəyişəcək. 6 Plus isə 299 dollardan başlayacaq 499 dollara qədər olacaq. Yeni modellərin xüsusiyyətləri haqqında “Apple”ın marketinq üzrə vitse-prezidenti Fil Şiller məlumat verib. Beləliklə, yeni model İPhone 6-nın ekran diaqonalı 4,7 İPhone 6 Plus-un isə 5,5-dir. iPhone 6-nın qalınlığı 6-6,8, iPhone Plus-da 7,1 millimetrdir. Yəni bizi olduqca nazik telefon aparatları gözləyir. Yeni displeylərin küncləri daha geniş, rəngləri isə daha dəqiqdir. Korpuslar şüşə və aliminiumdandır. Yeni telefonların həm də daha yaxşı enerji saxlamaq qabiliyyəti olacaq. 50 saat səs yazma, 11 saat isə videoya baxmaq mümkün olacaq.

# 168 il sonra tapıldı

Məşhur ingilis araşdırmaçı Con Franklinin 1846-cı ildə itən iki gəmisindən biri 168 il sonra tapılıb. Kanadanın baş naziri Josef Harper məsələ ilə bağlı açıqlama verib və ölkə tarixinin ən böyük sirrinin açıqlandığını deyib. Tapılan gəminin dəqiq adı bilinmir. Gəminin tapılması üçün sualtı kameralarla işləyən xüsusi sualtı qayıq hazırlanıb. Tapılan gəminin Kanada tarixinin ən böyük şahidlərindən biri olduğu deyilir. Gəminin tapılmasında əziyyət çəkən hər kəsə təşəkkür edən Harper gəminin içində araşdırma aparıldığını deyib. 2008-ci ildən bəri axtarılan gəminin tapılmasından sonra II Elizabet Kanadaya təbrik məktubu göndərib.



# Qara üzümün faydaları

**Qara üzüm gözəllik iksiri, gerçək beyin qidası və zəifləmək üçün riayət edilən rejimlərin ana məhsuludur.**

- Qara üzüm eyni ilə aspirin kimi qanı sulandırdığından ürək xəstəliklərinə qarşı insanları qoruyur.

- Qara üzümün qabığında olan və fitoaleksin qrupu mürəkkəblərdən olan resveratrol bədəndə xərçəngin meydana gəlməsinə mane olur.

- Bəzi qaraciyər narahatlıqları və qanazlığı müalicəsində də təsirlidir.

- Qara üzümün ehtiva etdiyi meyvə turşuları və lifli quruluşundan mədəyə zərər vermədən böyrək və bağırsaq sisteminin nizamlı işini təmin edir və qanın təmizlənməsinə kömək edir.

- Qara üzüm bədəndəki yağların əriməsinə yardım edir.

- Qara üzüm bədəni viruslara qarşı daha müqavimətli hala gətirir.

- Qara üzümün qabıq və nüvələri maddələr mübadiləsini sürətləndirir.

- Qara üzüm dərinin təzə və təmiz bir görünüş almasına kömək edir.

- Günortadan sonra yeyilən bir salxım qara üzüm və bir stəkan təzə sıxılmış üzüm suyu bədəni və beyin hüceyrələrini gümrahlaşdırır.

- Bir kiloqram üzüm 1150 qram süd, 390 qram ət, 300 qram çörək və 1200 qram kartofa ekvivalentdir.

- Qara üzüm amin turşuları, B vitaminləri (B1, B2), minerallar, kalium, maqnezium və dəmir ehtiva etdiyindən immunitet sistemini qüvvətləndirir.

- Tərkibindəki turşular mədəyə zərər vermədən böyrəklərin və qaraciyərin işini sürətləndirir.

- Qara üzüm ehtiva etdiyi bioflavonoidlər səbəbi ilə C vitaminin fəaliyyətini çoxaldır.

- Qara üzüm allergiya və əhənglənmələrdə iltihab meydana gəlməsinə mane olur.






**QOÇ** - Mənfi yüklü Ayın bürcünüzə daxil olması səhhətinizə mənfi təsir göstərə bilər. Lakin bu fəsadın fəaliyyət prinsipinə və ya iş planınıza hər hansı maneəsi olmayacaq.

**BUĞA** - Ulduzlar bir neçə gərgin situasiya ilə rastlaşacağınızı bildirir. Bu sətirləri ona görə yazırıq ki, qarşısını alasınız. Çətin də olsa, təmkin göstərin, oturaq işlərə aludə olun.

**ƏKİZLƏR** - Neçə vaxtdan bəri donub qalan planları həyata keçirmək üçün bu təqvimdən maksimum yararlanın. Bu istiqamətdə ümid etdiyiniz və gücünüz çatan adamlara da müraciət edə bilərsiniz.

**XƏRÇƏNG** - Atalarımızın dediyi “işim daşdan çıxır” ifadəsi bu təqvimdə sizin bürcə daha çox uyğun olacaq. Odur ki, daşdan iş çıxarmaqdansa, istirahətə üstünlük verin. Mübahisələrdən isə qaçın.

**ŞİR** - Astroloji göstəricilər bu təqvimi daha çox münasibətlərin tənzimlənməsinə yönəltməyi tövsiyə edir. Hətta buna görə fəaliyyətə də ara vermək olar. Axşam qonaq getməyə dəyər.

**QIZ** - Analitik zəkanızı işə salın. Nə qədər enerjiniz var, hamısını fəaliyyətə yönəldin. Sədaqətli və təcrübəli insanları özünüzdən uzaqlaşdırmayın. Bu gün uzaq yola çıxmayın.

**TƏRƏZİ** - İlin-günün bu vaxtında romantik duyğulara qapılmaq sizə yalnız zərər verə bilər. Şairanə düşünməkdənsə reallığa uyğun addım atın ki, uğurlarınız yaxınlaşsın. Səhhətinizi də qoruyun.

**ƏQRƏB** - Nəhayət ki, neçə aydan bəri ora-bura vurnuxmağınız öz nəticəsini verməyə başlayır. Odur ki, hər cür dedi-qodudan, cəfəng söhbətlərdən uzaqlaşıb perspektivli işlərlə məşğul olun.

**OXATAN** - Ötən günlərdəki tövsiyəmizi bu günə də şamil edirik: ətrafınızda olanlarla qərəzsiz davranın. Əks halda, tənhalığa mübtəla ola bilərsiniz. Axşam bir neçə yenilik gözlənilir.

**OĞLAQ** - Qarşınızda duran bu təqvimi daha çox neytral şəkildə başa vurmağa çalışın. Riskə ehtiyac yoxdur. Yaxşı olar ki, maddi sıxıntılarınızı aradan qaldırmağın yollarını tapasınız.

**SUTÖKƏN** - “Dünya həyatı bir körpüdür, bu körpünü təmir etməyə vaxt itirməyin, sadəcə tez ötüb keçin!” Peyğəmbərimizin (s) bu sözlərinə əməl edin. Dünyanı düzəltmək sizlik deyil.

**BALIQLAR** - Ümumi mənzərə neqativ deyil. Bu isə nəzərdə tutduğunuz işləri normal şəkildə başa çatdıracağınızdan xəbər verir. Tənbəllik etməyin, yeni işgüzar əlaqələrə həvəs göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# First lady futbol oynadı



Ukrayna prezidenti Pyotr Poroşenkonun həyat yoldaşı futbol oynayıb. Birinci xanım Xarkovda ayaqyalın stadiona çıxıb. Mariya Poroşenko kimsəsiz uşaqlar üçün olan bərpa mərkəzində olub. Onların ailələrə qaytarılması işinin tezləşdirilməsi ilə tanış olub. Birinci xanım uşaqlara hədiyyələr təqdim edib və onlarla əylənib. O, idman dərsində olan uşaqlarla da görüşüb. Xanım Poroşenko qız şagirdlərlə də futbol oynamaqdan çəkinməyib. Qapıya keçən birinci xanım ayaqqabılarını da çıxarıb. O, birinci top zərbəsini məharətlə dəf etsə də, ikinci topu tuta bilməyib. Daha sonra Mariya Poroşenko futbolçu qızla yerdəyişmə edib. “Mən bu uşaqların gözlərində müəllimlərinə, Ukraynaya sevgi gördüm” deyə, birinci xanım səfər təəssüratlarını bölüşüb.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565